# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

HUMANİTAR
*elmlər seriyası*

*серия*
ГУМАНИТАРНЫХ НАУК

*series of*
HUMANITARIAN SCIENCES

№ 2, 2024

**Bakı – 2024**

***Baş redaksiya heyəti:***

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

***Seriyanın redaksiya heyəti:***

**Zeynalov İ.X.** (redaktor), **İsmayılov X.İ.** (redaktorun müavini), **Quliyeva S.Z.** (məsul katib), **Əliyeva İ.S., Qurbanov A.İ., Əlizadə Y.M., Rzayev A.Ə., Əzizov E.Z., Hacıyev S.T., Vəliyev Ş.Q., Məmmədov C.Ə., Vəliyev M.T., Rüstəmov R.Ə.**

© Bakı Dövlət Universiteti, 2024

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Humanitar elmlər seriyası 2024***

## TARİX

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (XVI ƏSRİN ƏVVƏLLƏRİ)

**Almas S.CAVADOVA***

*Məqalədə Azərbaycan Səfəvi dövlətinin Osmanlı və Qərbi Avropa dövlətləri ilə siyasi əlaqələri məsələlərindən bəhs edilir. Məlumdur ki, yeni dəniz yollarının, ticarət bölgələrinin, həmçinin Böyük coğrafi kəşflər nəticəsində bir sıra Avropa dövlətlərinin, xüsusən İngiltərə, Hollandiya, Fransanın Yaxın və Orta Şərqin əsas ticarət mərkəzlərində möhkəmlənməsi prosesi başlandı. Avropanın Yaxın və Orta Şərq dövlətləri, eyni zamanda Azərbaycanla olan ticarət əlaqələri müstəmləkə ticarəti xarakteri daşıyırdı. Müxtəlif Şərq məmləkətlərində öz inhisarlarını yaratmaq, Avropa sənaye müəssisələri üçün ucuz və sərfəli xammal mənbələrinə, əhəmiyyətli satış bazarlarına sahib olmaq Avropa dövlətlərinin Şərq istiqamətində nəzərdə tutduqları iqtisadi və siyasi planın əsasını təşkil edirdi. Avropa dövlətləri tərəfindən reallaşdırılması nəzərdə tutulan "Şərq siyasəti" Səfəvi dövlətinin beynəlxalq ticarət əlaqələrinə mənfi təsir göstərirdi.*

*XVI əsrin əvvəllərindən etibarən Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında münasibətlərin kəskinləşməsi, Osmanlı imperiyasını məğlub etmək, onun hərbi qüvvələrinin iki cəbhəyə ayrılmasına nail olmaq üçün Səfəvi dövlətinin xarici siyasətinin əsasında Qərb dövlətləri ilə diplomatik münasibətləri canlandırmaq siyasəti dururdu.*

**Açar sözlər:** Azərbaycan, Səfəvi, Avropa, diplomatik əlaqə, xarici siyasət, ticarət əlaqəsi

**Giriş.** Azərbaycan Səfəvi dövlətinin yaranması Osmanlı imperiyasının Şərqə doğru genişlənmə siyasətinin həyata keçirilməsində ciddi maneənin yaranması demək idi. Səfəvi dövlətinin yaranması Şərqin mühüm ticarət mərkəzlərinə, Qara dənizin ticarət limanları və Qara dənizi Avropa ilə birləşdirən ənənəvi karvan yollarına sahib olmaq uğrunda mübarizəni daha da gücləndirmiş oldu. Osmanlı dövlətində sultan Səlimin (1512-1520) taxta çıxması ilə Səfəvi-Osmanlı münasibətləri kəskinləşmişdi. Səfəvi dövlətinin xarici siyasətinin əsas istiqamətini, Ağqoyunlu dövlətində olduğu kimi, Osmanlı dövlətinə qarşı Avropa dövlətləri ilə diplomatik əlaqə yaratmaq və

* ***Bakı Dövlət Universitetinin dosenti; almazjavadova@bsu.edu.az;***
***ORCİD İD: 0000-0002-5161-2424***

müttəfiqlərin köməyi ilə Osmanlı imperiyasını məğlub etmək siyasəti təşkil edirdi [19, 119].

Qərb dövlətləri Şərqdə baş verən hadisələri diqqətlə izləyirdilər. Xüsusən XVI əsrin əvvəllərində Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı yeritdiyi siyasət diqqətdən kənarda qala bilməzdi. Ümumiyyətlə, Şərqdə yeni, əzəmətli bir müsəlman dövlətinin yaranması və iki dövlətin yeritdiyi xarici siyasətin üst-üstə düşməsi dövlətlərarası ziddiyyətin daha da kəskinləşməsinə səbəb olurdu. Osmanlı imperiyasının Venesiya ilə 1499-1502-ci illərdə baş verən müharibəni tezliklə sona çatdırmasını da, məhz Şərqdə inkişaf etməkdə olan Səfəvi dövlətinin əzəməti ilə əlaqələndirmək olar [10, c.2, 217-218; 9, 204].

**XVI əsrin əvvəllərində mövcud olan beynəlxalq vəziyyət.** Şərqdə yeni bir dövlətin yaranması və bu dövlətin yeritdiyi xarici siyasətin Osmanlı imperiyasının dövlətlərarası ticarətdə tam üstünlük əldə etmək siyasətinə zidd olması, Roma papası tərəfindən Osmanlı imperiyasına qarşı «xaç yürüşü» təşkil etmək fikrinin irəli sürülməsi ilə nəticələndi. Qərbi Avropada kapitalist münasibətləri qeyri-bərabər şəkildə inkişaf edirdi. Feodalizmin böhranı və kapitalist münasibətlərinin inkişafı prosesi özünü milli mərkəzləşdirilmiş dövlətlərin yaranmasında göstərirdi. Bu prosesin gedişinə Qərbi Avropada mövcud olan iki qüvvə - Müqəddəs Roma imperiyası və Papalıq mane olmağa çalışırdı. Xüsusən V Karlın (1519-1555) dövründə bu qüvvələr Qərbi Avropanın irticaçı, siyasi qüvvələrini təmsil edən vahid monarxiya yaratmağa çalışırdılar [16, 70].

Avropada baş verən siyasi hadisələr müxtəlif siyasi qüvvələrin Osmanlı imperiyasına zidd mövqedə durmasını göstərir. 1494-1559-cu illərdə Fransa və Alman imperatorluğu arasında İtaliyanı işğal etmək uğrunda baş verən müharibələr, XVI əsrdə başlamış iri antifeodal hərəkatı olan Reformasiya hərəkatı, həmçinin V Karl və Alman protestant ittifaqı arasında 1546-1548-ci illərdə baş verən Şmalkalden müharibəsi və s. kimi siyasi hadisələr Qərbi Avropa dövlətlərinin Osmanlı imperiyasının işğalçılıq siyasətinə qarşı bu dövlətlərin əks mövqeyini müəyyən edirdi [16, 70].

Yaranmış ziddiyyətli şəraitdə İngiltərə ikili mövqe tuturdu. XVI əsrin əvvəllərində İngiltərə 100 illik müharibədən sonra yenidən Avropada əhəmiyyətli mövqedən çıxış etməyə başlamışdı. XVI əsrin 20-30-cu illərinin əvvəllərində yaranmış frank-türk ittifaqı İngiltərənin Avropanın yeritdiyi xarici siyasətdə tezliklə öz mövqeyini müəyyənləşdirməsinə səbəb oldu [15, 63]. Avropada Habsburqların güclənməsindən qorxan İngiltərə monarxiyası, o dövrdə V Karla qarşı birgə müharibə aparmaq planını gerçəkləşdirmək üçün Osmanlı hökmdarı Sultan Süleymanla (1520-1566) gizli danışıqlar aparan Fransaya tərəf meyl etməyə başladı. 1525-ci ilin noyabrında notarius Karaçiollo imperatora yazmışdır ki, Fransa və onun müttəfiqləri olan İngil-

tərə və İtaliya knyazlıqları Osmanlı dövləti ilə birləşib Habsburqlara qarşı müharibə edə bilərlər [15, 63]. XVI əsrin 20-30-cu illərində İngilis diplomatiyasının Cənubi-Şərqi Avropadakı fəaliyyəti, əsasən V Karl imperiyasına qarşı mübarizədə özünə yeni müttəfiqlər axtarması işinə yönəldilmişdir. Osmanlı imperiyası ilə birbaşa əlaqəsi olmayan İngiltərə Osmanlı siyasətini Fransa tərəfdən dəstəkləyir və osmanlıların vassalı olan Macarıstanla sıx münasibətlər yaratmağa çalışırdı. Lakin Fransa-İngiltərə ittifaqının zəifləməsi ilə İngiltərə tərəfdən Fransanın Şərq siyasətinin dəstəklənməsi zəifləmiş oldu. Getdikcə Fransa-Osmanlı ittifaqı zəifləyirdi. Bu, hər şeydən əvvəl İngiltərənin Alman protestant knyazlıqları ilə ittifaq bağlamaq siyasəti ilə əlaqəli idi. 40-cı illərin əvvəllərində yaranan İngilis Habsburq ittifaqı İngiltərəni avtomatik olaraq Osmanlı imperiyasının müttəfiqliyindən kənarlaşdırmış oldu. Məhz bu dövrdən Qərbi Avropanın yeritdiyi "Şərq siyasəti"ndə İngiltərə qəti olaraq öz mövqeyini müəyyənləşdirmiş oldu [15, 66].

Bəhs etdiyimiz dövrdə Qərbi Avropada Osmanlı imperiyasına qarşı dura biləcək üç iri dövlətin - Almaniya, İspaniya və Fransanın əsas diqqəti davam edən İtaliya müharibələrinə yönəlmişdir. İtaliya dövlətləri isə əsas mübarizəni Osmanlı dövlətinə qarşı deyil, alman-fransız hücumundan qorunmağa yönəltmişdir. Hətta bəzi İtaliya dövlətləri bu mübarizədə Osmanlı imperiyasının hərbi köməyinə ümid edirdilər. Bu dövrdə Osmanlı imperiyasının hərbi sahədə uğurlar qazanmasına müsbət təsir edən amillərdən biri də Roma papalarının katolisizmin yayılmasına yönəldilmiş siyasətindən Balkan yarımadası və Şərqi Avropa əhalisinin narazılığının artması idi [17, 18-20].

Yaranmış bu vəziyyətdən istifadə edən Osmanlı imperiyası daha geniş işğalçılıq siyasətini həyata keçirməyə başladı.1521-ci ildə Belqradın, 1522-ci ildə Rodosun işğalından sonra Osmanlı imperiyası əsas diqqəti Macarıstan krallığına qarşı yönəltmiş oldu. Macarıstanın kömək üçün Habsburqlara, papa VII Klimenteyə, Venesiya və İngilis kralı VIII Henriyə müraciət etməsinə baxmayaraq, Osmanlı imperiyasına qarşı döyüşdə Macar Kralı II Layoş özünün türk qoşunları ilə müqayisədə azsaylı qoşunu ilə iştirak etdi və nəticədə 29-30 avqust 1526-cı ildə Moxare yaxınlığındakı döyüşdə tam məğlub oldu. Macar kralı II Layoş bu döyüşdə öldürüldü [16, 73-74; 13, 63; 7, 160].

Macarıstan krallığının işğal edilməsi ilə Osmanlı imperiyasının Mərkəzi Avropaya doğru işğalçılıq siyasətinin həyata keçirilməsi üçün imkan yaranmış oldu. 22 iyun 1533-cü ildə İstanbulda, Avstriya Alman bloku ilə Osmanlı imperiyası arasında bağlanan "əbədi sülh haqqında" müqaviləsinə əsasən Macarıstan ərazisi iki dövlət arasında bölüşdürüldü [10, 323]. Həmin il Osmanlı imperiyası Polşa ilə də «əbədi sülh» müqaviləsi imzalamış oldu [3, c.2, 155-156].

Artıq XVI əsrin 30-cu illərinin əvvəllərində Avropada yaranmış siyasi vəziyyət Osmanlı imperiyasının Şərqə, Asiyaya doğru istiqamətlənmiş yürü-

şünün həyata keçirilməsi üçün əlverişli şərait yaratmış oldu.

Qərbi Avropada Alman imperiyasının, İspaniyanın, Fransa və İtaliyanın diqqəti İtaliya müharibələrinə yönəlmişdir. Macar feodal dövləti ləğv edilmiş, Osmanlı imperiyası üçün Qərb tərəfdən təhlükə törədə biləcək Avstriya və Polşa bağlanmış «əbədi sülh» haqqında müqavilələrlə bitərəfləşdirilmiş oldular [19, 158]. XVI əsrin 30-cu illəri Osmanlı imperiyasının Şərq siyasətinin daha genişmiqyaslı xarakter aldığı dövr idi. Bu, hər şeydən öncə 1498-ci ildə Hindistana dəniz yolunun açılması, Portuqaliyanın Hind okeanı hövzəsində möhkəmlənməsi nəticəsində Osmanlı imperiyasının iqtisadiyyatına güclü zərbə vurulmuş oldu. Artıq XV əsrin II yarısı - XVI əsrin əvvəllərində Fateh Sultan Mehmet və Sultan I Səlim tərəfindən aparılan işğalçılıq müharibələri nəticəsində beynəlxalq karvan yollarının əsas məntəqələri Osmanlı imperiyası tərəfindən işğal edilmişdir. Sultan Süleyman tərəfindən Macarıstanın işğalı və 1521-ci ildə Belqrad, 1526-cı ildə Budanın işğalı ilə Osmanlı imperiyası Avropanı Şərqlə birləşdirən İstanbul ticarət yolunun əhəmiyyətli hissəsini nəzarət altına almış oldu. Rodosun işğalı ilə Osmanlı imperiyası Aralıq dənizində öz mövqeyini daha da möhkəmlətmiş oldu. Lakin Böyük coğrafi kəşflər, Hindistana dəniz yolunun kəşfi, Avropa dövlətlərinin Amerika ilə əlaqələrinin genişlənməsi getdikcə Şərq və Qərb dövlətləri arasındakı ticarətdə Aralıq və Qara dənizlərinin rolunun zəifləməsinə səbəb oldu [19, 158-159; 18, 215].

Portuqaliya tərəfindən Hind mallarının Avropaya ixracı ticarəti üzərində inhisarın yaradılması mühüm ticarət mərkəzi olan Hörmüzdə, Fars körfəzi və cənubi Ərəbistan yarımadasında Portuqaliyanın mövqeyinin möhkəmlənməsi nəticədə Hindistanı Fars körfəzi və Qırmızı dəniz vasitəsilə Aralıq dənizi ilə birləşdirən karvan və dəniz yollarının əhəmiyyətinin zəifləməsinə səbəb olmuşdur. Əvvəlki əsrlərdə olduğu kimi, XVI əsrin I yarısında da Osmanlı imperiyası üçün əsas, əhəmiyyətli idxalat malı Azərbaycan və Gilan ipəyi idi. Bu xammal da Avropaya yalnız Hörmüzdən keçməklə okean yolu ilə daşınırdı.

XVI əsrin 30-cu illərində Osmanlı imperiyasının yeritdiyi xarici siyasətin əsasında Portuqaliyanın Hind okeanı bölgəsindən çıxarılması, Səfəvi dövlətinin darmadağın edilməsi və yenidən ticarət əlaqələrini canlandırmaq siyasəti dururdu. Osmanlı imperiyasının XVI əsrin 30-cu illərində yeritdiyi xarici siyasətin əsas istiqamətlərindən biri Fars körfəzi və Xəzər dənizi hövzəsi ərazilərini işğal etməklə daxili sənayeni xam ipəklə təmin etmək və Avropada qiymətli xammal hesab edilən ədviyyatın əsas istehsal bölgələrini ələ keçirməklə Avropa və Şərq dövlətləri arasındakı vasitəçi ticarəti tamamilə ələ keçirməkdən ibarət idi. Odur ki, Şərqdə hər hansı bir Avropa dövlətinin müstəqil olaraq mühüm ticarət məntəqələrindən birinə sahib olması Osmanlı dövlətini heç cür qane etmirdi. Bununla əlaqədar olaraq Portuqa-

liyanın Hind okeanı və Fars körfəzində möhkəmlənməsi Osmanlı imperiyasının bu istiqamətdə kəskin siyasət yeritməsinə səbəb oldu. 1517-ci ildə Sultan I Səlim tərəfindən Misirin işğalı ilə Osmanlı imperiyası Qırmızı dəniz bölgəsində öz mövqeyini möhkəmlətdi və bu, Osmanlı-Portuqaliya münasibətlərinin daha da gərginləşməsinə səbəb oldu [17, 88].

**Azərbaycan Səfəvi dövlətinin Osmanlı imperiyası və Qərbi Avropa dövlətləri ilə əlaqələri.** Səfəvi dövlətinin Qərbi Avropa ölkələri ilə diplomatik münasibətlər qurmasında öz məqsədləri vardı. Bu, ilk növbədə Avropa ilə ticarət əlaqələrini genişləndirmək və odlu silahların alınmasından ibarət idi. Səfəvi dövlətinə Qərbdən göndərilən odlu silahı almaq üçün Aralıq dənizi sahillərinə çıxmaq lazımdır. Bunun üçün isə ya Osmanlı dövlətinə müharibə elan etmək və Qaraman ərazilərinə çıxmaq, ya da Misir sultanını məğlub edib Suriyanı işğal etmək lazım idi. Səfəvi dövləti də Avropa ölkələri ilə danışıqlar zamanı daha çox bu məsələdən bəhs edir və onların diqqətini, məhz Misirə qarşı yönəltməklə, yaranan vəziyyətdən istifadə edib öz qoşunlarını Suriyaya istiqamətləndirmək planını həyata keçirməyə çalışırdı [10, c.2, 247].

Səfəvilər dövlətinin yaranması Ağqoyunlu dövlətinin Osmanlı imperiyasına qarşı mübarizədə daim müttəfiqi olan Venesiya respublikasını sevindirməyə bilməzdi. Venesiya respublikası osmanlılara qarşı meydana gələn hər hansı bir narazılıqdan istifadə etməyə çalışırdı. Qaramanda Osmanlı əleyhinə baş qaldırmış narazılıqlar, Səfəvi-Osmanlı ziddiyyətləri Səfəvi dövlətinin Venesiya ilə yaxınlaşmasına səbəb olmuşdur [19, 120].

Səfəvi dövləti Osmanlı imperiyasına qarşı mübarizədə Portuqaliya ilə hərbi ittifaq bağlamağa cəhd göstərirdi. Osmanlı imperiyası ilə düşmənçiliyi olan Portuqaliya daha çox Səfəvi dövlətinə yaxınlıq göstərirdi. Əsas məqsədi Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibə törədib onların hər ikisinin qüvvəsini tükəndirib Fərat və Dəclə boyunca mühüm əhəmiyyətli yerləri tutmaq idi [23, 99]. Bu ittifaqı yaratmaqda əsas məqsəd Fars körfəzi vasitəsi ilə bu dövlətlə ticarət əlaqələri yaratmaq və bu yolla odlu silah əldə etməkdən ibarət idi. Səfəvi dövlətinin Portuqaliya ilə münasibətlər yaratması, əsasən Avropadan Hindistana dəniz yolunun açılması və Portuqaliyanın Hind okeanında güclənməsi ilə birbaşa bağlı idi. Portuqaliyalı Vasko da Qamanın ərəb dənizçi və coğrafiyaşünası Əhməd ibn Məcidlə birgə 1497-1498-ci illərdə Hindistana dəniz yolunun açılması ilə bu bölgənin ticarət və siyasi həyatında portuqaliyalılar fəallaşmış oldular [1, 19]. İlk ekspedisiyadan sonra bir-birinin ardınca hərbi dəniz ekspedisiyaları göndərilmişdir. Bu P.Kabralın başçılığı ilə 1500-1501-ci illərdə, Vasko da Qamanın 1502-1503-cü illərdə, Fransisko Almeydanın 1505-1509-cu illərdə, Alfonso Dalbukerkinin 1503-1515-ci illərdəki ekspedisiyaları idi. Nəticədə Şərqi Afrika, Hindistan, Seylon və Cənub-Şərqi Asiyada olan mühüm hərbi-stra-

teji və ticarət əhəmiyyətli mərkəzləri işğal etmiş oldular [5, 914-915].

1507-ci ildə Aden körfəzindəki Sokomra adasını və həmçinin 1513-cü il Aden körfəzinin işğal edilməsi uğrunda apardığı müharibələrlə portuqallar faktiki olaraq Hind okeanı körfəzini, Qırmızı dəniz və Misir vasitəsilə Aralıq dənizi ilə birləşən məşhur ticarət yolunu bağlamış oldular [19, 137-138]. Portuqalların 1507-ci ilin oktyabrında Səfəvi dövlətindən asılı vəziyyətdə olan və hər il Səfəvi xəzinəsinə vergi ödəyən Hörmüz şəhərinə hücumu və bu şəhəri işğal edərək öz vassalına çevirməsi ilə Səfəvi dövlətini Hind okeanı ilə əlaqələndirən mühüm ticarət mərkəzi itirilmiş oldu. Şiltberqer Hörmüzün mühüm hərbi strateji və ticarət əhəmiyyətindən bəhs edərək yazır ki, «bu şəhər Böyük Hindistana doğru istiqamətlənən dənizin sahilində yerləşir. Bu şəhərə çoxlu ticarət malları, xüsusən qızıl və qiymətli daşlar gətirilir» [22, 42].

Portuqallar tərəfindən Hörmüzün işğalı ilə digər dövlətlərin, o cümlədən Səfəvi dövlətinin bu bölgədə ticarətinə son qoyulmuş oldu. Portuqaliya tərəfindən icazəsi olmayan heç bir əcnəbi gəmi Fars körfəzinə daxil ola bilməzdi. Hörmüzdə Portuqaliya ticarət faktoriyasının açılması ticarətin Portuqaliyanın əlinə keçməsi demək idi. Azərbaycanın xarici ticarət əlaqələri üçün əhəmiyyətli olan ikinci mühüm karvan yolu da, faktiki olaraq bağlanmış oldu. Bu, Hind okeanını Hörmüz vasitəsilə Fars körfəzi və Bağdadı Aralıq dənizi ilə birləşdirən mühüm ticarət yolu idi [19, 138]. Səfəvi dövlətinin xarici ticarət əlaqələrində əhəmiyyətli rola malik olan bu ticarət yollarının işğalı ilə Səfəvi dövlətinin iqtisadiyyatına, həmçinin Hörmüzü Təbriz vasitəsilə Şamaxı, Xəzər dənizi və Volqa vasitəsilə Rus dövləti və Avropa dövlətlərilə birləşdirən ticarət yoluna güclü zərbə vurulmuş oldu. Bununla Azərbaycanın xarici ticarət əlaqələri daha da zəifləmiş oldu. Azərbaycan tacirləri Hörmüzlə Aralıq və Qara dəniz arasında yerinə yetirdikləri vasitəçi ticarətdən əldə etdikləri gəlirdən məhrum olmuş oldular. Portuqaliya və Osmanlı imperiyasının XVI əsrin əvvəllərində yeritdikləri işğalçılıq siyasəti nəticəsində Səfəvi dövləti üçün mühüm ticarət əhəmiyyətli mərkəzlərin işğalı Azərbaycanın iqtisadi cəhətdən tam təcrid olunmuş vəziyyətə düşməsinə səbəb oldu. Bu ticarət mərkəzlərinin portuqalların əlinə keçməsi Şərqlə Qərb arasındakı ticarətdə onların fəallaşmasına səbəb oldu. Portuqalların Hind sularında və Qızıl dənizdə fəaliyyətə başlaması həm siyasi, həm də ticarət baxımından Osmanlı dövlətinə mühüm bir zərbə idi [11, c.2, 221].

Bu dəfə də Qərbi Avropa dövlətləri Osmanlı imperiyasına qarşı möhkəm hərbi-siyasi blok yarada bilmədilər. Avropada 1519-cu ildə İspan kralı I Karlosun, eyni zamanda V Karl adı ilə Almaniya imperatoru seçilməsi Osmanlı-Almaniya dövlətlərarası ziddiyyətlərin yeni mərhələsinin başlanmasına səbəb oldu. Osmanlı sultanlarının xarici siyasətləri Şərqdə vahid, əzəmətli islam dövlətinin yaradılması idisə, V Karlın xarici siyasətinin əsas

məqsədi «ümumdünya xristian monarxiyasının» yaradılmasından ibarət idi [19, 146]. Lakin 1494-1559-cu illərdə fasilələrlə davam edən İtaliya müharibələrinin 1519-cu ildə yenidən şiddətlənməsi bütün Avropa dövlətlərinin, xüsusən İspaniya, Fransa və Almaniyanın diqqətinin bu müharibələrə yönəlməsinə səbəb olmuşdur. Avropada belə bir siyasi vəziyyətin yaradılması nəticəsində Qərb diplomatiyası Osmanlı imperiyasına Səfəvi dövləti vasitəsilə zərbə vurmaq siyasəti yeritməyə başladılar. Çaldıran döyüşündəki məğlubiyyət isə Şah I İsmayıla Osmanlı imperiyası üzərində qələbənin yalnız onun qüvvələrini 2 cəbhəyə – Şərq və Qərb cəbhəsinə ayırmaqla mümkün olduğunu göstərdi. Odur ki, Şah Qərb dövlətləri ilə diplomatik əlaqələri genişləndirmək siyasətini gücləndirmiş oldu. Bu siyasəti yeritməkdə Səfəvi dövlətinin əsas məqsədi Fars körfəzində möhkəmlənməkdə olan Portuqaliyanın vasitəçiliyi ilə Qərb dövlətlərindən odlu silah almaqdan ibarət idi. Məlumdur ki, Səfəvi-Portuqaliya yaxınlaşması hələ Çaldıran döyüşü ərəfəsində başlamışdı. Lakin Portuqaliyanın Fars körfəzində möhkəmlənməsinə Səfəvi-Osmanlı ziddiyyətləri əlverişli şərait yaratmış oldu. Səfəvilərin məğlubiyyətindən istifadə edən Portuqaliya 1515-ci ilin fevralın 20-də Hörmüzə yenidən hücum etdi və bu ticarət mərkəzini işğal edərək burada ticarət faktoriyası və qarnizon yerləşdirdi [18, c.2, 205]. Səfəvi dövləti Osmanlı imperiyasına qarşı Portuqaliya ilə müqavilə imzalamaq üçün sonuncunun Fars körfəzində möhkəmlənməsilə müvəqqəti razılaşmalı oldu. Hörmüzün işğalından sonra Səfəvi dövləti ilə Portuqaliya arasında danışıqlar başladı və nəticədə iki dövlət arasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən Səfəvi dövləti və Portuqaliya Osmanlı imperiyasına qarşı vahid cəbhədə çıxış etməli idilər, bunun müqabilində isə Şah I İsmayıl Hörmüzə olan iddialarından əl çəkməli idi. Osmanlı imperiyasına qarşı mübarizədə odlu silah əldə etmək üçün Səfəvi dövləti Fars körfəzində hegemonluğu Portuqaliyanın ixtiyarına vermiş oldu [19, 148-149].

Sultan I Səlimin 1514-cü ildə Çaldıran döyüşündə Səfəvi dövlətini məğlub etməsindən sonra Roma papası bütün Qərb dövlətlərini Osmanlı imperiyasına qarşı «xaç yürüşünə» qalxmağa çağırdı. Papa VI Borcia Osmanlı dövləti ilə müharibəyə vəsait toplamaq üçün bütün xristian dövlətlərinin 1/10 kilsə vergisi ödəməsi ilə bağlı xüsusi fərman verdi. Fərmana əsasən bu vergini ödəməkdən imtina edənlər bütün gəlirlərindən məhrum ediləcəklər [22, 469]. Papa X Lev (1513-1521) öz səfirləri vasitəsilə Avstriya, Fransa, İngiltərə, İspaniyanı Osmanlı imperiyasına qarşı vahid cəbhədə yürüş etmək üçün çağırdı [10, c.2, 287-288]. Baş verən siyasi hadisələr təkcə Osmanlı imperiyasının deyil, bütün Yaxın Şərq dünyasının əhəmiyyətli ticarət mərkəzlərinə sahib olmaq üçün mübarizə meydanının Aralıq dənizi sahillərindən Hind okeanı bölgəsinə keçdiyini göstərir.

Venesiya respublikası Səfəvi dövləti ilə Portuqaliyanın yaxınlaşma-

sından və sonuncunun ədviyyat ticarəti üzərində bir inhisar yaratmasından narazı idi. Venesiya bu prosesi diqqətlə izləyirdi. Səfəvi-Portuqaliya yaxınlaşması Səfəvi-Venesiya münasibətlərinin zəifləməsinə səbəb oldu. Məhz bu səbəblər Venesiya Osmanlı yaxınlaşması ilə nəticələndi. 1521-ci ildə Venesiya ilə Osmanlı dövləti arasında hərbi-siyasi və ticarət müqaviləsinin imzalanması ilə Venesiya 1517-ci ildəki müqaviləni yeniləmiş oldu [10, c.2, 75]. 30 maddədən ibarət olan bu müqaviləyə əsasən venesiyalılar Osmanlı imperiyasına məxsus ərazilərdə ticarət etmək, 3 ildə bir dəfə dəyişdirmək şərti ilə İstanbulda səfirlik yaratmaq, Şimali Afrika məmləkətlərində ticarət etmək və s. kimi imtiyazlara malik oldular [4, 429].

XVI əsrin əvvəllərində Səfəvi dövləti Qərb dövlətləri ilə geniş diplomatik danışıqlara başladı. Səfəvi dövlətinin Osmanlı əleyhinə yeritdiyi siyasət Sultan I Səlimin narazılığına səbəb oldu. O, Səfəvi dövlətinə qarşı iqtisadi müharibə elan etdi və ipək ticarətinin qadağan olunması haqda göstəriş verdi [14, 184]. I Sultan Səlim Səfəvi dövlətini tamamilə məhv etmək üçün 7 may 1518-ci ildən «İbrisim yasağı» adlı əmr verdi. Bu əmrə əsasən təkcə xam ipək ticarətinə deyil, həmçinin strateji məhsulların Səfəvi dövlətinə ixracına da qadağan qoyulmuş oldu. Türk tədqiqatçısı İ.H.Danişmənd «İbrişim yasağı» tədbirindən bəhs edərək yazır ki, Osmanlı mənbələrində bu tarixdəki tədbir ipək ticarətində Səfəvi dövlətinə edilən baykotdur. Sultan I Səlim bu tədbir ilə səfəvilərə qarşı siyasi münasibətlərdən sonra iqtisadi münasibətləri də kəsmiş və valilərə bir göstəriş göndərərək yasağı dinləməyən tacirin mallarının müsadirə edilməsini əmr etmiş və bu üzdən bir çox tacirlər zərər gördüyü kimi bəzi haqsızlıqlar da görmüşlər [3, c.2, 48]. İ.Uzunçarşılı Türkiyə arxivlərində saxlanılan «Mühümmə dəftəri»ndəki məlumata əsasən qeyd edir ki, Osmanlı dövləti hər hansı bir dövlətlə müharibə etdiyi zaman öz ölkəsində ticarət edən həmin ölkə tacirlərini göz altına alıb əllərindəki mallarına, gəlirləri varsa gəlirlərinə əl qoyub yalnız sülh imzalanınca onların geri qaytarılmasına icazə verirdi. Əldə olunan razılaşmaya əsasən tacirlər hər iki dövlət tərəfindən razılaşdırılan ərazidə dəyişdirilirdilər [12, c.2, 688-699]. Sultan I Səlim zamanından qalan Səfəvi dövlətinə qarşı tətbiq edilən «İbrisim yasağı» deyilən ipək ticarətinin baykotu Sultan Süleyman dövründə aradan qaldırılmışdır [6, 85].

Sultan I Səlimin hakimiyyəti dövründə Osmanlı imperiyası ilə Venesiya (avqust 1518-ci il) və Macarıstan arasında bağlanan sülh müqavilələri Səfəvi-Osmanlı münasibətlərini kəskinləşdirmiş oldu. Y.Hammer qeyd edir ki, Venesiya və Macarıstanla bağlanan bu müqavilələr Ağqoyunlu xanədanının süqutu nəticəsində Şah I İsmayılın bu ərazilərdə yeni və güclü bir xanədan qurması ilə daha çox bağlıdır. Bu, Osmanlı imperiyası üçün zərərli və təhlükəli idi [4, 336].

Portuqaliyanın Hind okeanı bölgəsində hakim mövqeyi yerli hind

hakim dairələrinin və Fars körfəzinin kiçik feodal knyazlıqlarının narazılığının artmasına və onların kömək üçün Osmanlı dövlətinə müraciət etməsinə səbəb oldu [17, 89]. Misirin süqutundan sonra yerli kiçik müsəlman dövlətlərinin yeganə ümidi Osmanlı imperiyası idi [17, 51]. Səfəvi dövləti isə hələ 1515-ci ildə Portuqaliya dövləti ilə Osmanlı imperiyasına qarşı ittifaq bağlamışdır. Bu siyasətin Şah I Təhmasibin dövründə də davam etdirilməsi Fars körfəzi bölgəsindəki kiçik müsəlman dövlətlərinin, Hindistanın hakim dairələrinin Səfəvi dövlətindən uzaqlaşmasına və Osmanlı imperiyası ilə yaxınlaşması üçün müxtəlif yollar axtarmasına səbəb olmuşdur.

Y.M.Mahmudov qeyd edir ki, əgər Səfəvi dövləti Osmanlı imperiyası kimi rəqib tərəfindən olan təhlükədən tərəddüd etməsə idi, onlar Portuqaliyanın Fars körfəzində möhkəmlənməsinə qarşı dura biləcək real qüvvə ola bilərdilər. Səfəvi dövləti ilə Osmanlı imperiyasının daima müharibə vəziyyətində olması Fars körfəzində Avropanın digər müstəmləkə dövlətinin möhkəmlənməsi üçün şərait yaratdı [19, 160].

Avropada bir sıra dövlətlərlə «əbədi sülh» imzalandıqdan sonra Sultan Süleyman tərəfindən Səfəvi dövlətinə müharibəni başlamaqda əsas məqsəd iki dövlət arasındakı sərhədyanı ziddiyyətdən istifadə edərək, ilk növbədə Ərəb İraqını, Bağdadı tutmaqla Fars körfəzinə yol açmaq, hərbi əməliyyatları davam etdirərək Səfəvi dövlətini qəti şəkildə məğlubiyyətə uğratmaqdan ibarət idi. 11 iyul 1534-cü ildə Səfəvi dövlətinin paytaxtı olan Təbriz türklər tərəfindən işğal edildi [21, 11]. Lakin ordunun ərzaqla təchizatının çətinləşməsi və hərbi qayda-qanunun zəifləməsi nəticədə Osmanlı ordusunun geri çəkilməsinə səbəb oldu [8, c.6, 153]. Osmanlı ordusu geri çəkildikdən sonra Şah I Təhmasib yenidən işğal olunmuş əraziləri geri qaytara bilir [19, 162].

Baş vermiş siyasi dəyişikliklər Osmanlı imperiyasının Yaxın və Orta Şərqdə, Aralıq və Qara dəniz bölgəsində işğal etdiyi mühüm ticarət mərkəzlərinin Qərb və Şərq dövlətlərarası ticarət əlaqələrində əvvəlki mövqeyini yenidən canlandırmaq üçün əsas xarici siyasət istiqamətini Fars körfəzi, Hind okeanı bölgəsində müstəmləkəçilik siyasəti yeridən Portuqaliyanın mövqeyinin zəiflədilməsinə yönəltmişdir. Odur ki, Sultan Süleyman Portuqaliyanın Hind okeanında mövqeyini zəiflətmək üçün Fars körfəzi, Hind okeanı və birbaşa Hindistanda Portuqaliya müstəmləkəçilərinə qarşı mübarizəyə qalxmış kiçik feodal hakimlərinin siyasətini dəstəkləyir və bu mübarizədən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırdı [5].

Osmanlı imperiyası Qərb istiqamətində yeritdiyi işğalçılıq siyasətini başa çatdırıb Avropa cəbhəsində təhlükəsizliyi təmin etdikdən sonra əsas diqqətini Səfəvi dövlətinə yönəltmiş oldu. Səfəvi dövləti ərazisinin genişlənməsi, Şirvanşahlar dövləti ərazisinin Səfəvi tabeliyinə keçməsi Osmanlı imperiyasının narazılığına səbəb oldu [20, 265-267]. Osmanlı imperiyası 1553-cü il 1 yanvar tarixində Fransa ilə bağladığı İstanbul müqaviləsinin

şərtlərinə əsasən Aralıq dənizində Alman-İspan blokuna qarşı hərbi əməliyyat aparırdı [2, c.2, 277-278]. Nəticədə Osmanlı donanmasının Neapolda, Siciliya sahillərində əldə etdiyi qələbələr Avropada antiosman qüvvələrin yenidən canlanmasına və Osmanlı imperiyasına qarşı birgə hərbi əməliyyat keçirilməsi planının yenidən irəli sürülməsinə səbəb oldu.

**Nəticə.** Qərbi Avropa dövlətləri Osmanlı imperiyası əleyhinə Səfəvi dövləti ilə danışıqlar apararkən əslində Osmanlı imperiyasının zərbəsini özlərindən uzaqlaşdırmağa çalışırdılar. Yeridilən bu siyasət Osmanlı imperiyasına Şərq dövlətləri ilə bağlı işğalçılıq planlarını həyata keçirmək imkanı yaratdı. Nəticədə Sultan Səlim Səfəvilər dövlətinə ağır zərbə vurdu, Şimali Afrikada möhkəmləndi, Misir, Suriya və digər əraziləri tutdu. Onlar Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında mövcud olan hərbi, siyasi, iqtisadi və dini ziddiyyətlərdən istifadə edərək hər iki dövlətin bir-biri ilə müharibəyə başlamasına və nəticədə hər iki dövlətin zəifləməsinə nail olmaq siyasətini həyata keçirməyə çalışırdılar.

**ƏDƏBİYYAT**


1. Mahmudov Y.M. Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə ticarət və diplomatik ziddiyyətləri tarixindən // ADU-nun Elmi əsərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 1965, - №1, - s. 83-91
2. Danişmend İ.H. İzahlı Osmanlı tarihi kronolojisi: 3 ciltde, I c.. - İstanbul: Türkiye Yayınevi, - 1947, - 385 s.
3. Danişmend İ.H. İzahlı Osmanlı tarihi kronolojisi: 3 ciltde, 3 c.. - İstanbul: Türkiye Yayınevi, - 1950, - 805 s.
4. Hammer J. Osmanlı tarihi (Tercüme Mehmet Ata). - İstanbul: Milli Egitim Basımevi, 1990, - c. I, - 522 s.
5. Kürtoğlu F. XV. asırda Hind okyanusunda türkler ve portakizliler / II türk tarih konqresinde maruze. - İstanbul: TTK Basımevi, - 1943, - s. 85- 97
6. Kılıç R. Kanuni Sultan Süleymanın İrakeyn Seferi (1533-1535) öncesi Anadoluda ortaya çıkan bazı gelişmeler. - İstanbul: TTK Basımevi, - 1989, - 102 s.
7. Levis B. Osmanlı hakimiyyetine girmesinden hemen sonra Dimaşktan bahseden bir yahudi kaynak // TTK Belleten, - 2005, - c. LXVIII, - sayı 252, - s. 561-568
8. Öztuna Y. Başlanğıcından zamanamıza kadar Türkiye tarihi: 12 ciltde, 8 c.. - İstanbul: A.S. Matbaası, - 1964, - 284 s.
9. Tansel S. Fatih Sultan Mehmedin Osmanlı kaynaklarına göre siyasi ve askeri fealiyyeti. - Ankara: TTK Basımevi, - 1953, - 356 s.
10. Uzunçarşılı İ.H. Osmanlı tarihi. 8 ciltde, 2 c.. - Ankara: TTK Basımevi, - 1949, - 560 s.
11. Uzunçarşılı İ.H. Osmanlı tarihi. (XVI. yüzyıl ortalarından XVII. asrın sonunadek). 8 ciltde, 3 c., 2 Kısım. - Ankara: TTK Basımevi, - 1954, - 656 s.
12. Uzuncarşılı İ.H. Osmanlı tarihi. 8 ciltde, 2 c.. - Ankara: TTK Basımevi, 1988, 756 s. (yenilənmiş təkrar nəşr).
13. Бессе Альфред де Турецкая империя: ее история, статистика, география, политическое состояние, нравы и обычаи с присовокуплением словоря турецких слов. - Москва: О-во востоковедения, - 1860, - 170 с.
14. Гейдаров М.Х. О значении торговли и торговых путей Азербайджана в XIII-XIV

веках // Известия АН Аз. ССР. Серия история, философия, права, - 1981, - №1, - с.49-53
15. Ивонин Ю.Е. Религиозно-политические союзы западноевропейской политике в I половине XVI в. // Вопросы истории, - 1978, - № 11, - с. 85-103
16. Иванов Н.А.Османское завоевание арабских стран. - Москва: Наука, - 1984, - 237 с.
17. История средних веков. - Москва: Высшая школа, - 1977, - т.I, - 470 с.
18. Источниковедческие разыскания.1982.Тбилиси: Мецниереба, - 1985, - 266 с.
19. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. - Баку: Изд. Бак. Унив., - 1991, - 241с.
20. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. Сборник статей по истории Азербайджана. - Баку: АН Аз. ССР, - 1949, - в. I, - с. 225-298
21. Печеви Ибрахим Эфенди История извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг. Пер. с турец. и примеч. акад. З. Бунятова. - Баку: Элм, - 1988, - 98 с.
22. Фрейденберг М.М. Дубровник и Османская империя. - Москва: Наука, - 1984, - 200 с.
23. Bayramlı Z.Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). - Bakı: Elm və təhsil, - 2017, - 359 s.

## АЗЕРБАЙДЖАНСКОЕ ГОСУДАРСТВО СЕФЕВИДОВ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ (НАЧАЛО XVI ВЕКА)

**Алмас С.ДЖАВАДОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются политические отношения Сефевидского государства Азербайджана с Османскими и западноевропейскими государствами. Известно, что в результате открытия новых морских путей, торговых регионов, а также Великих географических открытий начался процесс укрепления ряда европейских государств, особенно Англии, Голландии, Франции, в основных торговых центрах Ближнего и Среднего Востока. Торговые отношения с государствами Ближнего и Среднего Востока Европы, а также с Азербайджаном имели характер колониальной торговли. Создание собственных монополий в различных странах Востока, наличие дешевых и выгодных источников сырья и важных рынков сбыта для европейских промышленных предприятий легло в основу экономического и политического плана,

С начала XVI века внешняя политика государства Сефевидов основывалась на политике оживления дипломатических отношений с западными государствами, с целью разгрома Османской империи и разделения ее военных сил на два фронта.

**Ключевые слова:** Азербайджан, Сефевиды, Европа, дипломатические отношения, внешняя политика, торговые отношения

# AZERBAİJANİ STATE SAFEVİDS AND İNTERNATİONAL RELATİONS (EARLY XVI CENTURY)

**Almas S.JAVADOVA**

## SUMMARY

The article deals with the political relations of the Safavid state of Azerbaijan with the Ottoman and Western European states. It is known that as a result of new sea routes, trade regions, as well as Great geographical discoveries, the process of strengthening a number of European states, especially England, Holland, France, in the main trade centers of the Near and Middle East began. Trade relations with the Near and Middle Eastern states of Europe, as well as with Azerbaijan, had the character of colonial trade. Creating their own monopolies in various Eastern countries, having cheap and profitable sources of raw materials and important sales markets for European industrial enterprises formed the basis of the economic and political plan envisaged by the European states in the direction of the East.

From the beginning of the XVI century, the foreign policy of the Safavid state was based on the policy of revitalizing diplomatic relations with the Western states, in order to defeat the Ottoman Empire and divide its military forces into two fronts.

**Keywords:** Azerbaijan, Safavids, Europe, diplomatic relations, foreign policy, trade relations

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

***№2 Humanitar elmlər seriyası 2024***

**UOT 94 (479.24)**

# SƏFƏVİLƏRİN ETNİK MƏNSUBİYYƏTİ HAQQINDA

**SAMİR F.BAXŞƏLİYEV***

*Son illərdə Səfəvilər imperiyası haqqında araşdırma apararkən bu sahə üzrə ixtisaslaşmış tədqiqatçılar arasında ən çox müzakirə edilən problemlərdən birinin Səfəvi şahlarının etnik mənsubiyyəti məsələsi olduğu aydın müşahidə edilir. Lakin bu da həqiqətdir ki, mövzu barədə tarixi həqiqətləri şübhə altına alanlar da tapılır. Hətta məlum həqiqəti təhrif etmək məqsədi ilə yersiz mübahisələr çox vaxt obyektivlikdən uzaq olaraq təcrübəsiz, az məlumatlı oxucuların çaşdırılmasına xidmət edir. Səfəvilər sülaləsinin etnik mənsubiyyəti ilə bağlı olan yersiz iddialara cavab verilməsi məqalənin yazılmasında əsas məqsəd kimi qarşıya qoyulmaqla eyni vaxtda, həm də məlum həqiqətlərin oxucu tərəfindən obyektiv olaraq qəbul edilməsinə kömək edir.*

*Əslində Səfəvilərin türk olması inkar edilməz faktdır və bunu qəbul etmək istəməyənlər bütün hallarda öz "arqumentləri"ilə yalnız özlərini çıxılmaz vəziyyətə salırlar.*

*Məqalənin əsas ruhu Azərbaycan Səfəvişünaslıq məktəbinin nüfuzlu nümayəndələrinin yanaşmalarının təsdiq edilməsi və Şah İsmayıl Səfəvinin etnik mənsubiyyəti ilə bağlı yersiz iddialara elmi dəlillərlə cavab verilməsindən ibarətdir.*

**Açar sözlər:** Azərbaycan, Səfəvilərin soy kökü, Ərdəbil, tarixi mənbələr, etnik mənşə, türk

**Giriş.** Dövlət müstəqilliyimizin bərpasından sonra, xüsusi olaraq da son illərdə Səfəvilər imperiyası haqqında araşdırmalar getdikcə çoxalmaqdadır. Səfəvi şahlarının etnik mənsubiyyəti məsələsinin Səfəvi dövlətinin tarixi üzrə ixtisaslaşmış tədqiqatçılar arasında ən çox müzakirə edilən problemlərdən biri olması mövzunun müxtəlif tərəflərinə artan marağın sübutlarından biridir. Ən pisi də budur ki, bu müzakirələrdə bəzən nəinki tarixçi olmayan, hətta minimum tarixi biliklərdən uzaq insanlar, bəzən tanınmış rəsmi şəxslər də nəsə deməyə, nə isə sübut etməyə çalışırlar. Belələrinin nə demək istədiyi, nəyə nail olmağa çalışması o qədər də səmimi görünmür. Amma hər bir halda ziyalıların, tələbə və gənclərin diqqətini məlum tarixi həqiqətdən uzaqlaşdırmağa çalışmaları diqqəti ilk cəlb edən məqamdır.

Şah İsmayılın şəxsiyyətinə, onun fəaliyyətinin tarixiliyinə maraq hər zaman tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. İran və Türkiyə ta-

* ***Bakı Dövlət Universitetinin dosenti; baxshaliev81@ bsu.edu.az;***
***ORCİD İD: 0000-0003-4054-2974***

rixşünaslığında, istərsə də sovet və qərb tarixşünaslığında xeyli tədqiqatlar aparılmışdır. Sözsüz ki, əhatə dairəsinə, elmi dərinliyinə görə bu tədqiqatların heç də hamısı eyni səviyyədə deyil. Əslində, bu tədqiqatların aparılması zamanı qarşıya qoyulan məqsəd də eyni deyildir. Obyektiv yanaşmanı, mənbə materiallarının tərəfsiz dəyərləndirilməsini, tarixi hadisələrin real mənzərəsini özündə əks etdirən çoxlu sayda araşdırmalarla bərabər, birtərəfli, mübahisəli fikirlərlə zəngin olan, bəzən isə səthi araşdırmalara da rast gəlmək mümkündür. Şah İsmayılın şəxsiyyəti üzərinə kölgə salmaq üçün, hətta bəzi hallarda faktların dəyərləndirilməsinə qərəzli yanaşılması ilə də rastlaşmaq mümkündür [15, 6].

Bu yazıda qaldırılan məsələ səfəvişünaslıqda əksər tədqiqatçıların problemə yanaşmalarında obyektiv reallığı nəzərə almaqla eyni vaxtda bəhs edilən məsələdə hər cür yanlışlığın, qeyri-obyektiv yanaşmanın aradan qaldırılmasına xidmət edir.

Qeyd etməliyik ki, tarixi həqiqətlərin şübhə altına alınması, bu cür mübahisələr artıq bir neçə əsrdir davam etməkdədir. Mübahisələrin səbəblərindən biri ailənin məzhəb statusu və təriqətin siyasiləşməsidir. Səfəvi soyunun türk, fars, kürd və ya ərəb olmaqla dörd fərqli etnik mənşəyə söykənməsi iddiası mövzuya marağı daha da artırır.

**Səfəvi imperiyasının mövcudluğu dövründə məsələyə yanaşma.** Əsasən xarici tarixşünaslıqda baş verən siyasi hadisələrə və ərazi məsələlərinə görə Səfəvi sülaləsini qeyri-türk, dövlətini isə fars dövləti kimi göstərməyə çalışırlar. Səhvən Səfəvi sülaləsindəki, baş verən siyasi hadisələri əsas götürən tarixçilər Səfəviləri dörd fərqli etnik mənsubiyyətə (ərəb, fars, türk və kürd) bölürlər.

Bu yazıda Səfəvi Türk imperiyasının tarixini araşdırmaq Azərbaycan tarixşünaslığının daim əsas problemlərindən biri olmuş və bu yazımızda Səfəvilər sülaləsinin etnik mənsubiyyətilə bağlı olan yersiz iddialara cavab verməyə çalışacağıq. Səfəvi imperiyası mövcud olduğu illərdə bu sülalənin tarixi haqqında kifayət qədər çox tarixi və ədəbi mənbələr mövcud olmuşdur. Səfəvilər dövrünü geniş əks etdirən bu tarixi-ədəbi mənbələrdə Şah İsmayıl Səfəvinin ulu babaları haqda bir çox məlumatlar var. Səfəvilərin ulu babaları barədə məlumatları özündə əks etdirən yeganə mənbə Təvəkkül ibn İsmayıl ibn Bəzzazın “Səfvət əs-səfa” (Saflığın saflığı) adlı agioqrafik (övliyalarının həyatını təsvir edən ədəbi əsərlərə verilən ad) əsəridir [5, 31].

Bundan başqa sözü gedən dövrə aid olan bəzi mənbələrdə Səfəvilərin şəcərəsi və etnik kimliyi haqqında qiymətli məlumatlar əldə etmək olar. Bu mənbələrdən 1577-ci ildə Həsən bəy Rumlu tərəfindən yazılan və Səfəvilər dövlətinin yaranmasında və inkişafında rolu olan Türk boyları haqqında geniş məlumat verən "Əhsənüt-təvarix", Xondəmir ləqəbilə tanınan Qiyasəddin ibn Hümaməddinin 1535-1536-cı ildə yazdığı və Səfəvilər dövləti

yaranmasından Şah İsmayılın ölümünə qədər olan dövrü əhatə edən “Tarihü Həbibi's-siyer fi Əhbəri Əfrədi Beşər”, 1574-cü ildən müəllif hüquqları Firuddin Əhməd Bəydə olan və Osmanlı Sultanı III Muradın hakimiyyət illərinə qədər Səfəvilər haqqında yazılan məktubları araşdıran “Münşeatü's-selatin”, Qanuni Sultan Süleymanın ən mötəbər tarixçisi hesab edilən Qoca Nişancı ləqəbli Cəlalzadə Mustafa Çələbinin 1567-ci ildə müəllifi olduğu və Çaldıran döyüşü haqqında əsas mənbə hesab edilən “Selim-name” kimi əsərləri qeyd etmək olar [6].

**“Səfvət əs-səfa” yazısının əsas məzmunu və ziddiyyətləri.** Ədəbiyyatçılarımızın "Şeyx Səfi təzkirəsi" [16, 3] adlandırdığı “Səfvət əs-səfa”nın müxtəlif nəşrlərində Səfəvilərin mənsubiyyətinə işıq salan bir neçə şəcərə göstərilmişdir. İbn Bəzzazın nisbəsindən (təxəllüsündən) Səfəviyyə təriqətinin mərkəzi Ərdəbil şəhərindən olduğu anlaşılır. Şeyx Sədrəddinin müridlərindən (Şeyxinə bağlı olan dərviş) olan İbn Bəzzazın doğum və ölüm tarixləri bilinməsə də, “Səfvət əs-səfa” əsərini 1358-ci ildə tamamladığı məlumdur [1, 10].

“Səfvət əs-səfa” əsəri Şeyx Sədrəddinin məsləhəti ilə şahidlərin və insanlar arasında yayılan etibarlı söhbətlərdən toplanaraq qələmə alınmışdır. Əsərdə Səfəvi təriqətinin banisi Şeyx Səfiəddin Ərdəbilinin əcdadı, doğumu, tərbiyəsi, təhsili, Şeyx Zahid Gilaninin şagirdi olması, vəfatından sonra xəlifəsi kimi həyata keçirdiyi irşad fəaliyyətləri, gündəlik həyatı, möcüzələri, ölümü və davamçıları haqqında geniş məlumat verilir. “Səfvət əs-səfa”nın müəllif nüsxəsi dövrümüzə gəlib çatmasa da Mərmərə Universitetinin doktoru Serap Şah əsərin 1491-ci il nüsxəsinə və onun günümüzə gəlib çatan bəzi türkcə tərcümələrinə istinad edərək onları aşağıdakı qaydada sıralamışdır:

1. Ayasofiya nüsxəsi: 1491-ci ildə surəti çıxarılmışdır.
2. Süleymaniye 1 nüsxədə: 1509-cu ildə surəti çıxarılmışdır.
3. Süleymaniye 2 nüsxədə: 1541-ci ildə surəti çıxarılmışdır.
4. Təbriz Milli Kitabxanasının nüsxəsi: 1543-cü ildə surəti çıxarılmışdır.
5. Leninqrad nüsxəsi: 1614-cü ildə surəti çıxarılmışdır.
6. Pir Hodabaxış nüsxəsi: 1625-ci ildə surəti çıxarılmışdır.
7. Asitanə-Qüds nüsxəsi: 1642-ci ildə surəti çıxarılmışdır [11, 43,44].

Bunlardan başqa əsərin tarixləri məlum olmayan daha bir neçə nüsxəsi mövcuddur. Bu nüsxələr eynilik təşkil etməməklə bərabər aralarında çox böyük uyğunsuzluqlar da mövcuddur. Bir çox səfəvişünaş tədqiqatçılar “Səfvət əs-səfa”nın saxtalaşdırıldığı, mətninə əlavələr edildiyi və bəzi faktların məqsədyönlü şəkildə əsərdən çıxarıldığı fikrində həmrəydirlər.

“Səfvət əs-səfa”nın nüsxələrində uyğunsuzluqların mövcudluğu fikrini Azərbaycan Səfəvişünaslıq məktəbinin banisi Oqtay Əfəndiyev də müəllifi

olduğu "Azərbaycan Səfəvilər dövləti" əsərində bildirərək bu haqda belə yazır: "*Tədqiqatçıların belə bir fikri diqqətə layiqdir ki, çox az-az əlyazmalar "Səfvət əs-səfa" qədər dəyişikliyə məruz qalmışdır*" [5, 31].

Tədqiqatlarının məhsuldarlığı ilə seçilən görkəmli səfəvişünas alim Zabil Bayramlı da özünün ""Silsilətün-nəsəb-i Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi" əsərində Səfəvilərin İmam Musa əl–Kazımın soyundan gəldiklərini ifadə edən bəzi ibarələrin "Səfvət əs-səfa"nın köçürmə nüsxələrinə siyasi məqsəd ilə daxil edildiyini qeyd edir [1, 18].

Səfəvi dövrü tədqiqatları ilə Azərbaycanda da tanınan Türkiyənin Hacettepe Universitetinin professoru Tufan Gündüz də müəllifi olduğu "Son Qızılbaş Şah İsmail" kitabında "*Xüsusi ilə Şah I Təhmasibin hakimiyyət illərində "Səfvət əs-səfa" əsərinin müəyyən dəyişikliklərə məruz qalması və gözlənildiyi kimi, etnik tərəflərdən çox dini mənşələrə işarə edilməsi Şeyx Səfiyəddinin nəsli ilə bağlı Səfəvilərin babalarının etnik mənşəyinin izahı məsələsini tamamilə mürəkkəbləşdiyini*" qeyd edir [9, 14].

"Səfvət əs–səfa" Səfəvi babalarının tarixini Şeyx Səfiəddinin yeddinci nəsli və XI əsrdə yaşadığı güman edilən Zərrin-külah Firuza Şaha aid edir və onun yeddinci şiə imamı Musa əl-Kazımın nəslindən olduğunu qeyd edir [16, 54, 55].

Əsərin fars və türk tərcümələrindən göründüyü kimi, müəllif Səfəvi hökmdarlarının nəslini Məhəmməd Peyğəmbərin soyundan törədiyini göstərir. Doğrudur, Şeyx Səfiəddinin peyğəmbər nəslindən olması fikri tarixşünaslığımızda birmənalı şəkildə qəbul edilmir və son tədqiqatlardan da məlum olur ki, Firuzşahın İmam Musa əl–Kazım vasitəsilə peyğəmbərlər və imamlar nəslinə bağlanması cəhdi Səfəvilər sülaləsi hakimiyyətə gəldikdən sonra onların hökmranlığının qanuniliyinə haqq qazandırmaq məqsədi daşıyır.

"Səfvət əs–səfa" əsərində Səfəvilərin İmam Musa əl-Kazımın soyundan gəldiklərini ifadə edən babalarının nəsil şəcərənaməsi aşağıdakı sıralama formasında göstərilmişdir: *Şeyx Səfidəddin ibn (oğlu) Şeyx Əminəddin Cəbrayıl ibn Qütbəddin ibn Səlahəddin ibn Məhəmməd əl-Hafiz ibn Əvəz ibn Firuzşah Zərrin Kolah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmayıl ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasım ibn Seyid Əbülqasım Həmzə ibn Musa əl-Kazım ibn Cəfər əs-Sadiq ibn Məhəmməd Bağır ibn Zeynalabdin ibn Hüseyn ibn Əli ibn Əbu Talib* [16, 706].

Bu sıralamadan belə aydın olur ki, Ərdəbil təkkəsi Firuz şahdan yeddi nəsil sonra yaranmışdır. Təkkə qurulduqdan sonraya aid digər mənbələrdə Firuzşahın nəsil şəcərəsi VII şiə İmamı Musa əl–Kazıma qədər çıxarılmışdır. Səfəvilərin Firuz şahdan əvvəlki dövrü ilə bağlı qaynaqlarda məlumat

yox dərəcəsində olduğu üçün sülalənin tarixinin Firuz şahdan başladığı qəbul edilir.

Səfəvilər sülaləsindən Ərdəbildə ilk məskunlaşan, gəncliyində Məşhəddə yerləşən İmam Rzanın məqbərəsinin gözətçisi olan Zərrin Külah ləqəbilə tanınan Firuz şah olmuşdur [15, 17,18].

Mövzu ilə bağlı əsas istinad mənbəyimiz olan "Səfvət əs–səfa"nın müəllifi Təvəkkül İbn Bəzzaz Firuz Şah haqda yazır: "*Firuz əl-Kürdi əs-Sincani təsəvvüf (İslam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlər haqqında təlim) tarixinin ilk sufilərindən hesab olunan, böyük sufi alimi İbrahim Ədhəmin övladlarından biri Sultan Əhmədin Sincardan çıxan ordusunun tərkibində Azərbaycanın Aran və Muğan bölgələrində islam dininin yayılması üçün cihada qalxmış ordusunun tərkibində əvvəl Muğana, sonra isə Arana gəldi.*

*Oradan da Ərdəbil şəhərinə getdi. O, 12 il Ərdəbildə yaşadıqdan sonra mal-qara sürüsü üçün geniş otlaqların çox olduğu Gilanın Rengin kəndində məskunlaşaraq heyvandarlıq və əkinçiliklə məşğul olmağa başladı. Ömrünü Rengin kəndində başa vuran Firuz Şah dərviş (sufiliyi təbliğ edən dindar) şəxsiyyəti ilə həm İslam dininin təbliği ilə, həm də xeyriyyəçilik işləri ilə məşğul olmuşdu*" [14, 28].

Əsərdə Firuz Şahın "El Kürdi el-Sencani" adı ilə göstərilməsi əsasən xarici tarixşünaslıqda Səfəvilərin etnik mənsubiyyəti ilə bağlı mübahisələrin yaranmasına səbəb olmuşdur. Belə ki, başqırd tarixçisi Əhməd Zəki Vəlidi Toğan Səfəvilərlə bağlı məqaləsində "*I Şah İsmayılın və oğlu I Şah Təhmasibin babalarının kürd olduqlarına dair bütün dəlilləri məhv etdiyini, şəcərələrini saxtalaşdıraraq Firuz Şaha Seyid* (Müsəlman dünyasında Məhəmməd peyğəmbərin nəslindən olanların fəxri təxəllüsü) *statusu verdiklərini və Şeyx Səfiyəddinin Şiə olduğunu göstərməyə çalışdıqlarını qeyd edir*" [4, 21].

**Türkoloq Faruq Sümər, Gene R.Qarthvaitenin və Cengiz Yıldırımın mövqeləri**. Faruq Sümər də bənzər fikirlər irəli sürürərək, Şeyx Səfiəddin İshaqın ulu babası Firuz Şahın X əsrdə kürdlərin Azərbaycana köç etdikləri zaman Ərdəbil şəhəri yaxınlığında məskunlaşdığını, kürd sülalələrindən olan Rəvvadilərin Azərbaycanı idarə etdiyini və İbn Ərəbşaha istinad edərək, Ərdəbillə Muğan arasında yerləşən ərazilərin yalnız XV əsrdə tamamilə türkləşən kürd əsilli Çakırlıların vətəni olduğunu qeyd edir [7, 69].

F.Sümər kimi ABŞ-nın Dartmut kollecinin professoru Gene R.Qarthvaite də heç bir ciddi dəlil gətirmədən Səfəvi şeyxləri və onların varislərinin kürd mənşəli olduğunu qeyd edir. O, müəllifi olduğu "İran Tarihi Pers İmparatorluğundan Günümüze" kitabında yazır: "*Səfəvi tarixi sülalənin dini rəhbərliyi ilə başlayır. Ailənin nəsil mənşəyi və şeyxlik xüsusiyyəti bu dində bir araya gəldi. Ailənin qüdrətinin mənbəyi onun banisi Şeyx Səfiəddinin*

*adını daşıyan bu Sufi təriqətindən qaynaqlanır. Səlcuqlular dövründən Azərbaycanda, sonra Ərdəbildə yaşayan şeyxin ailəsi çox güman ki, kürd əsilli olub*" [10, 147].

Heç şübhə yoxdur ki, bilərəkdən, yaxud bilməyərəkdən Səfəvilərin türk etnik mənşəli olmasını inkar edən, türk xalqlarının tarix və mədəniyyətinin öyrənilməsində böyük rolu olan məşhur "Oğuzlar" kitabının müəllifi F.Sümər də, iranşünas, professor Gene R.Qarthvaite də peşəkar tarixçilərdir. Lakin bizim bu müəlliflərlə razılaşmamağımızın səbəbi Səfəvi sülaləsinin tarixi haqqında yetərincə tarixi və ədəbi mənbələr olmasına baxmayaraq, bu alimlərin Şah I Təhmasibin əmri ilə sülalənin seyidliyini (İslam peyğəmbəri Məhəmmədin nəslindən olanlar) sübut etmək üçün katib Əbül–Fəth Hüseyni tərəfindən müəllif nüsxəsi təhrif edilən "Səfvət əs-səfa" əsərinə istinad edərək Səfəvilərin kürd olduqlarını iddia etmələridir [8, 64] və biz bu yanaşmanı qeyri-obyektiv yanaşma kimi qiymətləndiririk.

Tarixi şəxsiyyətin türk və ya hansısa digər etnik mənsubiyyətə malik olmasında qəbahətli bir şey yoxdur. Tarix boyunca müəyyən bir millətin maraqlarına xidmət edən, lakin etnik mənsubiyyəti fərqli olan bir çox tarixi şəxsiyyətlər, hökmdarlar mövcud olmuşdur. Dediklərimizə misal olaraq Qüdsü səlibçilərdən azad edən İslam dünyasının böyük qəhrəmanı, etnik mənsubiyyəti türk olan Səlahəddin Əyyubini və ya SSRİ adlanan qırmızı Rusiya imperiyasını ən geniş sərhədlərə çatdıran, milliyətcə gürcü olan İosif Stalin kimi tarixi şəxsiyyətləri göstərə bilərik.

Mövlanə Əhməd və Mövlana İbrahim Səravi qeydlərində yazırdılar ki, *biz Ərdəbildə Şeyx Səfinin evində olarkən bizim üçün süfrəyə qara çörək və su gətirdilər. Qəflətən daxil olan bir neçə türk üçün isə ağ çörək və bal gətirdilər* [2, 19].

Müasir türk tarixçiləri nəslinin təmsilçilərindən biri olan, "Şah İsmail Safevi Kızılbaş Devleti" adlı əsərin müəllifi Cengiz Yıldırımın əsərində verilmiş faktlar problem haqqında türk tarixşünaslığında ən son tədqiqatlardan biri sayılır. Müəllifin faktlar əsasında Şeyx Səfinin heç şübhəsiz türk olmasını söyləməsi dəlalət edir [12, 119].

**Səfəvilər sülaləsinin kürd mənşəli olması tam yanlış konsepsiyadır.** Səfəvilər sülaləsinin kürd mənşəli hesab edilməsi tendensiyası elmi əsaslara söykənməyən, tamamilə şiə məzhəbi və siyasi faktorlardan irəli gələn bir məsələdir. Səfəvilər sülaləsi ilə bağlı əsas mənbələrin verdiyi məlumatlara baxmayaraq, bəzi çağdaş İran tarixçiləri, xüsusilə də Əhməd Kəsrəvi Şeyx Səfiəddin Ərdəbilinin Azərbaycan ləhcəsində farsca şeirləri olduğunu və babalarının bu dildən istifadə etdiyini iddia edərək, onun etnik mənsubiyyətinin əslən fars olduğunu iddia etmişlər.

Hesab edirik ki, iranlı alimlərin bu iddiaları milli qibtə hissini əks etdirir.

Milliyyətcə Təbriz azərbaycanlısı olan və müasir Azərbaycan tarixinə dair dəyərli əsərlərilə töhfə verən Ə.Kəsrəvi çox təəssüf ki fars milliyyətçisi kimi çıxış edərək azərbaycanlıların farslaşdırılması kimi mürtəce ideya irəli sürmüşdü [3, 87]. İranda bütün etnik icmaların farslaşdırılmasını müdafiə edən Ə.Kəsrəvini fars şovinist dairələri "İran millətçisi" adlandırırdılar. Tədqiqatlarında məqsədyönlü şəkildə Səfəvilərin babaları haqqında elm aləminə saxta məlumat verən Ə.Kəsrəvi Şeyx Səfiəddin Ərdəbilinin mənsubiyyətini göstərən "Səncəri" şəhərinin adını saxtalaşdıraraq "Səncabi" kimi təqdim etməklə, Azərbaycan tarixində böyük rol oynayan bu sülalənin mənsubiyyətini qeyri-türk kimi göstərməyə cəhd edir.

Aydın görünür ki, Ə.Kəsrəvinin "Səncəri" şəhərinin adını bilərəkdən təhrif edərək "Səncabi" kimi təqdim etməsi və Səfəvilərin babalarının Kürdüstandan gəldiyinə işarə etməsi tədqiqatçıları çaşdıracaq təhrifdən başqa bir şey deyildir.

İran tarixşünaslığında Səfəvilərin və ümumiyyətlə, Azərbaycan türklərinin tarixinin saxtalaşdırılması istiqamətində ilk flaqman hesab edilən Ə.Kəsrəvinin məqsədi, heç şübhəsiz ki, Araz çayının hər iki tayında yaşayan Azərbaycan türklərinin soykökünü təhrif etməklə, onlar arasında milli-etnik yaxınlaşmanın qarşısını almaqdan ibarət idi.

İran tarixşünaslığında Səfəvilərin etnik mənsubiyyətilə bağlı irəli sürülən yanlış müddəalar Pəhləvilər sülaləsinin banisi I Rza Şahın farslaşdırmanı sərt şəkildə dövlət siyasəti olaraq həyata keçirtdiyi bir dövrə təsadüf edir ki, əslən türk olan Ə.Kəsrəvi də öz fəaliyyəti ilə sanki bu prosesə rəhbərlik edirdi.

Bu məqamda xalq şairi Musa Yaqubun 1989-cu ildə yazdığı "Sapı özümüzdən olan baltalar" şeirindən bir cümlə yadıma düşdü: "Sapı özümüzdən olan baltalar yaman kəsdi bizi, doğradı bizi".

Səfəvi sülaləsinin mənsubiyyəti ilə bağlı yuxarıda göstərilən yanlış fikirlər, bu gün artıq elm tərəfindən qəbul olunmur. Qeyd etdiyimiz kimi, təhrif edilmiş mənbələrdən, uydurma iddialardan və Səfəvilərin türk mənsubiyyətindən başqa digər bir millətə mənsub olması ilə bağlı qaynaqlarda heç bir məlumat yoxdur.

Səfəvilərin türk olması danılmazdı və qaynaqlarda olan bu faktı heç cür qəbul etmək istəməyənlər üçün bir çox qeydlər var. Elə "Səfvət əs-səfa" kitabında Ə.Kəsrəvi kimi alimlərin görmək istəmədiyi qeydlərdən olan bir rəvayət göstərilir: "*Bir gün Şeyx Səfi əyləşdiyi zaman Mehrabın* (namaz qılanların üzlərini çevirdikləri oyuq yer) *yarıldığını gördü. Oradan bir adam çıxıb Şeyxə dedi ki, Ey piri türk... Onun camalının bədri, hüsn və kamalının yetkinliyi elə bir dərəcəyə çıxmışdı ki, o, daima türk piri olaraq tanındı*" [13, 124].

**Məsələyə digər yanaşmalar haqqında.** Rusiya və Sovet tarixçilərinin

bir çoxu bəzi İran və Türk tarixçilərindən fərqli olaraq Səfəvilərin etnik mənsubiyyətinin türk olduğunu qeyd edirlər. Sovet tarixçisi və şərqşünası İlya Petruşevski də müəllifi olduğu "История Ирана с древнейших времен до конца XVIII века" əsərində eyni fikri söyləyərək qeyd edir: "*İlk Səfəvi şeyxləri Ərdəbildə yaşamışlar, onların doğma dili Azərbaycan dili olmuşdur*" [18, 251].

Müasir Türkiyə şərqşünaslıq məktəbinin nümayəndələrindən biri Cengiz Yıldırım da Səfəvi sülaləsinin banisi Şeyx Səfiəddin və onun nəslindən bəhs edərkən göstərirdi ki, "*bu Ərdəbil şeyxləri, şübhəsiz, fars deyil, türk mənşəlidirlər*" [9, 205].

Bunu da qeyd edək ki, Səfəvilər sülaləsinin türk mənşəli olması haqqında bu mövqe ən mötəbər fikir olaraq qalır və digər tarixi mənbələrdəki yeni məlumatları ilə də təsdiqlənir.

Azərbaycan əsilli Fransa tarixçi və şərqşünası, Strasburq Universitetinin fəxri professoru İren Məlikova da "Şah İsmayılın Türkmən qəbilələri ilə eyni soydan olduğunu" bildirir [13, 125].

Zaman-zaman Azərbaycan Səfəvişünaslıq məktəbinin Mirzə Abbaslı, Zabil Bayramov, Namiq Musalı kimi görkəmli yetirmələri olan tarixçiləri də Şah İsmayıl Səfəvinin etnik mənsubiyyəti ilə bağlı olan yersiz iddialara elmi dəlillərlə cavab versələr də, çox təəssüf ki, bu, əsassız hücumları durdurmaq üçün kifayət etmir.

Qərb, Türkiyə və eləcə də İran tarixşünaslığında da Səfəvilərin etnik mənşəyi ilə bağlı məsələlərin mübahisə mövzusu olmasına baxmayaraq qarşılaşdığımız ən mühüm fakt budur ki, yaratdıqları dövlətin türk boyları üzərində qurulması, şah babamızın türkcə şeirlər yazması, saray dilinin isə türk dili olması xalqımızın dövlətçilik tarixində xüsusi yer tutan bu möhtəşəm xanədanın türk mənsubiyyətinə heç bir şübhə buraxmır.

**Nəticə**. Beləliklə, adı çəkilən müəlliflərin problemə yanaşma tərzlərini, konkret münasibətlərini nəzərdən keçirdikdən sonra gəldiyimiz qənaətləri qısa olaraq bildirməklə, bu mübahisələrin niyə yaranması və hansı məqsədlərə xidmət etdiyini də deyə bilərik.

İlk olaraq qeyd edə bilərik ki, təhlillərimizdən aydın şəkildə görünür ki, bəzi tədqiqatçılar zaman–zaman yalnız təsadüfən əldə etdikləri və ya rastlaşdıqları mənbənin sonadək dəqiqləşdirilməmiş, digər mənbələrlə müqayisə edilməmiş bəzi məqamlarına istinad edərək, bəlkə bilməyərəkdən, yersiz mübahisələrə rəvac vermişlər.

Bu yazıda qaldırılan məsələ səfəvişünaslıqda əksər obyektiv tədqiqatçıların problemə yanaşmalarında reallığı nəzərə almaqla eyni vaxtda, bəhs edilən məsələdə hər cür yanlışlığın, qeyri-obyektiv yanaşmanın aradan qaldırılmasına xidmət edir.

## ƏDƏBİYYAT

1.Bayramlı Z.. "Silsilətün-Nəsəbi Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. - Bakı: Avropa, - 2019. - 106 s.
2.Bayramlı Z., Şabiyev B.. Azərbaycan Səfəvi dövləti XVI-XVII əsrlər. - Bakı: Elm və təhsil, - 2017. - 359 s.
3.Babayev A. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. - Bakı: Maarif, - 1993. - 291 s.
4.Mehmet Çelenk. 16-17 Yüzyıllarda İran'da Şiiliğin Seyri. - İstanbul: Emin Yayınları, - 2013. - 318 s.
5.Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. - Bakı: Bakı Kitab klubu, - 2016. - 296 s.
6.Elnur Dərbəndi: Çaldıran döyüşü Osmanlı və Səfəvi qaynaqları əsasında / https://www.bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_2190730893
7.Faruq Sümər. Oğuzlar (Türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları. – Bakı: MBM, - 2013, - 448 s.
8.Murad Civan. Çaldıran Savaşı'nda Osmanlılar Safeviler ve Kürtler. - İstanbul: Avesta Basın Yayınevi, - 2015. - 296 s.
9.Gündüz Tufan. Son Kızılbaş Şah İsmail. - İstanbul: Yeditepe Yayınevi, - 2015. - 175 s.
10.Gene R. Garthvaite. İran Tarihi Pers İmparatorluğundan Günümüze. Çeviren Fethi Aytuna. - İstanbul: İnkılap Kitabevi, - 2016. - 277 s.
11.Özdemir Ali Rza. Türk Hakanı Şah İsmail. - Ankara: Kripto Basım Yayım Dağıtım Ltd, - 2018. - 304 s.
12.Cengiz Yıldırım. Şah İsmail Safevi Kızılbaş Devleti. – Eskişehir: Dorlion Yayınevi, - 2022. - 360 s.
13.Çetinoğlu Mustafa. Safeviler ve Kızılbaş Türkler. - İstanbul: Kamer Yayınları, - 2016. - 328 s.
14.Serap Şah. Safvetüs Safada Safiyyuddini Erdebilinin hayatı, tasavvufi görüşleri ve menkibeleri. - İstanbul: Mərmərə Universiteti, - 2007. - 687 s.
15.Süleymanov M.. Şah İsmayıl Səfəvi. - Bakı: Elm və təhsil, - 2018. - 824 s.
16.Şeyx Səfi təzkirəsi (Səfvətüs-Səfanın XVI əsr türk tərcüməsi). Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutu. - Bakı: Nurlan, - 2006. - 932 s.
17.Şükürov G.. Safevi Devletinin kuruluşu ve I Şah İsmail devri (907-930/1501-1524). - İstanbul: Marmara Sosyal Bilimler Enstitüsü, - 2006. - 224 s.
18.Петрушевский И. История Ирана с древнейших времен до конца XVIII века. - Ленинград: Издательство Ленинградского университета, - 1958. - 390 с.

## ОБ ЭТНИЧЕСКОЙ ПРИНАДЛЕЖНОСТИ СЕФЕВИДОВ

**Самир Ф.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье говорится, что одной из наиболее обсуждаемых проблем среди исследователей, специализирующихся в этой области, при проведении исследований империи Сефевидов в последние годы является вопрос этнической принадлежности **царей** Сефевидов. Однако верно и то, что есть те, кто подвергает сомнению исторические факты по этому вопросу. Даже неуместные аргументы, направленные на искажение известной истины, часто сбивают с толку неопытных и плохо инфор-

мированных читателей, далеких от объективности. Ответ на неуместные претензии, связанные с этнической принадлежностью династии Сефевидов, является основной целью написания статьи и в то же время помогает читателю объективно воспринимать известные факты.

На самом деле то, что Сефевиды являются тюрками, это неоспоримый факт, а те, кто не хочет с этим мириться, лишь ставят себя в тупик своими "доводами".

Основной дух статьи – подтвердить подходы влиятельных представителей азербайджанской школы Сефевидов и ответить научными доказательствами на неуместные утверждения, связанные с этнической принадлежностью шаха Исмаила Сефевидов.

**Ключевые слова:** Азербайджан, генеалогия Сефевидов, Ардебиль, исторические источники, этническое происхождение, тюрки

## ABOUT THE ETHNICITY OF THE SAFAVIDS

**Samir F.BAKSHALIYEV**

## SUMMARY

The article states that one of the most discussed issues among researchers specializing in this field when conducting research on the Safavid empire in recent years is the question of the ethnicity of the Safavid kings. However, it is also true that there are those who question the historical facts on this issue. Even irrelevant arguments aimed at distorting a known truth often confuse inexperienced and ill-informed readers who are far from objective. Answering the inappropriate claims related to the ethnicity of the Safavid dynasty is the main purpose of writing the article and at the same time helping the reader to perceive the known facts objectively.

In fact, the fact that the Safavids are Turks is an indisputable fact, and those who do not want to put up with this are only perplexing themselves with their “arguments.”

The main spirit of the article is to confirm the approaches of influential representatives of the Azerbaijani Safavid school and respond with scientific evidence to inappropriate claims related to the ethnicity of Shah Ismail Safavid.

**Keywords:** Azerbaijan, family roots of the Safavids, Ardabil, historical sources, ethnic origin, Turkish

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Humanitar elmlər seriyası* 2024

**UOT 902.2/903.2**

# XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNƏ AİD GİL MÖHÜR VƏ PİNTADERLƏRİN TƏSNİFATI VƏ FUNKSİYASI
## (etnoarxeoloji tədqiqat)

**Şamil N.NƏCƏFOV***

*Azərbaycanın son tunc-erkən dəmir dövrünə aid (e.ə. II minilliyin II yarısı-I minilliyin əvvəlləri) abidələrindən xeyli sayda gil möhürlər və pintaderlər aşkar edilmişdir. Xüsusilə yaşayış yerləri üçün xarakterik olan bu artefaktlar qədim dövrlərdə insanların möhürçülük sənəti haqqında ətraflı təsəvvür yaradır.*

*Yaranma tarixi çox qədim dövrlərə bağlı olan gil möhürlər və pintaderlər eyni ad altında təsnifatlaşdırılsalar da bir-birindən forma, ölçü və funksiyasına görə seçilirlər.*

*Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə aid gil möhürlər və pintaderlərin əksəriyyəti əsasən Azərbaycanın qərb bölgəsinin son tunc-erkən dəmir dövrünə aid yaşayış yerlərindən tapılmışdır. Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə aid gil möhür və pintaderlərin ən yaxın analoqları Gürcüstan və indiki Ermənistan, Şimali Qafqaz, Anadolu ərazilərindən məlumdur. Ümumilikdə isə forma, məzmun, üzərindəki təsvirlərin oxşarlığı baxımından Xocalı-Gədəbəy möhürlərinə və pintaderlərinə yaxın analoqlar bütün Avroasiya məkanından məlumdur.*

*Təmiz gil tərkibə malik, keyfiyyətli hazırlanmış və sabit temperaturda bişirilmiş dairəvi və düzbucaqlı möhürlərin və pintaderlərin əksəriyyəti boz və qara rənglidir. Gil möhürlər və pintaderlər üzərində müxtəlif naxış və təsvirlər, əsasən də svastika həkk olunmuşdur. Gil möhürlər və pintaderlərin hansı məqsədlə istifadə olunmaları haqqında arxeoloji ədəbiyyatlarda bir-birinə zidd olan müxtəlif fikirlər mövcuddur.*

*Məqalədə Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün xarakterik sayılan gil möhürlərin və pintaderlərin təyinatı və istifadə məqsədlərindən danışılır.*

**Açar sözlər:** Azərbaycan, Orta Kür hövzəsi, Xocalı-Gədəbəy mədəniyyəti, tunc dövrü, yaşayış yeri, gil möhürlər, pintaderlər

**Giriş.** Arxeoloji qazıntılar zamanı tapılan və böyük maraq doğuran artefaktlardan biri də gil möhürlər və pintaderlərdir.

Gil möhürlərin tarixi çox qədimdir. Gil möhürləri şumerlər, assurilər, xaldlar, midiyalılar, xettlər, əhəmənilər, parflar, soqdlar, baktriyalılar, yunanlar, urartulular, skiflər, sarmatlar, alanlar, hunlar, latınlar, hindular və s. xalqlar işlətmişlər [1]. Möhürlər Mesopotamiya, Suriya, İordaniya, Misir, Türkiyə, Hindistan, Çin, Yaponiya, İspaniya, Orta Asiya, Balkan yarımada-

* **AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent; shamil_necefov@mail.ru; ORCİD İD: 0000-0001-8834-7188**

sı, Qara dəniz və Aralıq dənizi hövzələri, Volqaboyu, Şimali Qafqaz və s. yerlərdən çox tapılmışdır. Möhürlər gillə yanaşı daşdan, metaldan, sümükdən və ağacdan da hazırlanmışdır.

Möhürçülük sənəti gillə başlayaraq ağac, yarımqiymətli daşlar, metal nümunələrlə inkişaf etdirilərək qliptika formasını almışdır [2, 175].

Gil möhürlər ümumi termin xarakteri daşıyır. Məzmun və formasından asılı olmayaraq bu qəbildən olan tapıntıların hamısı "möhür" və ya "ştamp" adı altında birləşir. Pintaderlər isə gil möhürlərin ölçüsünə və formasına görə fərqlənən, ayrıca, seçilmiş və konkret məzmun daşıyan bir növüdür.

Anbar və xəzinələrin möhürlənməsi haqqında ən qədim səmavi kitablardan sayılan Tövratda da qeyd edilir. Şərq əfsanələrində Süleyman peyğəmbərin möhürü haqqında çoxlu əfsanə və rəvayətlər vardır. Midiyalıların hər birinin öz şəxsi möhürü olması haqqında Heredot məlumat vermişdir [3, 130-142; 4, 159].

**Gil möhürlər yoxsa pintaderlər?** İlk nümunələri e.ə. IX-VIII minilliklərə aid edilən möhürlər qarışıq tərkibə malik gildən hazırlanmış, tarixi inkişafın sonrakı dövrlərində fərqli materiallardan hazırlanmaqla müxtəlif məzmun və forma daşımışlar [2, 173]. Metal, yarımqiymətli daşlar, ağac, sümük, fayans və s.-dən hazırlanan möhürlərin meydana çıxmasını isə tədqiqatçılar dövrün ictimai-siyasi və dini şərtləri, fərqli iqlim və coğrafi şərait, təkmilləşən texnoloji üsullarla əlaqələndirirlər. İlk vaxtlarda meydana çıxan gil möhürlər dairəvi formalı, az hallara isə düzbucaqlı olmaqla dəstəkləri ip keçirmək üçün dəlikli və dəliksiz olmuşdur.

Müasir günümüzdə daha çox ictimai-siyasi və dini məzmun ifadə edən möhürlər qədim zamanlarda müxtəlif məzmun və mahiyyət daşımışlar. Tədqiqatçıların bəziləri möhür sözünün qədim şumer, akkad, bəziləri isə xettlərdən (hitit) gəldiyi fikrini irəli sürürlər [5, 1316].

Arxeoloji ədəbiyyatda gil möhürlər iki qrupa ayrılır: damğa və silindr möhürlər. Çox geniş yayılmış damğa möhürlər zamanla fərqli formalar almışlar. Onlar dəstəkli və dəstəksiz olmaqla da iki qrupa ayrılır. Texnoloji üsulların artması, insanın dünyagörüşünün və dini təsəvvürlərin zənginləşməsi ilə gil möhürlərin dəstəkləri heyvan başları formasında, ip keçirmək üçün dəlikli, ayaqlı formalarda hazırlanmışdır. Dəstəksiz möhürlər isə skarabey (böcək), prizma, düymə və bikonik formadadırlar [6, 14]. Gil möhürlərin işlək hissəsi bişirilməzdən öncə naxışlanmış, sonra isə yenidən gil suyuna salınmış və ocaq üstünə qoyularaq bişirilmişdir. Damğa və silindr möhürlərin ölçülərində ciddi fərq müşahidə edilmir. Damğa möhürlər 2-8 sm arasında, silindr möhürlər isə 1-7 sm arasındadır. Dəstək hissə ilə birlikdə uzunluqları yuxarıdakı ölçünün yarısı qədərdir. E.ə. V minilliyə aid olan ilk gil möhürlərin müasir Türkiyə və İraq ərazilərində aşkar edildiyini

yazan D.Collona görə “tuncun kəşfinə qədər gil möhürlərin işlək hissəsi üzərində təsvirlər yalnız insan və heyvan təsvirləri olmaqla çaxmaqdaşı və obsidian alətlərlə qazılmış, çərtilmiş və kanallar açılmışdır” [6, 11]. Tuncun kəşfindən sonra isə bu işlər tunc alətlər vasitəsilə həyata keçirilmişdir. Bu möhürləri hazırlayan ayrıca ustaların olması isə şübhəsizdir.

Damğa möhürlərin ilk nümunələrinin Ras Şamranın e.ə. VIII minilliyin sonlarına aid təbəqəsindən tapıldığı məlumdur [7, 4]. Suriyanın şimalında e.ə. VII-VI minilliklərə aid Tell Sabi Abyad qazıntıları zamanı damğa möhürlər çox tapılmışdır [1, 1591]. Təpə Qavranın Şimali Ubeyd dövrünə aid təbəqəsindən, eləcə də Şərqi Anadolunun Fərat çayı hövzəsindəki e.ə. V-IV minilliyin I yarısına aid abidələrindən də çoxsaylı möhürlər aşkar edilmişdir [8, 157]. Anadolu mənşəli ən qədim damğa möhür nümunəsi isə Şanlıurfa yaxınlığındakı Gürcütəpə abidəsinin neolit təbəqəsindən tapılmışdır [9, 101]. Çatalhöyük, Bademağacı yaşayış yerlərində də belə gil möhür nümunələri vardır [10, 45; 11, 159-169]. Azərbaycanda Leylatəpə mədəniyyəti abidələrindən yalnız I Böyük Kəsik yaşayış yerinin I qazıntı sahəsindən aşkar edilən 2 ədəd gil möhür-amulet tədqiqatçı N.Ə.Müseyiblinin fikrincə forma və məzmun etibarilə Şimali Mesopotamiya möhürləri ilə yaxınlıq təşkil edir [8, 156-157]. Neolitdən başlayan gil möhür nümunələri tunc dövründə təkmilləşmiş və ən gözəl nümunələr hazırlanmışdır. Geometrik təsvirli gil möhürlərin ən mükəmməl nümunələri Çatalhöyükdən aşkar edilmişdir [12]. Orta Şərq tipli möhürlərin əksəriyyətinin üzəri geometrik təsvirlərlə zəngindir. E.ə. III minillikdən başlayaraq gil möhürlərin üzərində təsvir motivləri zənginləşir və müxtəlifləşir [6]. Son tunc-erkən dəmir dövründə isə gil möhürçülük bütün Anadolu, Orta Asiya, Qafqaz, Balkan və Pireney yarımadaları, Qara və Aralıq dənizi hövzələri, Dunay ətrafında geniş yayılmışdır. Yarandığı erkən dövrlərdə möhürlərin siyasi, sosial, iqtisadi və ticarət məqsədilə istifadə olunmalarına dair mülahizələr birmənalı deyildir.

Təkzibolunmaz faktdır ki, gil möhürlər əsasən yaşayış yerlərinin tikili qalıqları və ocaq yerləri yaxınlığından, gil suvaqlı torpaq döşəmələrin altından, təsərrüfat quyuları və anbarlardan, təsərrüfat küpləri içərisindən aşkar edilmişdir. Qəbirlərdə gil möhürlərə çox nadir hallarda rast gəlinmişdir. Qəbir abidələrində gil möhürlərin aşkar edildiyi kütləvi hal Ön Asiyada Sapallitəpə yaşayış yeri olmuşdur ki, buradakı qəbirlərdən ümumilikdə 30 gil möhür tapılmışdır [12, 28-29].

Pintader sözü ispancadan “pintadera”, “pintar” sözündən götürülmüş anlamı “boya”, “təsvir”, “boya ilə çəkmək”, “təsvir etmək” deməkdir. Dünya arxeoloji ədəbiyyatında neolit dövründən başlayaraq orta əsrlərə qədər bir çox arxeoloji mədəniyyətlərdə mövcud olan əsasən gildən hazırlanmış və adətən ornamental naxışlı relyef markalarının adı olaraq qəbul edilmişdir. Xalkolit, Tunc və Erkən Dəmir dövrlərində ən çox Kiçik Asiya, Yaxın və

Orta Şərq, Orta Asiya, Qafqaz, Qara dəniz və Aralıq dənizi hövzələri, Hindistan, Yaponiya, hətta İspaniya və uzaq Kanar adalarına qədər geniş yayılmışdır. Bir çox tədqiqatçılar pintaderləri "işlək səthində anlaşılmaz naxışları və dəstək hissəsinə ip keçirmək üçün dəliyi olan gil möhürlər" adlandırırlar [13; 14].




**Şək. 1.** Sarvantəpə yaşayış yerindən (Qazax rayonu) tapılmış pintaderlər (1-3) və gil möhürlər (4-6) [37, c. 79, рис. 2 (2-4), c. 81, рис. 4 (1-3)].

Pintaderlər arxeoloji ədəbiyyatda ən çox iriölçülü gil möhürlərə de-

yilir. Baxmayaraq ki, bir çox xarici ədəbiyyatlarda ölçüsünə görə çox kiçik (işlək səthin ölçüsü 2-4 sm) olan gil möhürlər də pintader adlandırılır. Digər gil möhürlərdən fərqləndirici xüsusiyyət kimi ölçü baxımından böyük olmaları və gil möhürlərə nisbətdə daha konkret funksiya daşımaları əsas götürülür. Pintaderlərin işlək səthində ən çox rast gəlinən motiv svastika təsviridir. Bişirilməzdən əvvəl işlək səthində dərin kanallar açmaqla ziqzaq, qarışıq və labirint formasında svastika təsvirləri həkk edilərək hazırlanmışlar.

Pintaderlərin gillə yanaşı ağacdan düzəldilmiş və işlək səthində eyni təsvirlər olan nümunələri də tapılmışdır [2; 15].

Dekorativ, geometrik fiqurlarla, ornamental bəzəklərlə, qarışıq, labirint və daha çox ziqzaqlı svastika ilə bəzədilən üçkünc, düzbucaqlı, dairəvi və kvadrat formalı pintaderlər vardır. Pintaderlərin ən çox saxlandığı kolleksiya Kanar arxipelaqındakı Tenerif adasında Təbiət və İnsan muzeyi və həmçinin Qran-Kanariya adasındakı Qaldar mağarasındakı muzey kolleksiyadır [16]. Burada dünyanın müxtəlif bölgələrindən tapılmış ən qədim dövrlərdən bugünədək istifadə olunmuş minlərlə pintader saxlanılır. Onların ən kiçiyinin işlək səthinin ölçüsü 2 sm, ən böyününkü isə 38 sm-dır [16].

**Xocalı-Gədəbəy möhürlərinin və pintaderlərinin tipologiyası.** İşlək hissənin formasına görə Xocalı-Gədəbəy möhürləri və pintaderləri içərisində dairəvi formalılar üstünlük təşkil edir. Kiçikölçülü, düzbucaqlı formalı möhürlər çox azdır. Təmiz gil tərkibli olub, keyfiyyətli hazırlanmış və sabit temperaturda bişirilmiş dairəvi möhürlərin əksəriyyəti boz rənglidir. Dairəvi möhürlərin dəstək hissələri bəzən uzun olur və piramidal formada işlək səthə birləşir. Dəstək hissəsi ilə birlikdə dairəvi möhürlərin uzunluğu 6-10 sm arasında, işlək hissələrin diametrləri isə 3-8 sm arasında dəyişir.

Dairəvi möhürlər və pintaderlər işlək hissələrinin forma və təsvirlərinə görə aşağıdakı qruplara aid edilirlər:

Birinci qrupa aid olan möhürlərin üzərində Günəş şüalarını əks etdirən təsvirlər verilmişdir. Mərkəzi hissədə kiçik dairə və həmin dairədən kənarlara şüa formasında ayrılan qabartma xətlər salınmışdır. Qabartma xətlərin daha çox arası, çox az hallarda isə üstü basma deşiklərlə-nöqtələrlə naxışlanmışdır (şəkil 1.4; şəkil 2.6-7; şəkil 3.6-7; şəkil 4.7). Bəzən mərkəzdəki kiçik dairənin kənarı spiral və burma üsulla naxışlanır (şəkil 3.6). Bəzi möhürlərdə isə dairədən kənarlara yayılan qabartma şüaların üzəri kəsmə xətlərlə, onların arası isə yenə də nöqtələrlə naxışlanır (şəkil 2.7). Belə möhürlərin dəstək hissələri kiçik olur.

İkinci qrupa aid olan gil möhürlər və pintaderlər üzərində təsvirlər qabartma və batıq kanalvari formada işlənmiş "S" şəkilli işarələrdir (şəkil 1.5-6; şəkil 2.2-4; şəkil 2.8; şəkil 3.4). Bu işarə möhürün bütün işlək səthini əhatə edir. Batıq kanalvari "S" işarəli gil möhürlər və pintaderlər daha çox üstünlüyə malikdir. "S" işarəsinin üzəri bəzən nöqtələrlə, bəzən də kəsmə

xətlərlə naxışlanmışdır (şəkil 2.8; şəkil 3.4). Belə möhürlərin və pintaderlərin dəstək hissəsi işlək hissəyə az maili formada birləşirlər. Bəziləri isə piramida formasındadır (şəkil 2.4). Bu tipə aid Sarıtəpə möhürlərinin birinin dəstək hissəsində svastika işarəsi vardır (şəkil 3.1).




**Şək. 2.**Gil möhürlər və pintaderlər: 1-5-Sarvantəpə yaşayış yeri (Qazax rayonu) [37, с. 79, рис. 2 (1), с. 80, рис. 3 (1-3), с. 82, рис. 5 (1)]; 6-8-Sarıtəpə yaşayış yeri (Qazax rayonu) [33, с. 116, табл. I, рис. 2-3, 5].

Üçüncü qrupu təmsil edən gil möhürlər və pintaderlər üzərində mərkəzdən başlayaraq fırlanan dairə formasında spiralvari naxış həkk olunmuşdur (şəkil 3.3; şəkil 4.5). Bu naxış elementi gil möhürlər və ya pintaderlər üzərində dərin kanallar açılmaqla dairə halında formalaşdırılmışdır. Bu tipə aid olan bəzi gil möhürlər və pintaderlər üzərində təsvir edilən dairə

mərkəzdən çıxan iki simmetrik qoşa xətdən ibarətdir (şəkil 4.1). Sarıtəpədən tapılmış bir gil möhür-pintader üzərindəki fırlanan dairə isə mərkəzdən eyni nöqtədən çıxan üç simmetrik xətdən ibarətdir (şəkil 3.3).




**Şək. 3.** Gil möhürlər və pintaderlər: 1-4, 6-8-Sarıtəpə yaşayış yeri (Qazax rayonu) [33, с. 116, табл. I, рис. 1, 6, с. 118, табл. II, рис. 2]; 5-Sarvantəpə yaşayış yeri (Qazax rayonu) [37, с. 82, рис. 5 (2)].

Dördüncü qrupa daxil olan gil möhürlər hər iki tərəfində təsvirləri olan gil möhürlərdir ki, bunlardan da hələlik yalnız bir nümunə məlumdur (şəkil 3.8). Sarıtəpədən tapılmış bu gil möhür kiçikölçülü olub ortası nisbətən daralır və hər iki işlək səthə doğru isə genişlənir. İşlək səthləri yastıdır.

Beşinci qrupa aid olan gil möhürlər-pintaderlər orta ölçülü olub, əsasən boz rənglidirlər. Onların üzərində təsvir olunan "çərxi-fələk" (svastika) dərin kanallar açılmaqla hazırlanmışdır (şəkil 3.3; şəkil 4.2). Mərkəzdə qabarıq yerin ortası dairəvi, kiçikölçülü, sanki deşik açılmış nöqtəvari naxışdan, kənarı isə sadə svastika təsvirindən ibarətdir. Bu tip gil möhürlər-pin-

taderlərin sayı azdır.




**Şək. 4.** Gil möhürlər-pintaderlər: 1-2-Sarıtəpə yaşayış yeri (Qazax rayonu) [33, c. 121, табл. III, рис. 4, c. 123, табл. IV, рис. 1]; 3-Yastıtəpə yaşayış yeri (Ağstafa rayonu) [31, s. 47, 1-ci tablo, şəkil 1]; 4-5-Baba Dərviş yaşayış yeri (Qazax rayonu) [32, s. 119, tablo IV, 1-2]; 6-Qarabulaq yaşayış yeri (Qax rayonu) [33, c. 123, табл. IV, рис. 4); 7-Sarıtəpə yaşayış yeri [Milli Azərbaycan Tarixi Muzeyi, Arxeologiya fondu AF24339; 34, 7].

Altıncı qrupa aid, hələlik 1 nümunə ilə təmsil olunan, qırmızı gildən hazırlanan və ölçüsünə görə kiçik olan gil möhür piramida formasındadır (şəkil 2.5). Onun baş hissəsində ip keçirmək üçün deşiyi vardır. İşlək səthində isə qarışıq svastka təsviri həkk olunmuşdur. Bu tip gil möhürlərin daşdan hazırlanmış analoqları yuxarıda qeyd etdiyimiz kimi son tunc-erkən dəmir dövrünə aid Üzərliktəpə (Şəmkir rayonu) və Yastıtəpə (Ağstafa rayonu) yaşayış yerlərindən, həmçinin ilk tunc dövrünə aid Şadılı və Uzun

Rəmə kurqanlarından (Goranboy rayonu) tapılmışdır [17, 152; 18, 135]. Türkiyə ərazisindəki tunc dövrü abidələrindən bu tip gil möhürlər-pintaderlər çox sayda tapılmışdır.

Yeddinci qrupa aid edilən gil möhürlər kiçikölçülü olub, kobud formada hazırlanmış dəstəkləri ilə seçilirlər. Onların işlək səthində az dərinliyə malik kanallar açılmaqla xaçvari naxışlar salınmışdır (bəzən 4, bəzən də 6 guşəli formada). Bu tip gil möhürlər Gədəbəyin son tunc dövrü abidələri üçün xarakterikdir (şəkil 5.1).

Səkkizinci qrupa aid edilən gil möhürlər də kiçik diametrə malik olub, işlək səthlərində müxtəlif basma naxışlarına görə fərqlənirlər. Leşkər qalaçasından (Gədəbəy rayonu) tapılan belə bir möhürün işlək səthini tamam əhatə edən basma nöqtəvari naxışların mərkəzində sadə xaç təsviri vardır (şəkil 5.2) [19, 171-172].

İri ölçüləri ilə seçilən pintaderlərin böyük əksəriyyəti isə möhürlərdən fərqli olaraq düzbucaqlı formadadır (şəkil 1.1-3). Biz həmin möhürləri kvadrat və ya dördkünc formalı deyil, məhz düzbucaqlı formalı adlandırırıq. Çünki dəqiq ölçüləri onların kvadrat formalı olmadığını göstərir. Düzbucaqlı pintaderlərdə dəstək hissə işlək səthə nisbətən qısadır. Dəstək hissədə az hallarda deşik yeri də (çox ehtimal ki, ip keçirmək üçün) vardır. Düzbucaqlı pintaderlərdə işlək səth 10-16 sm olub dəstək hissələri 8-12 sm arasındadır.

Düzbucaqlı formaya malik olan Xocalı-Gədəbəy gil möhürləri əsasən böyük ölçülü pintaderlərdir. Üzərindəki təsvirlər isə əksəriyyəti baxımından svastika təsvirləridir (şəkil 1.1-3; şəkil 4.3-4; şəkil 5. 4-6; şəkil 5.3). Sadə, qarışıq, labirint çox az hallarda isə ziqzaqlı svastika təsvirləri pintaderlərin üzərində dərin kanallar (kanalların dərinliyi bəzən 2,5 sm-ə çatır) açılmaqla hazırlanmışdır. Qarabulaqdan (Qax rayonu) tapılmış düzbucaqlı pintaderin üzərindəki təsvir isə fərqlidir. Bu pintaderin üzərindəki təsvir meandr naxışı xatırladır (şəkil 4.6).

Cədvəl 1

**Xocalı-Gədəbəy mədəniyyətinə aid bəzi gil möhür və pintaderlərin kimyəvi analiz nəticələri**

| ENV.NO | analiz | Au | Ag | Sn | Cu | Pb | S | Si | Al | P | Mn | Fe | Sb |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| SRV/001 | #121 | <LOD | <LOD | <LOD | 56.5 | 87.65 | <LOD | 9.8 | 0.432 | 54.56 | <LOD | 5.6 | 333 |
| SRV/004 | #122 | <LOD | <LOD | <LOD | 89.6 | 96.57 | <LOD | 4.32 | 67.9 | 0.23 | <LOD | 4.5 | 43 |
| ST/021 | #135 | <LOD | <LOD | <LOD | 23.56 | 56.78 | 56.001 | 45.56 | 32.45 | 0.345 | <LOD | 3.2 | 85 |
| QT/0081 | #136 | <LOD | <LOD | 4.32 | 0.1234 | 567.89 | 0.456 | 12.32 | 10.003 | 0.43 | <LOD | 3.3 | 578.09 |
| MLM/0212 | #137 | <LOD | <LOD | 21.3 | 5.567 | 67.8 | 4.567 | 11.33 | <LOD | 1.43 | <LOD | 0.12 | 34.555 |
| MG/99 | #156 | <LOD | <LOD | 19.032 | 89.54 | 44 | 4.68 | 12.78 | <LOD | 1.45 | <LOD | 0.32 | 3.456 |
| G/0564 | #157 | <LOD | <LOD | 0.21 | 98.54 | 45 | 92.998 | 11.56 | 98.54 | 2.64 | <LOD | 0.32 | 76.66 |
| BBSh/04 | #158 | <LOD | <LOD | <LOD | 46.64 | 87.56 | 5674 | 10.043 | 34.23 | 1.44 | <LOD | 0.5 | <LOD |
| MtP/003 | #159 | <LOD | <LOD | <LOD | 76.55 | 54.78 | 0.234 | 10.88 | 45.32 | 1.43 | <LOD | 1.32 | <LOD |
| NK1/0021 | #160 | <LOD | <LOD | | 68.85 | 56.7 | 34.567 | 14.9 | 33.66 | 0.887 | <LOD | 0.123 | 84.5 |

1 ədəd möhür isə xaç formasında hazırlanmış və alt hissəsi yastıdır

(şəkil 3.5). Sarvantəpədən tapılmış xaçvari möhürün oxşarı, daha doğrusu eynisi Üzərliktəpədən (Şəmkir rayonu) aşkar edilmişdir. Bu tip möhürlərlə bağlı digər analoji nümunələr hələ ki, bizə məlum deyil.

**Gil möhürlərin və pintaderlərin funksiyası haqqında.** Gil möhürlərin və pintaderlərin hansı məqsədlə işlədilməsi arxeologiyada müxtəlif mübahisələrə səbəb olan məsələlərdəndir. Bu mövzuda arxeoloqlar müxtəlif və bir-birindən fərqli mülahizələr irəli sürmüşlər.

J.Mellart gil möhürlərdən əsasən parça və həsir üzərinə naxış basmaq üçün istifadə edildiyini yazmış, *"tarixdən əvvəlki dövrlərdə isə müxtəlif tayfa və birliklərdə gil möhürlərdən insan bədəninə müxtəlif naxışlar basmaq üçün istifadə edildiyini"* də qeyd etmişdir [20; 21, 164]. C.Renfrev isə bir qədər inandırıcı mövqe nümayiş etdirmişdir. O, *"yazının hələ kəşf edilmədiyi dövrlərdə gil möhürlərdən iriölçülü qabların ağzını möhürləmək, təsərrüfat təyinatlı otaqların təhlükəsizliyini qorumaq və anbarların qapılarını möhürləmək üçün istifadə oluna biləcəyi"* fikrini ehtimal edir [22, 351]. D.Collona görə *"ən qədim nümunələri e.ə. VIII-VII əsrlərə aid edilən gil möhürlərdən toxuculuq məhsulları, dəri, gil qablar, səbət, qutu, çuval və çöræklərin üzərini möhürləmək üçün istifadə olunmuşdur"* [6, 14]. Sonuncunun fikrinin təsdiqinə bir çox əcnəbi və yerli tədqiqatçıların əsərlərində rast gəlinir. Başqa bir yerdə D.Collon gil möhürlərin e.ə. III minillikdə qədim İkiçayarasında yalnız xüsusi mülkiyyət nişanı olduğunu qeyd etmişdir [6].

E.İ.Krupnov və V.B.Vinoqradov daha çox gil möhür və pintaderlərin toxuculuq məhsullarının üzərinin bəzədilməsi (boya naxışların salınması), çörəyin üzərinin naxışlanması və gön-dəri məhsullarının üzərinin markerlənməsi üçün istifadə edildiyi fikri üzərində dayanırlar [23, 203; 24, 213-214]. Belə möhürlərin daha çox ikitərəfli (ikiüzlü) olmasını göstərirlər. Analoji möhürlərdən biri Sarıtəpədə dini tikilinin (ibadətgah) içindən aşkar edilmişdir. Bu möhürün bir tərəfi "S", digər tərəfi isə spiral təsvirlidir. E.İ.Krupnov belə möhürlərdən qədim dövrlərdə taxılı dəcləmək, yalnız xüsusi və əlamətdar günlərdə bişirilən çöræklərin üzərinin naxışlanmasında istifadə olunduğu ehtimalını da qeyd edir [25, 20].

Gil möhürlərlə gön-dəri məhsullarını dəcləmək və yun parça üzərini naxışlamaq üçün istifadə olunması ehtimalı üzərində dayanan tədqiqatçılar az deyildir [12; 24, 212-216; 26].

Bir qrup tədqiqatçı isə gil möhürlərdən əlamətdar günlərdə, xüsusilə bayramlarda bişirilən çörəyin üzərini bəzəmək üçün istifadə olunması fikri üzərində daha çox dayanırlar. Xüsusilə Qafqaz xalqlarında bu adətin indiyədək qalmasını vurğulayanlar vardır [12; 21]. Həmin tədqiqatçılar analoji olaraq indi də Suriya və Yunanıstanın bəzi yerlərində bayram günlərində bişirilən çörək və digər un məmulatları üzərinə müxtəlif naxışlar vurmaq üçün gil möhürlərdən istifadə olunduğunu qeyd edirlər [27, 39-49]. D.Collon Bri-

taniya Kral muzeyində saxlanılan və məhz bişirilən çörəyin üzərini naxışlamaq üçün istifadə olunan gil möhür barəsində məlumat vermişdir [6; 28, 141].




**Şək. 5.** Gil möhürlər və pintaderlər: 1-3-Leşkər qalaçası (Gədəbəy rayonu) [19, 172, şəkil 6]; 4-6-Qazax rayon Tarix Diyarşünaslıq Muzeyi

Qara dənizin şimal sahillərindəki antik şəhər yerlərindən aşkar edilmiş gil möhür və iri ölçülü pintaderlərin bəzilərinin "müqəddəs çörək" məhsullarının naxışlanmasında istifadə edilməsi barədə əcnəbi arxeoloqların fikirləri vardır. Onlara görə "müqəddəs çörəy"in naxışlanması üçün sırf bu məqsədlə gil möhürlər düzəldilmişdir.

Orta Asiyada gil möhürlərin ritual ayinlərdə baş bəzəklərindən və bel kəmərlərindən asılan dini məzmunlu əşya olduğu qeyd olunur. V Namazqada aşkar edilən qəbir bəzəkləri içərisində sinə amuletinin yanından gil mö-

hür tapılmışdır [12].

Gil möhürlər haqqında yazan yerli mütəxəssislərin heç biri onları möhür və pintaderlər kimi qruplara ayırmamış, fərqli xüsusiyyətlərini göstərməmişlər. Q.M.Aslanov, S.M.Qazıyev, İ.H.Nərimanov, F.M.Muradova, V.H.Əliyev, C.N.Rüstəmov, C.Ə.Xəlilov, V.B.Baxşəliyev və digərləri onları ümumi ad altında – gil möhürlər kimi təsnif etmişlər. Bu sahədə yalnız N.Ə.Müseyiblinin yanaşması daha konkretdir [29].

Q.M.Aslanov Mingəçevirdən tapılmış gil möhürləri Azərbaycan ərazisində XX əsrin əvvəllərinə kimi geniş yayılmış orta əsr dəcləri ilə müqayisə edərək, onlardan xüsusi mülkiyyət nişanı kimi su bəndlərinin möhürlənməsi üçün istifadə olunduğunu göstərmiş və e.ə. I minilliyin əvvəllərinə aid etmişdir [30, 561-562, рис. 1-2]. Müəllifin fikrincə *"Orta əsrlərdə irriqasiya kanallarından çəkilən gil su şlüzləri suya nəzarət edən cuvarlar və mirablar tərəfindən möhürlənir və bu möhürü pozmağa kəndlilər cürət etməzdilər. Mübaşir və xırmanbəyləri isə öz xüsusi möhürləri ilə taxıl yığımından sonra anbarları möhürləyir və yalnız öz paylarını götürdükdən sonra qalan taxıl kəndlilərə paylanırdı. Taxıl yığımından sonra bişirilən çörəklərin üzərinə də möhürlə naxış vurulurdu"* [30, 561-562]. Aydın görünür ki, bu sətirlərin müəllifi gil möhürlərin çoxfunksiyalı olduğunu göstərməyə çalışır.

S.M.Qazıyev bu fikirlə razılaşmır və qeyd edir ki, bu tip möhürlər hazırlandığı zaman çox xırda xüsusi təsərrüfatlarda dövlət mirabları (subaşılar) olmadığı üçün su bəndləri dəclə möhürlənə bilməzdi. Tədqiqatçı bu cür möhürlərlə anbar, xəzinə, varlı evlər, toxunulması qadağan olunan yerlərin möhürləndiyini və möhürlərin xüsusi mülkiyyət nişanı kimi istifadə olunduğu fikrini irəli sürür [4, 156-158]. Bu isə möhürlər haqqında, hətta sırf mövhumi etiqadların da yaranmasına səbəb olmuşdur. Belə dini-mövhumi etiqadlara əsasən möhür olan şəxsə şər qüvvələr toxuna bilməzmiş. S.M.Qazıyev qeyd edir ki, möhürlər üzərindəki naxışlar müəyyən üsullarla düzəldilmişdir və bu sadə üsulların nəticəsində mürəkkəb naxışlı möhürlər yaradılmışdır. Üzərində svastika simvolu olan möhürlərin hazırlanma sxemini tapılmış bir möhür üzərində qrafik cizgilərlə daha aydın şəkildə izah edən S.M.Qazıyev göstərir ki, bu möhürün içində qabarıq düzəldilmiş çıxıqlar biri digərinin əksinədir və simmetrikdir. Kvadrat şəkilli və yaxud düzbucaqlı formalı gil möhürlərin üzərindəki qarışıq svastika təsvirləri bu qaydaya əsaslanaraq hazırlanmışdır [4, 158]. Mühüm tarixi əhəmiyyəti olan möhürlərin izinin gil, metal (qızıl, gümüş, tunc, qurğuşun), xəmir, mum və s. üzərində tapıldığını qeyd etsə də S.M.Qazıyev bunlara aid heç bir nümunə gətirə bilməmişdir [4, 158].

Etnoqrafik müşahidələrə əsaslanaraq S.M.Qazıyev qeyd edir ki, bayram günlərində Azərbaycanın bəzi bölgələrində bişirilən çörək məhsul-

larının üzərinə xüsusi dairəvi gil möhürlərlə naxış vurmaq adəti olmuşdur. Tədqiqatçı Xaldan, Nuxa (Şəki rayonu) və Quba rayonlarında çörək naxışlamaq üçün xüsusi dəstəkləri və üz hissəsində dərin kanallar açılan naxışlı gil möhürlərlə rastlaşdığını yazır və bu möhürlərin çörək məhsullarının üzərini naxışlamaq üçün istifadə olunduğunu inandırıcı sayır. O, qeyd edir ki, *"Oğuz rayonunun Xaçmaz kəndində çörək bişirərkən "külçəbasan" adlı möhürdən istifadə edilir. Yaxın, qan qohumluğu olan ailələrin yalnız bir "külçəbasan"ı olur və bununla hər ailə növbə ilə çörəyini bişirərkən onun üzərini naxışlayır. Beləliklə, hər ailənin öz məxsusi çörəyi olur"* [4].

Quba "külçəbasan"ları haqqında C.Ə.Xəlilov da məlumat vermişdir. Məlum faktdır ki, hazırda Azərbaycanın əksər rayon və kənd yerlərində bişirilən təndir çörəkləri üzərinə hansısa alətlə, xüsusi heç bir alət tapılmadıqda isə çəngəllə bəzəklər vurulur. Daha bir etnoqrafik faktı qeyd edə bilərik ki, hal-hazırda ən çox kələğayı adlanan baş örtüyünün üzərinin bəzədilməsində (boya ilə basma naxış vurulmasında) Şəki və Lahıc ustaları ağacdan hazırlanan möhür və pintaderlərdən istifadə edirlər.

Yastıtəpə tapıntılarını "gil möhürlər" kimi xarakterizə edən F.M.Muradova və İ.H.Nərimanova görə Azərbaycan ərazisindən tapılmış gil möhürlər bir-birinə çox oxşardır [31]. Onları formasına, üzərindəki təsvirlərə, rənginə və hətta gil tərkiblərinə görə də eyni sayan tədqiqatçıların fikrincə üzərində svastika olmayan dördkünc gil möhürlərə, demək olar ki, rast gəlinməmişdir. Təbii ki, müəlliflər burada pintaderləri nəzərə tutmaq istəmişlər.

Babadərviş tapıntılarını da "gil möhürlər" adlandıran V.H.Əliyevə görə onlar kvadrat və dairəvi olmaqla iki qrupa ayrılır və dəstəkləri qısadır. Gil möhürlərə Azərbaycanda yalnız Son Tunc dövrü abidələrində təsadüf edildiyini qeyd edən tədqiqatçı hesab edir ki, möhürlərə əsasən atəşgahlarda və yaşayış yerlərindəki dini məzmunlu tikililərdə rast gəlinməsi və üzərlərində od, Günəş rəmzi sayılan svastika simvolunun olması onları Azərbaycanın qədim tayfalarının dini ideologiyası ilə əlaqələndirməyə əsas verir [32, 121].

İ.H.Nərimanova görə Sarıtəpədən tapılan möhürlərin çox hissəsi nəinki formasına və işlək hissəsindəki təsvirlərinə, hətta ölçülərinə görə bir-birindən fərqlənmir. Məhz buna görə də tədqiqatçı bu möhürlərdən xüsusi mülkiyyət nişanı kimi istifadə olunması fikrinə şübhə ilə yanaşır [33, 24-128]. Gil möhürlər haqqında yazdığı məlum məqaləsində İ.H.Nərimanov belə bir nəticəyə gəlir ki, gil möhürlərin üzərindəki təsvirlərin xarici görünüşlərindəki fərqlərə baxmayaraq məzmun etibarilə onların əsasını Tunc və Erkən Dəmir dövrü tayfalarının dini görüşləri ilə əlaqədar olan Günəş rəmzi təşkil edir. Tədqiqatçı eyni zamanda ehtimal edir ki, gil möhürlər çörək üzərində naxış vurmaq üçün də istifadə edilmişdir [33, 130].

Milli Azərbaycan Tarixi Muzeyinin 2020-ci ildə nəşr etdirdiyi "Azərbaycanda möhürlərin tarixindən" adlı kitab-kataloqda 1958-1959-cu illərdə

Qazax rayonunun Sarıtəpə yaşayış yerindən aşkarlanan və Muzeyin Arxeologiya fondunda saxlanılan onlarla "qulplu ştamp" (pintaderlər) haqqında məlumat yer almışdır [34]. Kitab-kataloqda qeyd olunur ki, *"möhürlərin ən bəsit ilkin növü olan "ştamp"lar (gil möhürlər) müxtəlif məqsədlərlə istifadə edilirdi. Onların vasitəsilə anbarlar və taxıl çalaları möhürlənir, dəriyə və qaba yun parçaya, eləcə də çörəyə basma yolu ilə naxış vurmaq üçün işlədilirdi"*. Kitab-kataloqda Azərbaycan ərazisindən tapılan pintaderlərin birmənalı olaraq "basmaqəlib" kimi istifadə edilməsi vurğulanır: *"...müqəddəs çörəyə ibtidai cəmiyyətin ovsun ayinlərinə və ya qədim dini inanclara görə günəş və svastika təsvirləri vurulur, bol məhsul niyyətilə günəş və çörək simvolik şəkildə birləşdirilirdi"* [34, 3].

Bu qədim adət, eləcə də bayram günlərində bişirilən çörəyi sehrli naxışla bəzəmək, XIX əsrədək davam etmişdir. Etnoqrafik tədqiqatlara görə, bu məqsədlə əsasən kiçik gil və taxta ştamplardan istifadə edilmişdir. Azərbaycanda onlara "külçəbasan" deyilir. Bu, çörəyin növlərindən birinin adıdır. Kəndlərdə nənədən nəvəyə irsən keçən və ailənin nəsil nişanı, əmlakı sayılan külçəbasan, həm də bütün qohum-əqrabaya məxsus idi. Bayram günlərində qohumlar naxış vuran basmaqəlibdən istifadə etmək üçün çörəyin növbə ilə bişirilməsini razılaşdırırdı. Azərbaycanın bir çox bölgələrində (Şamaxı, Şəki, Quba və digər rayonlarda) ailələrdə üz tərəfində əsasən günəş, yaxud svastika təsviri həkk edilmiş qulplu külçəbasanlar indiyə qədər qorunub saxlanılır. Gil basmaqəlibdəki təsvirlər bəzən ortasında dairəvi oymalarla işarələnən və öz oxu ətrafında daim sağa-sola hərəkət edən fiqurlar təəssüratını yaradırdı [34].

V.B.Baxşəliyevin fikrincə Sarıtəpə və digər son tunc-erkən dəmir dövrü yaşayış yerlərindən aşkar edilən dairəvi və düzbucaq formalı gil möhürlərin aşkar olunması, son tunc dövründə xüsusi mülkiyyətin mövcudluğunu təsdiq edən faktlardan biridir [35].

N.Ə.Müseyibli hesab edir ki, iqtisadiyyatın sürətlə inkişaf etdiyi, istehsal məhsullarının artdığı e.ə. II minilliyin II yarısı - I minilliyin əvvəllərində xüsusi mülkiyyət və sinfi bərabərsizlik sisteminin formalaşmasının göstəricilərindən biri olan pintaderlər – gildən hazırlanan iriölçülü möhürlər Xocalı-Gədəbəy mədəniyyəti cəmiyyətində xüsusi mülkiyyət münasibətlərinin əsas yer tutmasının bariz nümunələrindəndir. Tədqiqatçı burada eyni sinfə aid olsa da pintaderləri tamamilə gil möhürlərlə eyniləşdirmir və bu fikirlər pintaderlərin konkret hansı məzmun və funksiya daşımasını ifadə edir [29, 169-170]. N.Ə.Müseyiblinin fikrincə hələ Leylatəpə mədəniyyəti dövründən möhürlərdən istifadə şübhəsiz ki, erkən əkinçilik mədəniyyəti dövründə müəyyən əmlak üzərində xüsusi nəzarətin, cəmiyyətdə sosial bərabərsizliyin ilkin təzahürləridir [8, 262; 29, 162-163].

Gil möhürlərin üç əsas funksiya daşıması qeyd olunur:

- təhlükəsizlik simvolu;
- özünütəsdiq (imza) atributu;
- xüsusi mülkiyyət göstəricisi.

Yazının olmadığı bir zamanda gil möhürlər əgər keramika nümunələri və digər əşyalar üzərinə qəlib kimi basılırdısa bu həmin əşyaları əslində qoruma altına almağa xidmət edirdi. Hətta bir çox tədqiqatçılar Anadoluda, Yaxın və Orta Şərqdə üzəri gil möhürlərlə basılan saxsı qabların yalnız ticarət məqsədilə istifadə olunduğunu, yəni satlıq mal olduğunu ifadə etdiyini vurğulayırlar [36, 13]. Əlbəttə ki, gil möhürlər hər şeydən əvvəl öz sahibini (bu fərdi şəxs, müəyyən qəbilə icması və tayfa, patriarxal ailə birliyi də ola bilərdi) ifadə edən, onun xüsusi mülkiyyətini və sahibliyini təmsil edən bir simvoldur. Gil möhürlər şəxsi simvol olaraq mülkiyyət sahibi olan şəxslər tərəfindən yanlarında daşınmış ştandartlardır. Haluk Pers muzeyində (Türkiyə) saxlanılan "iynə" möhürlərdən məhz bu məqsədlə istifadə olunması artıq sübut olunmuşdur [2, 175-176]. Bəzi yazılı mənbələrdə həmin möhürlərlə möhürlənən malın kimin tərəfindən istehsal edilməsi və keyfiyyəti göstərilmişdir.

Mütəxəssislərin böyük əksəriyyəti pintaderlərin üç əsas funksiya yerinə yetirdiklərini yazır:

- əşyalar, mallar və xüsusi mülkiyyət üzərində toxunulmazlıq statusunu təsdiq edən predmet;
- qida məhsullarını markerlənmək üçün istifadə olunan predmet;
- dini-mistik rituallar zamanı istifadə olunan predmet.

Pintaderlərin fərqləndirici nişan kimi yaşayış evlərinin daxili və xarici divarlarına basma qəlib kimi istifadə olunduqları haqqında fikirlər də mövcuddur [2, 176-177]. Bir çox tədqiqatçılar onların dəri, keramika, çörək üzərində naxış, fərdi nişan, bəzəmək məqsədilə basıldığını qeyd edirlər. Lakin bir çox yerli tədqiqatçılar, xüsusilə etnoqraflar pintaderlərdən yalnız basmaqəlib kimi istifadə olunduğunu qeyd edirlər [33, 125; 37, 86]. Türkiyə arxeoloji ədəbiyyatında da pintaderlər "çeç/çiç" adlanan damğa möhürlərlə qarışdırılır. Türk müəlliflərinin fikrincə qədim dövrlərdə pintaderlərlə istənilən yerlər damğalanarkən, gil möhürlər yalnız əkin və digər kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulurdu [38, 232]. Rusdilli ədəbiyyatda gil möhür və pintaderlər bəzən yanaşı işlədilir *(глиняные штампы, печати-пинтадеры)*. Çox az hallarda *"штамп", "печат"* anlayışları pintaderlərdən fərqləndirilir və pintaderlərin daha konkret mahiyyət daşıdıqları qeyd olunur. Əksər Avropa mənşəli arxeoloji ədəbiyyatlarda isə gil möhür və pintaderlər yanaşı, bəzən eyni ad altında *clay stamps (pintaderas)* və yaxud *clay seals (pintaderas)* tədqiq edilir.

N.İ.Şişlina Kalmıkiyada 14№-li Mancikin kurqanından tapılmış pintader haqqında maraqlı mülahizə irəli sürmüşdür. Tədqiqatçı yazır ki,

bütün Qafqaz ərazisindən tapılan pintaderlər üzərindəki təsvirlərin mənsub olduqları yaşayış yerləri və qəbir abidələrindəki keramika üzərində təsvirlərlə heç bir oxşarı və ya bənzəri aşkar edilməmişdir [28, 141]. Yalnız Mancikin kurqanından tapılan pintader istisnalıq təşkil edir. Bir gil qab fraqmenti olmasını qeyri-əminliklə qeyd edən müəllifə görə keramika və pintaderin işlək səthi üzərində təsvirlər eynidir [28, 141]. Tunc dövrünə aid Balkan keramikası üzərində həmin keramikaların aid olduğu yaşayış yerlərindən tapılan pintaderlər üzərindəki təsvirlərin eyni olmasını J.Makkay və İ.V.Bruyako da qeyd etmişdir [26, 94; 27, 39-49]. İran və Orta Asiyadan tapılmış tunc dövrü keramikası üzərində gil möhür və pintaderlərin təsvirlərinin eyniləri və bənzərləri vardır [12, 29]. Lakin heç bir tədqiqatçı gil möhür və pintaderlərdən məhz gil qabların naxışlanması üçün basmaqəlib kimi istifadə olunması mülahizəsini irəli sürməmişdir.

Pintaderləri gil relyef möhürləri hesab edən Amerika arxeoloqları qeyd edirlər ki, hətta Meksika və Kolumbiya ərazisində yaşamış qədim hindular öz bədənlərinə pintaderlərlə təsvirlər həkk edirdilər.

**Nəticə.** Gil möhürlərin və pintaderlərin xüsusi mülkiyyət nişanı olması, tayfa, patriarxal ailə daxilindəki müəyyən söz sahiblərinə, nüfuzlu şəxslərə aid olması fikri üzərində dayanmaq məntiqli görünsə də, Sarvantəpədən və Sarıtəpədən belə pintaderlərin çox sayda tapılması onlardan yalnız bu məqsədlə istifadə edilməsi fikrinə şübhə yaradır. Məsələyə bu məntiqlə yanaşsaq o zaman adı çəkilən və yalnız 300 $m^2$-lik hissəsi qazılmış hər iki yaşayış yerindən bu qədər gil möhürün və pintaderin tapılması onu göstərməlidir ki, yaşayış yerinin sakinləri arasında bu qədər xüsusi mülkiyyətçi və imtiyazlı şəxs olmuşdur. Lakin bu qeyri-mümkündür.

Bəzi tədqiqatçıların gil möhürlərin və pintaderlərin çörək və çörək məhsullarının naxışlanması üçün istifadə olunması funksiyası haqqında fikirləri də birmənalı qəbul edilməməlidir. Yenə də Sarvantəpə və Sarıtəpənin timsalında qeyd edə bilərik ki, bu qədər çörək bəzəmə, naxışlama predmetinin olması həddindən artıq çoxdur. Statistik hesablamalarımıza əsasən, hətta hər iki yaşayış yerindən tapılan dən daşlarının sayı çörək bəzəmək üçün düzəldilməsi ehtimal olunan gil möhür və pintaderlərlə tərs mütənasiblik təşkil edir. Çörəyin naxışlanmasında istifadələri istisna olunmasa da yenə də bu, gil möhür və pintaderlərin tək funksiya sahəsi olmamışdır.

Gön-dəri, yun parça, həsir üzərinin naxışlanması, keramika üzərinə basma naxış vurulması fikirləri isə ümumiyyətlə, mümkünsüz görünür. Belə ki, yaşayış yerlərində gön-dəri, yun parça və həsir məmulatının bu qədər fərqli möhürlər və ya pintaderlərlə möhürlənməsi, naxışlanması düzgün fikir kimi səslənmir və yaxud bunun hansı məqsədlə edilməsi belə məntiqli görünmür. Dünyanın müxtəlif yerlərində keramika üzərində gil möhür və pintaderlər üzərindəki təsvirlərin oxşarı, hətta eynisi aşkar olunsa da, ke-

ramika üzərində gil möhür və ya pintaderlə basmaqəlib kimi keramika üzərinə naxış vurma izləri aşkar edilməmişdir.

Fikrimizcə gil möhür və pintaderlər təkfunksiyalı olmamışdır [37, 85-87].

Eyni sinfə aid olsalar da, gil möhürlər forma, məzmun, ölçü baxımından pintaderlərdən ayrılır və seçilir. Qazıntılar zamanı daha çox aşkar edilən gil möhürlər pintaderlərdən ölçü və formasına görə kiçik olsa da üzərindəki təsvir motivləri baxımından daha zəngindirlər. Ən çox svastika təsvirli pintaderlər isə həcmcə böyük olmaqla daha konkret anlam kəsb etmişdir. Lakin gil möhürlərin və pintaderlərin funksiyası, işlədilmə məqsədləri bəzi məqamlarda eyniləşir. Bu funksiyaları aşağıdakı kimi qruplaşdıra bilərik:

- xüsusi mülkiyyət və imtiyazlı şəxslərin sahiblik göstəricisi;
- təyinatlı məhsulların (satlıq, mübadilə, pay və s.) saxlanma yerlərinin möhürlənməsi məqsədilə;
- həmin məhsulların özünün möhürlənməsi;
- patriarxal ailələrdə ev sahibinin şəxsi imza göstəricisi;
- özünütəsdiqin ifadə edilməsi;
- dini ayinlərdə, ibadət və rituallar zamanı istifadə edilən predmet.

Fikrimizcə, gil möhürlərin və pintaderlərin dini ayin və mərasimlərdə istifadə olunması, ritual predmet kimi istifadəsi fikri üzərində daha çox dayanmaq doğru olardı. Xüsusilə üzərində svastika təsviri olan möhür və pintaderlər sırf dini məzmun kəsb edir. Möhürlərə nisbətdə daha çox ziqzaq, labirint, bəzən isə qarışıq svastika təsvirləri həkk olunan pintaderlər üzərində kanallar daha dərin açılmışdır. Svastika təsviri Günəş rəmzinin ifadəsi olub qarışıq, ziqzaqlı, labirintli formalarda, dairəvi fırlanan spiral və ona əks simmetrik olan spiral formasında çərtmə, cızma və basma naxışlar formasında verilir [37, 87]. Svastika dünyanın bir çox qədim xalqlarında hərəkət, həyat, Günəş, istilik, işıq, dünya anlamlarını ifadə edir. İnduizm, buddizm, caynizm, odinizmdə müqəddəs simvol sayılan bu qədim və arxaik işarə əsasən Günəşin rəmzi, ilin dörd fəsli mənalarını daha çox ifadə edir [14, 13-76].

Baba Dərvişdən tapılan gil pintaderlər üzərindəki od, Günəş rəmzi sayılan svastika simvolunun mürəkkəb nümunələrinə oradan aşkar edilmiş dördkünc tikilinin divarlarında da rast gəlinir ki, bu da tunc dövrü tayfalarının dini-ideoloji görüşlərində Günəş rəmzinin əsas yer tutmasının göstəricisidir [32, 106-107]. Pintaderlər üzərindəki qarışıq və ziqzaqlı svastika təsvirlərinə Sarıtəpədə tədqiq olunmuş məbədin divarında və yarımqazmaya aid gil suvaq parçalarının üzərində də təsadüf edilmişdir [33].

Beləliklə, gil möhürlər və pintaderlər bütövlükdə Xocalı-Gədəbəy mədəniyyətinin daşıyıcıları olan tayfaların cəmiyyət həyatı, ictimai və sosial yaşam tərzi, dini dünyagörüşü və inamları, qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələri barədə tutarlı mənbə rolunu oynayırlar. Son tunc-erkən dəmir dövrü tayfalarının istifadə etdikləri gil möhürlər və pintaderlər dövrünə görə

yüksək inkişaf etmiş ictimai-iqtisadi münasibətlərin və həmin sakinlərin zəngin mənəvi aləmə malik olmalarının göstəricisidir.

**ƏDƏBİYYAT**


1. Pittman H. Cylinder Seals and Scarabs in the Ancient near East, Civilization of the Ancient Near East. - New York, - 1995, - s. 1591.
2. Özdemir B., Kortanoglu M.S. Haluk Perk Muzesi'nden bir grup damga mührün degerlendirilmesi // Trakya Üniversitesi Edebiyat Fakültesi Dergisi, - cilt 10, - sayı 20, - temmuz 2020, - s. 173-203.
3. Большаков А.М. Вспомагательные иторические дисциплины. - Лениниград, - 1942, - с. 130-142.
4. Qazıyev S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957-ci il) // AMM, IV cild. - Bakı, - 1962, - s. 140-170.
5. Dinçol A. Hitit Mühürcülüğü, Eczacıbaşı Sanat Ansiklopedisi, cilt II. - İstanbul, - 1997, - s. 1316.
6. Collon D. Interpreting the Past Near Eastern Seals. - London, - University of California Press, - 1990, - s. 14.
7. Duistermaat K. Which Came First, the Bureaucrat or the Seal? Some thought, on the Non-Administrative Origins of Seals in Neolitic Syria, Seals and Sealing Practices in the Near East, Orientalia Lovaniensia Analecta. - Leusen-Paris, - Walpole-Ma, - 2012, - s. 4.
8. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. - Bakı, - Elm və təhsil, - 2020, - 576 s.
9. Schmidt K. Taş Çağı Avcılarının Gizemli Kutsal Alanı Göbekli Tepe. En Eski Tapınağını Yapanlar. – İstanbul, - Arkeoloji ve Sanat Yayınları, - 2007, - s. 101.
10. Türkcan A.U. Çatalhöyük Damga Mühürleri / Çatalhöyük Stamp Seals, in: E.M. Haydaroğlu (ed.). Topraktan sonsuzluğa Çatalhöyük / From Earth to Eternity Çatalhöyük. - İstanbul, - Yapı Kredi Yayınları, - 2006, - s. 45-49.
11. Umurtak G.N. Some Observations on a Lead Stamp Seal from the Bademağacı Excavations // Anatolica. 2002, №28. - İstanbul, - s. 159-169.
12. Антонова Е.В. К проблеме функций печатей ранних земледельцев Востока // Советская археология, - № 4, - 1984.
13. Castiglioni C.O. Origini e distribuzione delle pintaderas prehistoriche "euro-asiatiche". Contribute alla conoscenza delle culture preistoriche Della valle Del Po. // Rivista di Sciene Preistoriche, - XI, - 1956, - p. 109-192.
14. Dzhanfezova T.Y. Pintaderas: problems, specifics and ways for treating the information. A database proposal // Aqvileia Nostra. Pubblicazione Annuale, Anno LXXIV - 2003, - p. 13-76.
15. Noveck M. The Mark of Ancient Man // Ancient Near Eastern Stamp Seals and Cylinder Seals: The Gorelick Collection, - The Brooklyn Museum, - 1975.
16. Jiménez, M. de la Cruz. Pintaderas de El Museo Canario // El Museo Canario. - Retrieved 17, - september 2013.
17. Cəlilov B.M. Göygöl-Goranboy arxeoloji ekspedisiyasının Goranboy rayonu ərazisində apardığı tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar 2011. - Bakı, - 2012, - s. 146-155.
18. Cəlilov B.M., Axundova N.Ə., Mirzoyeva T.Ə. Göygöl-Goranboy arxeoloji ekspedisiyasının 2013-2014-cü illərdə apardığı arxeoloji tədqiqatlara dair // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. - Bakı, - 2015, - s. 133-139.
19. Göyüşova T.N. 2015-2016-cı illərdə Gədəbəy arxeoloji ekspedisiyasının Gədəbəy rayonunda apardığı arxeoloji tədqiqatların yekunlarına dair // Azərbaycanda arxeoloji

tədqiqatlar 2015-2016. - Bakı, - 2017, - s. 170-176.
20. Mellaart J.J. Excavations at Çatal Hüyük, 1963, Third Preliminary Report // Anatolian Studies, - vol. 14, - 1964, - publ. by British Institute at Ankara, - p. 39-119.
21. Mellaart J.J. Excavations at Hacılar 1, British Institute at Ankara. - Edinburg University Press, - 1970, - 164 p.
22. 19. Renfrew C. Archaeology and Language, the Puzzle of Indo-European Origins. - New York, - Cambridge University Press, - 1987, - s. 351.
23. Krupnov E.I. Kaukasische "Pintaderas" // Mitteilungen der Anthropologischen Gesellcshaft in Wien. Bd., XCII, wien. - 1962, - p. 197-205.
24. Виноградов В.Б. Глиняный штамп с городища Алхан-Кала // Древности Чечено-Ингушетии (сб. ст.). (отв. ред. Е. И. Крупнов). - Москва, - Изд-во АН СССР, - 1963. - с. 212–216.
25. Крупнов Е.И. Археологические памятники верховьев реки Терек и бассейна реки Сунжи // Археологический сборник. Труды ГИМ. Вып. XVII / ред. А.Я. Брюсов. - Москва, - ГИМ, - 1948. - с. 5-55.
26. Makkay J. Early stamp seals in South-East Europe. Budapest. - Akademiai Kiado, - 1984
27. Бруяко И. В. Пинтадеры раннего железного века между Карпатами и Понтом // Stratum plus, - 2014, - №3, - с. 39-49.
28. Шишлина Н.И. Глиняные печати-штампы могильника Манджикины-1 в Калмыкии // РА, - №3, - 2004, - с. 136-143.
29. Müseyibli N.Ə. Azərbaycan arxeologiyası: uğurlar, problemlər, perspektivlər. - Bakı, - AFpoliqrAF, 2017, - 208 s.
30. Асланов Г.М. Об одной печати (деж), найденной в Мингечауре // ДАН Азерб. ССР. 1953, - том 9, - № 9. - с. 561-563.
31. Muradova F.M., Nərimanov İ.H. Yastıtəpə qədim yaşayış yeri haqqında // AMM, VII cild. - Bakı, - 1973, - s. 46-55.
32. Əliyev V.H. Babadərvişdə son tunc və ilk dəmir dövrü yaşayış yerləri // AMM, VIII cild. - Bakı, - 1976, - s. 104-130.
33. Нариманов И.Г. Глиняные штампы из Западного Азербайджана // МКА, том VII. - Баку, - 1973, - с. 114-130.
34. Azərbaycanda möhürlərin tarixindən (elmi red. N.M.Vəlixanlı). - Bakı, - 2020, - 20 s.
35. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. - Bakı, - Elm, - 2007, - 239 s.
36. Kaçmaz L.E. Diyarbakır Arkeoloji Müzesi Urartu damga mühürleri // Yüzüncü Yıl Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Yüksek Lisans Tezi. - Van, - 2006
37. Наджафов Ш.Н. Глиняные печати-пинтадеры из поселения Сарвантепе // Поволжская археология, - №1 (43), - 2023, - с. 76-91.
38. Tekin H. "Hakemi Use'den Bir "Pintadera", Samsat'tan Acemhöyük'e Eski Uygarlıkların İzinde Aliye Öztan'a Armağan (Ed. S.Özkan, H.Hüryılmaz, A.Türker). - İzmir, - Ege Üniversitesi Yayınları, - 2017, - s. 232

## ФУНКЦИИ И НАЗНАЧЕНИЕ ГЛИНЯНЫХ ПЕЧАТЕЙ И ПИНТАДЕРОВ ХОДЖАЛЫ-КЕДАБЕКСКОЙ КУЛЬТУРЫ
**(этноархеологическое исследование)**

**Шамиль Н. НАДЖАФОВ**

### РЕЗЮМЕ

Большое количество глиняных печатей и пинтадер обнаружено на памятниках поздне бронзового-ранне железного периода Азербайджана (II половина II тыс. до н.э.-начало I тыс. до н.э.). Эти артефакты, особенно характерные для поселений, дают детальное представление об искусстве изготовления печатей людьми в древности. Несмотря на то, что они классифицируются под одним и тем же названием, глиняные печати и пинтадеры, датируемые очень древними временами, отличаются друг от друга по форме, размеру и функциям.

Большинство глиняных печатей и пинтадер, принадлежащих ходжалы-кедабекской археологической культуре, обнаружены в основном на поселениях поздней бронзы-раннего железного века западного региона Азербайджана. Ближайшие аналоги глиняным печатям и пинтадерам ходжалы-кедабекской археологической культуры известны на территории Грузии, современной Армении, а также на Северном Кавказе и Анатолии. В целом по всей Евразии известны близкие аналоги ходжалы-кедабекским печатям и пинтадерам по форме, содержанию и сходству изображений на них.

Большинство круглых и прямоугольных печатей и пинтадер имеют серый и черный цвет, в составе содержат чистую глину, качественно изготовлены и обожжены при высокой температуре. На глиняных печатях и пинтадерах выгравированы различные узоры и изображения, главным образом свастики.

В археологической литературе существуют противоречивые мнения о назначении глиняных печатей и пинтадер.

В статье рассмотрены цель использования и предназначение глиняных печатей и пинтадер, характерных для ходжалы-кедабекской археологической культуры.

**Ключевые слова:** Азербайджан, бассейн средней Куры, ходжалы-кедабекская культура, эпоха бронзы, поселения, глиняные печати, пинтадеры.

## CLASSIFICATION AND FUNCTION OF CLAY SEALS AND PINTADEURS BELONGING TO THE KHOCALI-GEDABEY CULTURE
**(ethno-archaeological research)**

**Shamil N.NAJAFOV**

### SUMMARY

From various sites have been discovered numerous clay seals and pintaders dating back to the Late Bronze-Early Iron Age of Azerbaijan (second half of the 2nd millennium BC - early 1st millennium BC). These artifacts, particularly characteristic of residential areas, provide a detailed understanding of the ancient sealing craft.

Although clay seals and pintaders, whose origins trace back to ancient times, are classified under the same name, they differ in form, size, and function.

Most clay seals and pintaders belonging to the Khojaly-Gedabey archaeological culture have been found in Late Bronze-Early Iron Age residential sites in western region of Azerbaijan. The closest analogs of clay seals and pintaders of the Khojaly-Gedabey archaeological culture are known from Georgia, present-day Armenia, the North Caucasus, and Anatolia. In general, similar forms, contents, and designs on the Khojaly-Gedabey seals and pintaders can be found throughout the Eurasian area.

Most of the round and rectangular seals and pintaders, made of pure clay, well-made, and fired at stable temperatures, are grey and black. Various patterns and designs, mainly swastikas, were engraved on the clay seals and pintaders. There are conflicting opinions in archaeological literature about the purposes for which clay seals and pintaders were used.

The article discusses the designation and purposes for use of clay seals and pintaders considered characteristic of the Khojaly-Gedabey archaeological culture.

**Keywords:** Azerbaijan, Middle Kura Basin, Khojaly-Gedabey culture, Bronze Age, residential site, clay seals, pintaders.

UOT 94 (479.24)

# MÜASİR RUSİYA TARİXŞÜNASLIĞINDA AZƏRBAYCAN AĞQOYUNLU VƏ SƏFƏVİ DÖVLƏTLƏRİNİN AVROPA ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK ƏLAQƏLƏRİNİN ARAŞDIRILMASINA DAİR

**Sevinc Ə.ZEYNALOVA***

*Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə diplomatik əlaqələri müasir Rusiya tarixşünaslığında aktual mövzulardan biri olaraq qəbul edilir. Bu mövzunun təməl məsələləri hələ keçən əsrin 20-ci illərindən etibarən araşdırılmağa başlanmış və 1980-ci illərin sonlarına qədər xeyli sayda fundamental əsərlər ortaya çıxmışdır. Rusiya (sovet) tarixçilərinin bu mövzu ilə bağlı əsərlərinin ortaq tərəfi – Ağqoyunlu və Səfəvi dövlətlərinin ümumilikdə diplomatik əlaqələrinin deyil, daha çox antiosman cəbhəsində fəaliyyətinin araşdırılmasıdır. Həmin əsərlərin ikinci bir özəlliyi – mənbəşünaslıq bazasının zəngin olmasıdır.*

*SSRİ-nin dağılması ilə Rusiya tarixşünaslığında bəzi böhranlar yaşansa da, adı çəkilən mövzunun araşdırılması davam etdirilmişdir. Əvvəlki dövrlə müqayisədə XX əsrin sonu – XXI əsrin ilk onilliklərində yazılan əsərlərdə mənbəşünaslıq bazası xeyli zəifləmiş, bunun əvəzində mövzu daha çox qurğulaşdırılmış aspektdən araşdırılmışdır.*

**Açar sözlər:** Rusiya tarixşünaslığı, Ağqoyunlular, Səfəvilər, Azərbaycan, Avropa, diplomatiya

**Giriş.** Azərbaycanın orta əsr dövlətlərinin tarixi müasir tarixşünaslıqda aktual və kifayət qədər geniş araşdırılan mövzulardandır. İstər Vətən, istərsə də xarici tarixşünaslıqda İslam öncəsi Azərbaycan dövlətlərinin tarixi, Xilafətin tərkibində Azərbaycanın siyasi inkişaf xüsusiyyətləri, IX-XI əsrlərdə Azərbaycanın müstəqil və yarımmüstəqil dövlətlərinin quruluş və inkişafı, səlcuqlu və monqol hakimiyyəti dövrü ölkənin siyasi və hərbi tarixi bu mövzuların içərisində xüsusi yer tutur. Eyni zamanda Azərbaycanın milli dövlətçilik tarixinin əhəmiyyətli səhifələrini təşkil edən Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi ilə bağlı məsələlər də tarixçilər üçün aktual məsələlər olub, keçən əsrin ortalarından başlayaraq Rusiya tarixşünaslığında da geniş şəkildə araşdırılmağa başlanmışdır.

Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlə-

* ***Bakı Dövlət Universitetinin Tarix fakültəsinin baş müəllimi; sevinc_zeynalova@hotmail.com; ORCİD: 0009-0009-3094-8728***

rinin istər siyasi, istərsə də sosial və iqtisadi tarix məsələlərinə yer ayrılmış, böyük sayda mənbə materialları əsasında bu dövlətlərin yüksəliş dövründə diplomatik əlaqələri də araşdırılmışdır. Müasir Rusiya tarixşünaslığında bu məsələlərin araşdırılma dərəcəsini aşağıdakı kimi təsnifləndirə bilərik: Azərbaycan dövlətlərinin xarici siyasət tarixini beynəlxalq münasibətlərin tərkib hissəsi olaraq araşdıran tədqiqatlar; müsəlman Şərqinin siyasi tarixinin tərkibində bu məsələləri araşdıran tədqiqatlar; birbaşa Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixinin tədqiqat obyekti olaraq seçildiyi tədqiqatlar. Qeyd edək ki, ilk iki qrup əsərlər say etibarilə üçüncüsündən daha üstün olub, son iki onillikdə aparılan araşdırmalar üçün daha səciyyəvidir.

Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələrinin tədqiqinin digər bir xüsusiyyəti isə həmin dövlətlərin İran tarixinin tərkibində öyrənilməsi ilə bağlıdır. Rusiya tarixçilərinin böyük əksəriyyəti Ağqoyunlu və Səfəvi dövlətlərinin türk mənşəyini inkar etməsə də, bu dövlətləri Azərbaycan dövlətləri olaraq görmədiklərindən, bir çox hallarda onların Avropa ölkələri ilə diplomatik əlaqələrinə də İran – Avropa əlaqələri konteksində yanaşılmışdır.

Adı çəkilən problemlə bağlı Rusiya tarixşünaslığının üçüncü bir xüsusiyyəti isə – Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasət xəttinin və diplomatiyasının Avropa ölkələri ilə müqayisədə geri qaldığı ilə bağlı qərəzli fikirlərdən ibarətdir. Müvafiq bölmələrdə də baxacağımız kimi, Ağqoyunlu və Səfəvi dövlətlərinin görkəmli dövlət xadimləri və diplomatlarının fəaliyyəti Rusiya tarixşünaslığında çox zəif işıqlandırılmış olub, daha çox Avropa dövlətlərinin antiosman siyasətinin tərkib hissəsi olaraq baxılmışdır.

Bütün qüsurlu tərəflərinə baxmayaraq, müasir Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələrinin öyrənilməsi istiqamətində geniş araşdırmalar aparılmış olub, bu əsərlər qeyd edilən problemlə bağlı tarixşünaslığı zənginləşdirmişdir.

**Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin siyasi tarixinin araşdırılmasının təməli (1920-1980-ci illər).** Rusiya tarixşünaslığında XV-XVI əsrlərdə Azərbaycanın diplomatik əlaqələrinin tarixinin araşdırılmasına daha keçən əsrin 20-ci illərində başlanmışdır, bu səbəbdən də, Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə diplomatik əlaqələrinin araşdırılmasının təməl məsələləri də həmin dövrdə müəyyən edilmişdir. Müasir dövrdə Avropa qaynaqlarının elmi dövriyyəyə buraxılması ilə əlaqədar bu əsərlərin bir qismi elmi dəyərini itirsə də, yuxarıda da qeyd edildiyi kimi, problemin təməlini qoyduğu üçün bəzilərini qeyd etməyi məqsədəuyğun gördük. Bunlar ilk növbədə, XX əsrin birinci yarısında çalışmış V.V.Bartoldun və İ.P.Petruşevskinin əsərləridir.

Akademik V.V.Bartold "İranın tarixi-coğrafi icmalı", "Azərbaycan tarixinin qısa icmalı", "Xəzəryanı vilayətlərin müsəlman dünyasının tarixində

rolu" və d. əsərlərində Ağqoyunlu və Səfəvi dövlətlərini mənşə etibarilə İran dövlətləri olaraq təqdim edərək [1, 119], bu dövlətlərin xarici siyasət məsələlərinə epizodik də olsa, yer ayırmışdır [11-13]. Səfəvi dövlətinin mənşəyi məsələsi V.V.Bartoldun əsərlərində birinci dərəcəli məsələ olmasa da, sülalənin türk mənşəli olması tarixçi tərəfindən etiraf edilmişdir. Bununla yanaşı, akademik bu mənsubiyyətin Səfəvi-Osmanlı münasibətlərində hər hansı bir əhəmiyyət daşımadığını göstərmişdir [1, 117]. Yuxarıda da qeyd etdiyimiz kimi, Avropa qaynaqlarının, ələlxüsus XV-XVI əsrlərə aid italyan dilində diplomatik əsərlərin bu dövrdə elmi dövriyyəyə buraxılmaması səbəbilə, V.V.Bartoldun əsərlərində Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı dövləti ilə müqayisədə, Avropa ölkələri ilə əlaqələrinin geniş tədqiqinə rast gəlinmir. Bununla yanaşı, həmin əsərlərdə İran körfəzi uğrunda Avropa dövlətlərinin mübarizəsinə və bu mübarizədə Azərbaycan dövlətlərinin (V.V.Bartoldda – İran) yeri məsələlərinə yer ayrılmışdır [ətraflı bax: 5, 225-228]. Akademikin Azərbaycan tarixi ilə bağlı əsərlərini geniş bir şəkildə araşdıran R.Ş.Şahbazovanın da qeyd etdiyi kimi, Ağqoyunlu dövləti ilə müqayisədə Səfəvi dövlətinin tarixinə daha geniş yer ayıran V.V.Bartold Səfəvi hökmdarları içərisində I Abbasın xarici siyasətinin araşdırılmasına xüsusi diqqət yetirmişdir [6, 82].

V.V.Bartolddan sonra Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixinə yer ayıran digər rus müəllif – İ.P.Petruşevskidir. Onun 1949-cu ildə nəşr etdirdiyi "XVI-XIX əsrin əvvəllərində Azərbaycanda və Ermənistanda feodal münasibətlərinin tarixi üzrə oçerklər" adlı əsərinin ikinci fəslində XV əsrdə Azərbaycandakı ümumi vəziyyət, qızılbaş hərəkatının mahiyyəti və Səfəvi dövlətinin quruluş dövrü, Səfəvi dövlətində feodal münasibətləri kimi məsələlər yer almışdır. Adından da göründüyü kimi, əsərdə müəllif daha çox sosial və iqtisadi tarix məsələlərini, dəqiq desək, feodal münasibətlərinin təkamülü məsələsini mövzu obyekti olaraq seçdiyi üçün, xarici siyasətə geniş yer ayırmamışdır. Bununla yanaşı, rus tarixçiləri içərisində ilk dəfə məhz İ.P.Petruşevskinin əsərində Səfəvi dövlətinin türk mənşəyi ilə bağlı israrçı nöqteyi-nəzərini müşahidə etmək olar. Müəllif əsərində yazır: "*Səfəvi dövlətinin əsas dayağı ümumi qızılbaş adını almış türk köçəri tayfaları idi ... onlar müxtəlif mənşəli olub, bir qismi Kiçik Asiya (oğuz), bir qismi isə Orta Asiya mənşəli idi*" [35, 68]. Qızılbaşların Azərbaycan dilində danışdığını vurğulayan müəllif Səfəvi dövlətinin "türkdilli Azərbaycan tayfalarının – qızılbaşların cəhdləri ilə qurulduğunu" qeyd edir [35, 69].

Məqaləmizin mövzu obyekti olmasa da, İ.P.Petruşevskinin Səfəvi dövlətinin mənşəyi ilə bağlı fikirlərinə aydınlıq gətirmək istərdik: ilk baxışda bir rus (sovet) müəllifinin Azərbaycan Səfəvi dövlətini türk mənşəli olaraq göstərməsi təəccüblü görünə bilər, lakin belə bir məqama diqqəti çəkmək istərdik ki, adı çəkilən kitab 1949-cu ildə nəşr edilmişdir, İkinci

Dünya müharibəsi (sovet təbirilə Böyük Vətən müharibəsi) yeni bitmişdi və dünyanın böyük bir hissəsində sovet ideologiyası faşist ideologiyası üzərində qalib gəlmişdi. Faşistlərin və nasistlərin "ariçilik" nəzəriyyəsinə böyük zərbə vurulmuşdu və bu səbəbdən də, bəzi faşist tarixçilərin Səfəvi dövlətini "ari irqi"nə mənsub farslar tərəfindən qurulması fikirləri də sovet tarixçiləri tərəfindən, idelogiyanın tələb etdiyi kimi, rədd edilməli idi. Başqa sözlə desək, İ.P.Petruşevskinin Səfəvi dövlətini türk dövləti olaraq təqdim etməsi rus (sovet) tarixşünaslığının bir lütfü və ya obyektivliyinin nəticəsi deyildi, antifaşist ideologiya gərəyi irəli sürülmüş fikrə bağlı idi.*

1950-ci illərin sonlarına doğru sovet tarixşünaslığında Azərbaycan tarixinin bir çox məsələləri, o cümlədən Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi ilə bağlı araşdırmalar daha kompleks şəkil aldı və bu dövlətlərin xarici siyasət məsələləri də artıq epizodik deyil, geniş bir şəkildə tədqiq edilməyə başlandı. Əlbəttə, bu istiqamətdə rus tarixçiləri ilə müqayisədə Azərbaycan tarixçilərinin xidmətləri daha böyük oldu, o cümlədən akademik Y.M.Mahmudov bu istiqamətdə böyük bir elmi məktəbin əsasını qoydu [3, 75-79].

Bu dövrdə mövzu ilə bağlı xeyli sayda qaynağın elmi dövriyyəyə daxil edilməsi ilə tədqiqatlar geniş miqyas almış oldu. Birbaşa Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasət məsələləri olmasa da, XV-XVI əsrlərin beynəlxalq münasibətlərinə həsr edilmiş əsərlərdə rus müəllifləri tərəfindən Avropa-Osmanlı münasibətlərində Azərbaycanın yeri, İran körfəzi uğrunda mübarizə, Rusiya-Azərbaycan münasibətləri tədqiq edilmiş oldu. Bu tədqiqatların içərisində ümumiləşdirici əsərlərlə yanaşı, monoqrafiyalar da xüsusi yer almağa başladı. Ümumiləşdirici əsərlər daha çox dərslik səciyyəsi daşısa da, içərisində orta əsrlər diplomatiya tarixinin önəmli məsələlərinin yer aldığı əsərlərə də rast gəlmək mümkündür. Onların içərisində ilk növbədə "İran tarixi", "Diplomatiya tarixi", "Şərq ölkələrinin orta əsrlər tarixi" və "Asiya ölkələrinin orta əsrlər tarixi" kimi dərslikləri göstərmək olar [19; 22; 24; 25].

XV-XVI əsrlər Avropa diplomatiyasını araşdıran tarixçilərin əsərlərində Ağqoyunlu və Səfəvi dövlətlərinin diplomatiyasına da kifayət qədər yer verilmişdir. Məsələn, Y.Y.İvoninin "Yeni dövrdə Avropa diplomatiyasının təməlləri" və N.N.Tumanoviçin "XVI-XIX əsrlərdə Avropa dövlətləri İran körfəzində" adlı monoqrafiyalarında [20; 39] Böyük Coğrafi kəşflərin başlanması ilə Avropa dövlətlərinin müstəmləkəçi siyasəti məsələləri araşdırılarkən, Azərbaycan dövlətlərinin, ələlxüsus Səfəvilərin Avropa ölkələri ilə əlaqələri də mövzunun çərçivəsinə daxil edilmişdir. Yenə bu istiqamətdə aparılan tədqiqatlar içərisində S.P.Karpovun "Trabzon imperiyası və Qərbi

---

* Azərbaycan türklərinin Qafqazda və Anadoluda türk amilinin güclənməsində rolu haqqında daha geniş bax:, 2, s.189-209.

Avropa dövlətləri XIII-XV əsrlərdə" adlı monoqrafiyasını xüsusi qeyd etmək lazımdır [27]. Əsərdə Konstantinopolun xaçlılar tərəfindən işğalından sonra (1204) Kiçik Asiyada yaşanan siyasi və hərbi hadisələr, Trabzon imperiyasının qurulması və bu yunan dövlətinin xarici siyasət məsələləri araşdırılarkən, Ağqoyunlularla Trabzon imperiyası arasındakı əlaqələrə də geniş yer verilmişdir.

P.P.Buşevin "Rusiya və İran dövlətlərinin səfirliklər və diplomatik münasibətlər tarixi" adlı iki cildlik əsəri [16-17] zəngin mənbəşünaslıq bazasına malik əsər olub, Azərbaycan Səfəvilər dövlətinin diplomatik əlaqələrinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. İ.B.Qrekovun "XV-XVI əsrlərdə Şərqi Avropada beynəlxalq münasibətlər" adlı monoqrafiyası [18] və A.P.Novoselsevin "XVI əsrin ikinci yarısında Rusiya-İran siyasi münasibətləri" adlı məqaləsi də bu qəbildən olan əsərlərdəndir [33].

Beləliklə, 1950-1980-ci illərdə rus (sovet) tarixçiləri tərəfindən aparılan araşdırmalar Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasəti və diplomatiyası tarixinin tədqiqinin təməlini qoymuşdur.

**XX əsrin sonu – XXI əsrin ilk rübündə Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasəti və diplomatiyası tarixinin öyrənilməsi səviyyəsi.** SSRİ-nin dağılması və sosialist sistemin çökməsi ilə dünyada baş verən kardinal dəyişikliklər, əlbəttə, ictimai elm sahəsi olan tarix elmindən də yan keçə bilməzdi. Onilliklər içərisində təşəkkül etmiş sovet tarix elmi 1980-ci illərin sonuna doğru böyük bir böhranın içərisinə girmiş oldu. Bu böhran Rusiya tarixşünaslığında ilk növbədə metodoloji yetərsizlikdə, ikinci növbədə isə – mənbəşünaslıq bazasının zəifləməsində özünü daha açıq şəkildə bildirdi. Qeyd edək ki, orta əsrlər tarixini araşdıran sovet tarixçilərinin ən üstün məziyyəti – tədqiqatlarını böyük sayda qaynaqlara əsaslanaraq aparmaları idi. Lakin XX əsrin sonlarında bu istiqamətdə Rusiya tarixşünaslığı əvvəlki ənənələrindən məhrum olaraq, tədqiqatlar da daha çox qurğulaşdırılmış istiqamətdə aparılmağa başlandı. Bu mərhələdə ortaya çıxan tədqiqatların içərisində Səfəvi dövlətinin Rusiya ilə əlaqələrinə daha böyük diqqət verilməyə başlamışdır.

Son onilliklərdə Rusiya tarixşünaslığında Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi, o cümlədən diplomatik əlaqələri ilə bağlı əsərlərin hamısını bir məqalə çərçivəsində nəzərdən keçirmək mümkün olmadığı üçün, onların ümumi səciyyəsini verməyə çalışacağıq. Birincisi, bu tədqiqatlar daha çox Ağqoyunlu və Səfəvi dövlətlərinin regional siyasətdəki yeri ilə əlaqəlidir, yəni bu dövlətlərin konkret xarici siyasət məsələləri müasir Rusiya tarixşünaslığında ayrıca elmi problem olaraq araşdırılmamışdır. Bu tip əsərlərə A.M.Xazanovun monoqrafiya və məqaləsini, S.P.Karpovun monoqrafiyasını [42; 26] aid etmək olar. Adı çəkilən əsərlərdə Azərbaycan dövlətlərinin xarici siyasət məsələləri daha çox böyük dövlətlərin müstəmləkələr

uğrunda mübarizəsi çərçivəsində baxılmışdır.

İkincisi, Ağqoyunlu və Səfəvi dövlətləri müasir rus tarixçiləri tərəfindən yenə də ənənəyə uyğun olaraq İran dövləti olaraq baxılmaqdadır və bəzi müəlliflərin əsərlərində bu dövlətlərin diplomatiyası İranın xarici siyasət tarixi məsələsi olaraq baxılmaqdadır [məsələn, bax: 8; 29] və Rusiya dövlətinin İranla (oxu: Səfəvilərlə) əlaqələri tarixinə böyük yer verilməyə başlamışdır. Ələlxüsus Qafqaz və Xəzəryanı bölgələr uğrunda Moskva dövlətinin İngiltərə ilə mübarizəsi və Səfəvilərin bu mübarizədə yeri məsələləri aktual olub, A.V.Byazrov, B.Q.Koybayev və T.K.Korayevin məqalələrində araşdırılır [15; 28]. Bununla əlaqədar bir məqamı da vurğulamaq istərdik ki, son illərdə Dağıstan tarixçilərinin tədqiqatlarında İran hakimiyyətinə qarşı, ələlxüsus Səfəvilərin son dövründə baş verən üsyanların tarixinə də böyük yer ayrılmağa başlanmışdır [8; 9; 30; 36 və s.].

Mövzu ilə bağlı müasir Rusiya tarixşünaslığının diqqət çəkən üçüncü xüsusiyyəti – Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixinə aid mənbələrin rus dilinə tərcüməsi ilə bağlıdır. Onların içərisində Məhəmməd Məsum İsfahaninin "Xülasət əs-siyar" adlı əsərinin İ.K.Pavlova tərəfindən fars dilindən rus dilinə tərcüməsini [34], Xınalıqlı Mahmudun əsərinin A.P.Şıxsəidov tərəfindən ərəb dilindən rus dilinə tərcüməsini [31] qeyd etmək olar.

Bəhs etdiyimiz dövrdə Rusiya tarixşünaslığında ortaya çıxan əsərlərin bir başqa xüsusiyyəti isə – mövzuya ümumiləşdirici əsərlərdə də yer verilməsidir. Onların böyük əksəriyyəti Asiya və Afrika ölkələrinin tarixi, eləcə də Dağıstan tarixi üzrə kitablardır [9; 14; 38; 31; 23]. Son illərdə Rusiya tarixşünaslığında sovet dövrü rus tarixçilərinin, eləcə də xarici şərqşünasların əsərlərinin rus dilində nəşri də geniş yayılmışdır [məsələn, 13; 32; 40]. Bu, bir tərəfdən, sovet dövründən qalma ideoloji baryerin tarix ədəbiyyatında ortadan qaldırılması anlamına gəlsə də, digər tərəfdən, bu sahədə müasir Rusiya tarixşünaslığının yetərsiz qaldığı faktını da göstərir.

Müasir Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi İran tarixinin tərkibində öyrənildiyi üçün, hazırda bu istiqamətdə tədqiqatların ən böyük mərkəzi Rusiya EA Şərqşünaslıq İnstitutunun "İran sektoru"dur [37]. Daha çox müasir İran tarixi məsələlərinə üstünlük verilsə də, sektorun tədqiqatları içərisində İranın orta əsrlər tarixi, o cümlədən Ağqoyunlu və Səfəvi dövrləri də yer almaqdadır. Eyni zamanda, əvvəldə də qeyd etdiyimiz kimi, bu məsələlər, ələlxüsus Azərbaycan dövlətlərinin regional siyasəti məsələləri Dağıstanın tarixini araşdıran mərkəzlərdə də təktərəfli, lakin intensiv şəkildə araşdırılmaqdadır.

**Nəticə.** Məqalənin həcmi nəzərə alınaraq, qısa icmalını gözdən keçirdiyimiz tarixi ədəbiyyat müasir Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə diplomatik əlaqələri tarixinin öyrənilmə dərəcəsini müəyyən etməyə və mövzu ilə bağlı bəzi yekun

müddəaları irəli sürməyə imkan verir.

Əvvəla, Rusiya tarixşünaslığında bəhs edilən problemlə bağlı tədqiqatlar geniş spektrli və kifayət qədər zəngin mənbə bazasına əsaslanır. Bu tədqiqatlarda Azərbaycan dövlətlərinin xarici siyasi və iqtisadi əlaqələri istər Avropa və rus, istərsə də fars dilində olan qaynaqlardan geniş istifadə edilməklə araşdırılmışdır. İkincisi, sovet dövrü ilə müqayisədə müasir Rusiya tarixşünaslığında Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixi, o cümlədən diplomatiyası daha çox Moskva dövlətinin xarici siyasəti çərçivəsində və coğrafi olaraq da daha çox Qafqaz və Xəzəryanı bölgələrlə məhdudlaşdırılmışdır. Bu ədəbiyyatın ümumi bir xüsusiyyəti – ümumiləşdirici əsərlər də daxil, mövzu ilə bağlı tədqiqatlarda Ağqoyunlu və Səfəvi dövlətlərinin Azərbaycan deyil, İran siyasi və dövlətçilik ənənələri içərisində öyrənilmiş olmasıdır. Diqqət çəkən digər bir məqam isə son illərdə rus tarixçilərini tarixi hadisələri, o cümlədən Azərbaycan dövlətlərinin xarici siyasətini qurğu üzərindən tədqiq etmələridir ki, bu da sadəcə Rusiya tarixşünaslığına deyil, ümumilikdə dünya tarixşünaslığına xas bir cəhət olaraq görülməlidir.

Bütün qüsurlu, bəzi hallarda isə qərəzli nöqteyi-nəzərlərin olmasına baxmayaraq, müasir Rusiya tarixçiləri tərəfindən Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasəti ilə əlaqədar aparılan tədqiqatlar mövzunun tarixşünaslığının zənginləşməsi nöqteyi-nəzərindən əhəmiyyətli olub, fərqli elmi baxışların müqayisəsi üçün də zəruridir.

## ƏDƏBİYYAT


1. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərb. dilinə cev. akademik Z.M.Bünyadov və E.R.Ağayeva. – Bakı: Elm, – 1999. – 160 s.
2. Çağlayan Y., Çağlayan E. XV əsrdə Şərqi Anadoluda Azərbaycan Türk amilinin güclənməsi // – Akademik Tarih ve Düşünce Dergisi, – 2019. № 6 (5). – s.189-209.
3. Gözəlova Y.H. Tarix elmində Yaqub Mahmudov məktəbi. – Bakı: Təhsil, – 2013. – 648 s.
4. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. – Bakı: Təhsil, – 2006. – 416 s.
5. Şahbazova R.Ş. V.V.Barthold'un araştırmalarında Azerbaycan'ın XVI-XVII. yüzyıllardaki ekonomi ve kültür tarihi meseleleri // – TURAN-SAM Uluslararası Bilimsel Hakemli Dergisi, – 2023, Haziran, Cilt 15 / İlkbahar, Sayı 58. – s.223-230.
6. Şahbazova R.Ş. Səfəvi dövlətinin xarici siyasət məsələləri V.V.Bartoldun tədqiqatlarında / Dünya azərbaycanlıları: Tarix və müasirlik. III Beynəlxalq elmi konfransın xülasələri. – Bakı: Turxan, – 2018. – s.82-83.
7. Абдусаламов М.П. Кумыкские феодальные владения в кавказской политике России в период антииранских восстаний (1707-1721) и распада Сефевидского государства // – Вестник ЮУрГУ. Серия «Социально-гуманитарные науки», 2016, т.16, № 3. – с.6-12.
8. Аверьянов Ю.А. Взаимодействие в области культуры между Сефевидским Ираном и Османской Турцией в XVI в. // – Вестник Института востоковедения РАН, 2020, № 4. – с.136-148.
9. Алиев Б.Г. Борьба народов Дагестана против иноземных завоевателей. – Махачкала: Изд-во типографии ДНЦ РАН, 2002. – 408 с.

10. Бартольд В.В. Краткий обзор истории Азербайджана // – Бартольд В.В. Сочинения. Т.II. Часть I. – Москва: Наука, 1963. – с.775-783.
11. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира // – Бартольд В.В. Сочинения. Т.II. Часть I. – Москва: Наука, 1963. – с.651-774.
12. Бартольд В.В. Сочинения. Т.VII. Работы по исторической географии и истории Ирана. – Москва: Наука, 1971. – 667 с.
13. Бартольд В.В. Работы по исторической географии и истории Ирана. – Москва: Восточная литература, 2003. – 661 с.
14. Бодак А.Ю., Бурик Е.А. История Азии и Африки в средние века. – Брест: Изд-во БрГУ имени А. С. Пушкина, 2020. – 200 с.
15. Бязров А.В., Койбаев Б.Г. Кавказ в российско-иранских политико-дипломатических отношениях в конце XVI века // – Известия СОИГСИ, № 42 (81), 2021. – с.5-12.
16. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. – Москва: Наука, 1976. – 480 с.
17. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613 -1621 гг. – Москва: Наука, 1987. – 475 с.
18. Греков И.Б. Очерки по истории международных отношений Восточной Европы XV-XVI вв. – Москва: Издательство восточной литературы, 1963. – 373 с.
19. Иванов М.С.. Очерк истории Ирана. – Москва: Госполитиздат, 1952. – 467 с.
20. Ивонин Ю.Е.. У истоков европейской дипломатии Нового времени. – Минск: изд-во «Университетское», 1984. – 160 с.
21. История Дагестана с древнейших времен до наших дней. Т. 1. История Дагестана с древнейших времен до XX в. – Москва: Наука, 2004. – 627 с.
22. История дипломатии. Т.1. – Москва: Госполитиздат, 1959 – 896 с.
23. История Северного Кавказа. – Ростов-на-Дону: Издательство Южного федерального университета, 2017. – 282 с.
24. История стран зарубежного Востока в средние века. – Москва: Изд-во Московского университета, 1957. – 371 с.
25. История стран зарубежной Азии в средние века. – Москва: Наука, 1970. – 640 с.
26. Карпов С.П. История Трапезундской империи. 2-е изд., испр. и доп. – СПб.: Алетейя, 2017. – 744 с.
27. Карпов С.П. Трапезундская империя и западноевропейские государства в XIII-XV вв. – Москва: Изд-во Московского университета, 1981. – 229 с.
28. Кораев Т.К.. Московская Русь и Сафавидский Иран в Прикаспии XVI- XVII вв.: соседство, соперничество, сосуществование // – Исторический Вестник, т. 11 (158), 2015. – с.154-199.
29. Костиков С.Е., Ястребова О.М. Челобитные иранского купца Хваджи Рахмата царю Михаилу Федоровичу (1613-1645) из Российского государственного архива древних актов // – Письменные памятники Востока, 2019, № 37 (2). – с.122-145.
30. Магарамов Ш.А. Дагестан и Ширван в контексте кавказской политики государства Сефевидов и Турции в XVI веке // – Известия Вузов. Северокавказский регион. Общественные науки, 2009, № 5. – с.48-51.
31. Махмуд из Хиналуга. События в Дагестане и Ширване XIV – XV вв. / Пер. с арабского, сост. пред., ком. и прил. А.Р. Шихсаидова. – Махачкала: 1997. – 208 с.
32. Мюллер А. История ислама. – Москва: Астрель, 2004, т. 3-4. – 971 с.
33. Новосельцев А.П. Русско-иранские политические отношения во второй половине XVI в. // – Международные связи России до XVII века. Москва: Издательство Академии Наук СССР, 1961. – с.444-461.
34. Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммад Масума Исфаха-

ни «Хуласат ас-сийар»). – Москва: Наука, 1993. – 120 с.
35. Петрушевский И.П.. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. – Ленинград: Изд-во Ленинградского Государственного Ордена Ленина Университета им. А.А. Жданова, 1949. – 382 с.
36. Саламова Н.А. Кавказ и Причерноморье в русско-турецких отношениях: от Каспийского похода Петра I до присоединения Крыма к России (1722-1783). – Махачкала: ИП М.А.Джамалудинов, 2010. – 168 с.
37. Сектор Ирана Института Востоковедения Российской АН // https://bsv.ivran.ru/sektor-irana
38. Смертин Ю.Г. Средневековый Иран: перекресток цивилизаций и амбиций. – Москва: Директ-Медиа, 2020. – 169 с.
39. Туманович Н.Н.. Европейские державы в Персидском заливе в 16-19 вв. – Москва: Наука, 1982. – 190 с.
40. Фрай Р.Н. Наследие Ирана. – Москва: Восточная литература, 2002. – 464 с.
41. Хазанов А.М. Португалия и мусульманский мир (XV-XVI вв.). – Москва: РАУ-Университет, 2003. – 319 с.
42. Хазанов А.М.. Португальцы и мусульмане (XV-начало XVI в.) // – Очерки истории исламской цивилизации. Под общ. ред. Ю.М.Кобищанова. Москва: Российская политическая энциклопедия, 2008, т.2. – с.424-463.

## К ВОПРОСУ ИССЛЕДОВАНИЯ В СОВРЕМЕННОЙ РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКИХ ГОСУДАРСТВ АККОЮНЛУ И СЕФЕВИДОВ С ЕВРОПЕЙСКИМИ СТРАНАМИ

**Севиндж А.ЗЕЙНАЛОВА**

### РЕЗЮМЕ

Тема дипломатических отношений азербайджанских государств Аккоюнлу и Сефевидов с европейскими странами считается одной из актуальных тем в современной российской историографии. Основные вопросы данной темы исследовались еще с 20-х годов прошлого века, и к концу 1980-х годов появилось большое количество фундаментальных работ по истории дипломатических отношений Азербайджана с европейскими странами. Общим аспектом работ российских (советских) историков по этой теме является исследование участия государств Аккоюнлу и Сефевидов на антиосманском фронте европейских государств. Вторая особенность этих трудов заключается в их богатой источниковедческой базе.

Несмотря на некоторый методологический упадок в российской историографии, возникший с распадом СССР, исследования данной темы продолжались и в 1990-е годы. По сравнению с предыдущим периодом, в работах, написанных в конце XX - первых десятилетиях XXI века, их источниковедческая база существенно слабая, проблема же исследуется с точки зрения структурирования исторического события.

**Ключевые слова:** Российская историография, Аккоюнлу, Сефевиды, Азербайджан, Европа, дипломатия

# ON THE INVESTIGATION OF THE DIPLOMATIC RELATIONS OF THE AK-KOYUNLU AND SAFAVID STATES OF AZERBAIJAN WITH EUROPEAN COUNTRIES

**Sevindj A.ZEYNALOVA**

## RESUME

The diplomatic relations between the Ak-Koyunlu and Safavid states of Azerbaijan and European countries constitute a prominent subject in contemporary Russian historiography. The initial investigation of the fundamental issues about this topic began in the 1920s, with a significant number of foundational works being published by the late 1980s. A common feature of these works by Russian (Soviet) historians is their focus on the activities of the Aq-Qoyunlu and Safavid states within the anti-Ottoman context, rather than on their broader diplomatic relations. Another notable characteristic of these studies is their extensive source-based research foundation.

Despite the crisis in certain areas of Russian historiography following the collapse of the USSR, research on the aforementioned topic persisted. Compared to the preceding period, works produced from the late 20$^{th}$ century to the early 21$^{st}$ century exhibited a significantly weakened foundation in source studies. On the contrary, the investigation of the topic became more structured and methodologically rigorous.

**Keywords:** Russian historiography, Ak-Koyunlu, Safavids, Azerbaijan, Europe, diplomatics

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Humanitar elmlər seriyası* 2024

UOT 94; 94 (479.24)

# XX ƏSRİN 90-CI İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ ALMANİYA FEDERATİV RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

**Balamirzə A.MƏMMƏDLİ***

*Azərbaycan Respublikasının aparıcı dünya dövlətlərindən biri olan Almaniya Federativ Respublikası (AFR) ilə münasibətlərinin Vətən tarixşünaslığı kontekstində tədqiqi son dərəcə böyük elmi-siyasi əhəmiyyət kəsb edir. Bunu əsasən üç amillə izah etmək olar. Birincisi, Avropa İttifaqının lideri kimi tanınan Almaniyanın böyük güc (great power) qismində müasir beynəlxalq münasibətlərdə xüsusi rola və nüfuza malik olması, 357 min km$^2$ ərazisi və 85 milyon nəfərə yaxın əhalisi olan AFR sənaye, elm və texnologiya sektorları üzrə qlobal güc (global power) kimi dünyanın üçüncü ən böyük ixracatçısı və idxalçısı, NATO və Böyük yeddilərin (G7) üzvüdür. "Avropa iqtisadiyyatının lokomotivi" adlandırılan AFR iqtisadi cəhətdən dünyanın ən qüdrətli dövlətlərindən biridir. Belə ki, alman iqtisadiyyatının Avropa İttifaqındakı xüsusi çəkisi 40% təşkil edir ki, bu da Böyük Britaniya və Fransanın birlikdə götürülmüş potensialından daha çoxdur. AFR həm də çox güclü hərbi-sənaye kompleksinə malik olan dövlətdir. İkincisi, Azərbaycan Respublikasının geniş diplomatik münasibətlər qurduğu ilk Qərbi Avropa ölkəsinin AFR olması. Üçüncüsü, Almaniyanın sabiq kansleri G.Şröderin də vurğuladığı kimi, Azərbaycanın Qərbi Avropadakı əsas partnyorunun məhz AFR olması. Məqalədə əvvəlcə Azərbaycan-Almaniya münasibətlərinin keçdiyi tarixi inkişaf yolu qısa nəzərdən keçirilir, daha sonra XX əsrin 90-cı illərində iki ölkə arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıq Vətən tarixşünaslığındakı çoxsaylı tədqiqat əsərlərinin müqayisəli təhlili və ümumiləşdirmələr əsasında tədqiq edilir.*

**Açar sözlər:** Azərbaycan Respublikası, AFR, xarici siyasət, beynəlxalq münasibətlər, Vətən tarixşünaslığı

**Giriş.** Almaniya ilə ikitərəfli münasibətlər dövlət müstəqilliyinin ən başlanğıcından Azərbaycan Respublikasının xarici siyasətinin Avropa istiqamətində olduqca mühüm yer tutmuşdur ki, bu da təsadüfi deyildir. Vətən tarixşünaslığında bunun səbəbi, ilk növbədə, Azərbaycan-Almaniya əlaqələrinin çoxəsrlik tarixi ənənələrə malik olması faktı ilə əlaqələndirilir. Bir sıra tarixçilər (məsələn, M.Qasımlı) bu əlaqələrin başlanğıcını XIX yüz-

* ***Bakı Dövlət Universitetinin doktorantı; balamirzamammadli@gmail.com; ORCİD İD:0009-0007-4506-4840***

illiyin əvvəllərində almanların Azərbaycanın qərb rayonlarına köçürülməsindən götürsələr də [18, 10], əksər tədqiqatçılar (Y.Mahmudov, Ə.Həsənov, S.Məhərrəmova və d.) təsdiq edirlər ki, Azərbaycan-Almaniya münasibətlərinin tarixi kökləri daha əvvələ – XV əsrə gedib çıxır [21, 6; 22, 21; 14, 76; 23, 15]. Belə ki, əvvəlcə Ağqoyunlu, daha sonra isə Səfəvilər dövləti bir sıra Qərbi Avropa dövlətləri ilə geniş diplomatik əlaqələr yaratmışdılar ki, bunlardan biri də Almaniya olmuşdu. 1518-ci ildə Səfəvi hökmdarı I Şah İsmayıl ilə Almaniya imperatoru V Karlın məktubla yazışmaları iki ölkə arasında diplomatik münasibətlərdən xəbər verir [31, 329]. Sonrakı dövrlərdə Qafqazda son dərəcə mühüm geostrateji mövqeyə və zəngin təbii sərvətlərə malik Azərbaycan məşhur alman səyyahlarının, alim və tacirlərinin diqqətini özünə cəlb etmiş, onlardan bəziləri ölkəmiz haqqında dəyərli məlumatlar qeydə almışdılar. Buna parlaq nümunə kimi 1636-1637-ci illərdə Azərbaycanda olmuş görkəmli alman diplomatı Adam Olearini göstərmək olar. Onun öz ölkəsinə geri qayıtdıqdan sonra dərc etdirdiyi əsərlər bu günə kimi Vətən tarixşünaslığında qiymətli tarixi mənbə kimi istifadə olunur. Məsələn, D.Əzimli XVII əsrdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrini tədqiq edərkən məhz sözügedən mənbəyə istinad edərək, onun əhəmiyyətini belə ifadə edir: "*Ümumilikdə, Azərbaycanda ipəyin istehsalını və satışını izləmək üçün məşhur alman səyyahı Adam Olearinin məlumatlarını nəzərdən keçirmək kifayətdir*" [10, 33].

XIX əsrin əvvəllərində Azərbaycan ərazisində meydana gələn Yelenendorf (Göygöl), Annenfeld (Şəmkir), Rufbergen (Daşkəsən), Alekseyevka (Qazax) və s. kimi alman koloniyalarının isə Azərbaycan-Almaniya tarixi əlaqələrinin inkişafında özünəməxsus yeri var. 150 ilə yaxın – yəni 1941-ci ildə Stalin deportasiyalarına qədər Azərbaycanda mövcud olmuş alman koloniyaları ölkənin sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamış, Azərbaycan on minlərlə alman kolonistinin ikinci vətəninə çevrilmişdir. Bütövlükdə alman əhalisi yerli əhali ilə qaynayıb-qarışaraq Qafqazın etnik xəritəsinin ayrılmaz elementi olmuşdu [5, 4]. Vətən tarixşünaslığında sözügedən məsələ Turan Axundova, İkram Ağasiyev, Südabə Zeynalova, Həcər Verdiyeva, Məmməd Cəfərli, Kamal Əliyev, Nazim İbrahimov və s. kimi müəlliflərin silsilə tədqiqat əsərlərində geniş və hərtərəfli araşdırılmışdır [6; 7; 38; 40; 41; 44; 47; 48; 49]. XIX əsrin ikinci yarısında Simens qardaşları şirkətinin Gədəbəydə iri misəritmə zavodları və Daşkəsəndə kobalt zavodu inşa etmələri isə sözügedən dövrdə Azərbaycan-Almaniya əlaqələri tarixinin parlaq səhifələrindəndir. Bu zavodların fəaliyyəti nəticəsində çoxlu sayda yerli sakin işlə təmin edilmişdir ki, bu da bilavasitə əhalinin maddi rifahının yüksəlməsinə öz təsirini göstərmişdi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra iki ölkə arasında münasibətlər daha da genişlənmiş, "Simens", "Krupp", "Benkendorf" kimi iri şirkətlərin timsa-

lında Azərbaycana alman kapitalının axını baş vermişdi [12, 93]. Cümhuriyyət hökumətinin Avropada ali təhsil almağa göndərdiyi 100 tələbədən 50-si məhz Almaniyanın müxtəlif universitetlərində təhsil almışdılar [3, 169]. Cümhuriyyət parlamentində alman etnik azlığının 1 deputatla (Lorens Kun) təmsil olunmasını isə bu xalqın Azərbaycan cəmiyyətinə inteqrasiyasının aşkar təzahürü hesab etmək olar. Elə bu səbəbdəndir ki, alman deputat L.Kun özü də parlamentdəki çıxışlarından birində demişdir: "*100 il boyunca almanlar və azərbaycanlılar arasında ən səmimi qonşuluq münasibətləri mövcud olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətində yaşayan almanlar öz gələcəklərinə əminliklə baxır, öz milli kimliklərinin qorunacağına möhkəm inam bəsləyirlər*" [43, 9]. 1920-ci ilin aprelin 19-da parlamentdə keçirilən iclasda Almaniyada Azərbaycanın diplomatik nümayəndəliyinin təsis edilməsi haqqında qanun qəbul edilmişdi [13, 76]. Sovet dövründə Azərbaycanın Almaniya ilə müstəqil əlaqələr yaratmaq imkanı olmamış, yalnız SSRİ dövləti çərçivəsində əlaqələr mümkün olmuşdur. 1949-cu ildə Almaniyanın iki hissəyə (Qərbi Almaniya – AFR və Şərqi Almaniya – ADR) bölünməsindən sonra ikitərəfli münasibətlər əsasən Azərbaycan SSR-in sosialist düşərgəsinə daxil olan Almaniya Demokratik Respublikası ilə iqtisadi, mədəni və elmi-texniki əlaqələri müstəvisində davam etmişdir.

**Azərbaycan Respublikası və AFR arasında ilk siyasi-diplomatik münasibətlər Vətən tarixşünaslığında.** 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra özünün xarici siyasət prioritetlərini müəyyənləşdirən Azərbaycan Respublikası bu prioritetlərə uyğun olaraq Almaniya Federativ Respublikası da daxil olmaqla Qərbi Avropa dövlətləri ilə geniş əlaqələr qurmaq imkanı əldə etdi. Gənc Azərbaycan Respublikasının elə ilk dönəmlərdən başlayaraq aparıcı dünya dövlətlərindən olan AFR ilə hərtərəfli əlaqələr yaratmaqda maraqlı olması respublikamızın öz müstəqilliyini qoruyub saxlaması və beynəlxalq aləmdə layiqli yer tutmağa nail olması zərurəti ilə bağlı idi. Vətən tarixşünaslığında vurğulanır ki, artıq 1991-ci ilin dekabrında Azərbaycan tərəfi AFR ilə diplomatik münasibətlərin qurulması istiqamətində ilk səylər göstərməyə başladı. Bu fakt Almaniya tarixşünaslığında da təsdiq olunur. Belə ki, M.Dornfeldt və E.Zivaldın birgə ərsəyə gətirdikləri "Almaniya və Azərbaycan: dostluq münasibətlərinin tarixi" adlı tədqiqat əsərində müəlliflər yazırlar: "*Almaniya ilə diplomatik münasibətlərin qurulması təşəbbüsü Azərbaycan tərəfdən gəldi. Klaus Blex 1991-ci il dekabrın 13-də və 1992-ci ilin yanvarın 10-da Hüseynağa Sadıqovu* (AR-nın xarici işlər naziri – B.M.) *qəbul etdi*" [33, 131]. Vətən tarixşünaslığında AFR Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk Qərbi Avropa dövləti kimi xarakterizə edilir. Lakin AFR-in məhz nə vaxt ölkəmizin dövlət müstəqilliyini tanıması ilə bağlı Azərbaycan tarixşünaslığında fikir ayrılığı var. Belə ki, bir qrup tədqiqatçılar (Əli Həsənov, Abbas Piriyev, İsmayıl

Musa, Xatirə Hacıyeva, İlyas Hüseynov) Azərbaycanın müstəqilliyinin AFR tərəfindən 1991-ci ilin 12 dekabrında tanındığını qeyd edirlər [14, 77; 32, 267; 29, 497; 11, 23; 16, 17]. İkinci qrup tədqiqatçılar (Musa Qasımlı, Sona Məhərrəmova, Zaur Adıgözəlov, Heydər Mirzə, Tofiq Mustafazadə) isə yazırlar ki, AFR məhz 1992-ci ilin yanvarın 12-də Azərbaycanın müstəqilliyinin tanındığını bəyan etmişdir [18, 11; 24, 3; 4, 44; 28, 453; 30, 356]. Bu mövqelərdən hansının dəqiq olduğunu üzə çıxarmaq üçün konkret mənbəyə istinad etmək zərurəti yaranır. Arxiv sənədinə (AR XİN-nin TAİ, f.28, siy.11, 1992) müraciət etdikdə bəlli olur ki, Vətən tarixşünaslığındakı ikinci mövqe daha dəqiqdir.

AFR və Azərbaycan arasında rəsmi diplomatik münasibətlər 1992-ci il fevralın 20-də quruldu. Həmin gün AR XİN-in AFR XİN-ə göndərdiyi notada vurğulanırdı ki, Azərbaycan hökuməti diplomatik münasibətlərin yaradılmasının iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına və genişlənməsinə təkan verəcəyinə, Azərbaycan və Almaniya xalqları arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə zəmin yaradacağına inanır [33, 133]. Tezliklə hər iki dövlət qarşılıqlı surətdə səfirliklərin yaradılması işini həyata keçirdilər. Belə ki, 1992-ci ilin iyununda Bonn şəhərində Azərbaycan səfirliyi, sentyabrında isə Bakıda Almaniya səfirliyi açıldı. 4 il ərzində (1988-1992) Azərbaycan SSR-in sonuncu və Azərbaycan Respublikasının ilk xarici işlər naziri vəzifəsini icra etmiş Hüseynağa Sadıqov ölkəmizin AFR-dəki ilk fövqəladə və səlahiyyətli səfiri təyin edildi [19, 80-81]. Bu baxımdan, Vətən tarixşünaslığında AFR Azərbaycan Respublikasında öz səfirliyini açan ilk Qərbi Avropa dövləti kimi səciyyələndirilir.

Azərbaycan-AFR münasibətlərində ilk addımlar əsasən iqtisadi sferada atıldı. Belə ki, 1992-ci ilin sentyabr və noyabrında Azərbaycan nümayəndə heyətinin Almaniyaya səfəri zamanı iki ölkə arasında iqtisadi əlaqələrin qurulması və genişləndirilməsi məsələləri ətrafında danışıqlar aparılmış və müvafiq sənədlər imzalanmışdı. 1993-cü ilin yanvarında isə Azərbaycan Respublikası dövlət katibinin Almaniyaya səfərinin yekununda imzalanan sənədlərə əsasən 1993-cü ilin yayında iki ölkə arasında birbaşa hava xətti açılmışdı. M.Qasımlı bütün bunları ikitərəfli münasibətlər sahəsində böyük əhəmiyyət daşıyan ilk addımlar kimi səciyyələndirir [18, 12]. Ümumiyyətlə, Azərbaycan-AFR münasibətlərinin inkişafı üçün elə ilk vaxtlardan geniş perspektivlər olmuşdur ki, bu da Vətən tarixşünaslığındakı tədqiqatçıların diqqətini həmişə özünə cəlb edir. Bununla bağlı, X.Hacıyeva rəsmi Bakı-Bonn münasibətlərinin inkişafına münbit şərait yaradan iki məqama diqqət yetirməyin vacibliyini vurğulayır [11, 24]:

1) Qərbin digər dövlətlərindən, xüsusilə ABŞ və Fransadan fərqli olaraq Almaniyada erməni icmasının zəif olması, lobbisinin isə demək olar ki, olmaması;

2) Almaniyada türk icmasının sayca çox və mütəşəkkil olması, geniş lobbiçilik fəaliyyətinə, biznes dairələrində güclü nüfuza və təsir imkanlarına malik olması.

Tədqiqatçı X.Hacıyevanın diqqət çəkdiyi məqamlar – diaspora və lobbi amili həqiqətən də dövlətlərarası münasibətlərdə əhəmiyyətli rol oynayır. Buna bariz nümunə kimi 1992-ci ildə ABŞ Konqresinin erməni diasporu və lobbisinin güclü təsiri altında “Azadlığı müdafiə aktı”na əlavə etdiyi anti-Azərbaycan xarakterli 907-ci maddəni göstərmək olar [27]. Almaniya isə türk diasporunun həm kəmiyyət, həm də keyfiyyətcə ən üstün olduğu aparıcı dövlətlərdəndir. AFR-də yaşayan türklərin sayı ilə bağlı müxtəlif versiyalar var. Daha dəqiq məlumat kimi alman sosioloqu Süzanna Şürerin 2015-ci ildə “Türkeistämmige Personen in Deutschland” (Almaniyanın türk mənşəli əhalisi) başlığı altında apardığı tədqiqatlara istinad etmək olar. S.Şürerin məlumatına görə, Almaniyada 2,9 milyon nəfər türk mənşəli əhali yaşayır və onların təxminən yarısı (1,5 milyon nəfər) Türkiyə vətəndaşlığına malikdir [36, 5]. Bu fakt onu göstərir ki, hazırda türklər Almaniyada sayca ən böyük etnik azlıqdır. Qeyd etmək lazımdır ki, AFR həm də Azərbaycan diasporunun sayca ən çox olduğu (200 min nəfərdən çox) Qərbi Avropa ölkəsidir. Bu faktı M.Qasımlı Azərbaycan ilə Almaniya arasında münasibətlərin qurulması və inkişafına müsbət təsir göstərən amillərdən biri kimi xarakterizə edir [17, 47]. Bununla yanaşı, Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyən və Ermənistanın Azərbaycana hərbi təcavüzünə son qoyulmasına ciddi çalışan dövlətlər sırasında AFR-in olması faktını da xüsusi qeyd etmək lazımdır. Təsadüfi deyildir ki, Azərbaycan diplomatiyası məhz Almaniyanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu tənzimləməsində həmsədr dövlətlərdən biri olmasına çalışmışdı.

Mütəllibov və Elçibəy hökumətləri dönəmində Azərbaycan-Almaniya münasibətlərində bir çox mühüm hadisələrin baş verməsinə (diplomatik nümayəndəliklərin açılması, iqtisadi əlaqələrin yaradılması və s.) baxmayaraq Vətən tarixşünaslığında bir sıra tədqiqatçılar həmin dövrdə Azərbaycanın AFR istiqamətindəki xarici siyasətində bəzi çatışmazlıqların olduğunu və bunun da nəticəsində AFR-in yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasına münasibətdə passiv mövqe tutduğunu qeyd edirlər. Məsələn, Ə.Həsənov “Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)” adlı monoqrafiyasında yazır ki, ilk vaxtlar AFR ilə münasibətlərə Azərbaycanda ciddi əhəmiyyət verilməmiş, onun nüfuzundan, beynəlxalq münasibətlərə təsir gücündən, iqtisadi potensialından respublikanın mənafeyi naminə istifadə edərək bu dövləti yenicə müstəqillik qazanmış Azərbaycanın əsas dayaqlarından birinə çevirmək işində heç bir əməli addım atılmamışdır. Halbuki Almaniyanın Azərbaycana olan xoş münasibəti və geniş imkanları buna tam əsas verirdi [12, 94]. Bir müddət Azərbay-

candakı səfirliyə rəhbərliyin Almaniyanın Gürcüstandakı səlahiyyətli səfiri tərəfindən həyata keçirilməsi – yəni Almaniyanın Azərbaycanda öz müstəqil səfirini təyin etməməsini də müəllif bununla əlaqələndirir. Ə.Həsənov digər bir tədqiqat əsərində isə müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının AFR ilə əməkdaşlıq əlaqələrini tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması və həyata keçirilməsi sahəsində heç bir addımın atılmamasına görə bu dövrə öz tənqidi münasibətini bildirir [15, 276].

Vətən tarixşünaslığında Azərbaycan-AFR münasibətlərini ayrıca tədqiq etmiş S.Məhərrəmova ilk mərhələdə iki ölkə arasındakı münasibətlərdə müşahidə edilən passivliyi iki amillə izah edir [23, 27]:

1) Yenicə birləşmiş Almaniyanın öz daxili problemlərinə daha çox diqqət ayırması;
2) Azərbaycanın o zamankı rəhbərliyinin sabit xarici siyasət kursunun olmaması, xarici siyasət prioritetlərinin dəqiq müəyyənləşdirilməməsi.

Müəllifin haqlı olaraq qeyd etdiyi hər iki amili faktlarla təsdiq etmək olar. Fikrimizcə, ikitərəfli münasibətlərin ilk illərində müxtəlif sferalarda əməkdaşlığın zəif olmasının bir səbəbi AFR ilə ADR-in vahid ölkədə birləşməsindən sonra Almaniyada sosial-iqtisadi problemlərin meydana gəlməsi idi ki, bu da heç də təsadüfi deyildi. Belə ki, 1990-cı ildə şərq və qərb torpaqlarının birləşməsi ilə Almaniyada unikal makroiqtisadi proses başlamış, Almaniya öz tarixində yeni bir dövrə qədəm qoymuşdu. Bu prosesin unikallığı onda idi ki, tamamilə müxtəlif sosial və iqtisadi sistemlərə malik iki dövlət birləşmişdi. Təbii ki, fərqli inkişaf səviyyəsinə malik iki dövlətin birliyi ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində bir sıra ciddi problemlərin yaranmasına səbəb oldu. Birləşmiş Almaniyada qiymət artımı başladı, inflyasiya artdı, işsizlik səviyyəsinin sürətli artımı (1994-cü ildə artıq 15,7%) baş verdi [51, 45]. 1991-1994-cü illərdə AFR Avropa ölkələri üzrə rifah reytinqində 2-ci yerdən 6-cı yerə düşdü [35, 73]. Bu baxımdan, ölkənin daxili problemlərinin aradan qaldırılması alman hökumətinin prioritet vəzifəsinə çevrildi, Şərqi Almaniya ərazisində səmərəli bazar iqtisadiyyatı və ahəngdar iqtisadi sistemin yaradılması vəzifəsi qarşıya qoyuldu. Sənaye müəssisələrinin özəlləşdirilməsi və respublika əhəmiyyətli investisiya müqavilələrinin icrasına nəzarət məsələləri ilə məşğul olan xüsusi idarə təsis edildi [39, 225]. Beləliklə, ölkənin şərqində hökumətin apardığı özəlləşdirmə siyasəti və Federal Bankın (Deutsche Bundesbank) milli valyuta məzənnəsini sabitləşdirmək üçün həyata keçirdiyi davamlı tədbirlər nəticəsində yalnız 1994-cü ildən sonra ÜDM-in 48%-dən 63%-ə yüksəldilməsinə və inflyasiya səviyyəsinin aşağı salınmasına nail olmaq mümkün oldu. 1995-1997-ci illərdə Almaniyada iqtisadi yüksəliş dövrü başladı, ölkədə ÜDM son 30 illə müqayisədə 2 dəfə artdı, inflyasiyanın

səviyyəsi 1,8%-ə düşdü və nəticədə G7-nin üzvü olan Almaniya dünyanın üçüncü ən böyük sənaye ölkəsinə çevrildi [42, 250-274; 34, 27-29].

Digər tərəfdən, müstəqilliyinin ilk illərində Azərbaycanda yaranmış siyasi, iqtisadi, mənəvi böhran və Ermənistanın getdikcə artan hərbi təcavüzü fonunda respublika rəhbərliyi tərəfindən müxtəlif dünya dövlətləri, o cümlədən Almaniya ilə diplomatik əlaqələrin səmərəli şəkildə davam etdirməsinə lazımi diqqətin ayrılmaması ikitərəfli münasibətlərə öz mənfi təsirini göstərirdi. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, həmin vaxt, hətta AFR-in Azərbaycandakı nümayəndəliyinin normal fəaliyyəti üçün zəruri şərait yaradılmamışdı. Bunu AFR-in Bakıdakı müvəqqəti işlər vəkili Tomas Terstegenin “Azərbaycan” qəzetinə verdiyi müsahibədəki fikirləri də təsdiq edir. Belə ki, T.Terstegen şəraitsizlikdən və diqqətsizlikdən şikayətlənir, Azərbaycanda qeyri-müəyyən vəziyyətin hökm sürdüyünü bildirirdi [23, 28]. Belə bir şəraitdə Ermənistan dövlətinin apardığı anti-Azərbaycan təbliğatı – qərəzli, həqiqətə uyğun olmayan məlumatlar yayması da Azərbaycan-AFR münasibətlərinə mənfi təsir göstərirdi. Vətən tarixşünaslığında Azərbaycan və AFR arasındakı ilk münasibətlərdə mühüm hadisə kimi səciyyələndirilən – 1992-ci ilin martın əvvəlində H.Fogel başda olmaqla Almaniya Bundestaqının üzvlərinin Bakıya səfərinin gözlənilən nəticəni verməməsi də bununla bağlı idi. Belə ki, alman deputatların ölkəmizə səfəri Azərbaycan-Almaniya münasibətlərini inkişaf etdirmək, Ermənistanın işğalçılıq siyasəti ilə əlaqədar həqiqətləri dünyaya çatdırmaq baxımdan son dərəcə önəmli ola bilərdi. Lakin Bakıdan əvvəl Ermənistanın paytaxtına səfər edərkən erməni təbliğatının təsiri altına düşmüş alman deputatlar Azərbaycan haqqında qeyri-obyektiv fikirlər və müsbət olmayan təəssüratlarla öz ölkələrinə geri qayıtmışdılar [23, 26].

**Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan-AFR münasibətləri Vətən tarixşünaslığında.** Vətən tarixşünaslığında Azərbaycan-AFR münasibətlərində yüksələn xətlə inkişafa doğru istiqamətlənən yeni mərhələnin başlanğıcı 1993-cü ilin ikinci yarısından götürülür ki, bu da təsadüfi deyil. Belə ki, məhz həmin vaxt baş verən hakimiyyət dəyişikliyi – dahi dövlət xadimi Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanın daxili və xarici siyasət kursunda baş verən kardinal dəyişikliklər Azərbaycan-AFR münasibətlərinə də ciddi təsir göstərdi. M.Qasımlı sözügedən dönəmi iki ölkə arasındakı münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanğıcı kimi xarakterizə edir [18, 12]. Ə.Həsənov yazır ki, Azərbaycan diplomatiyası 1993-cü ilin ikinci yarısından başlayaraq Avropa dövlətləri ilə, xüsusən də planetin qlobal problemlərinin həllində mühüm təsir gücünə malik olan, beynəlxalq və regional məsələlərdə rəyi və mövqeyi həmişə nəzərə alınan AFR ilə yeni münasibətlər sisteminin yaradılması istiqamətində məqsədyönlü işlər aparmışdır [14, 78]. S.Zeynalova

1993-cü ildən sonrakı dövrü Azərbaycan-Almaniya münasibətlərinin dinamik inkişaf illəri kimi səciyyələndirir [46, 21]. X.Hacıyeva bəhs olunan məsələ ilə əlaqədar yazır: "*Yeni hakimiyyətin dövründə daxili sabitliyin əldə edilməsi və balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi bir çox böyük dövlətlərin, o cümlədən AFR-in Azərbaycanla sıx əməkdaşlıq etmək niyyətinin reallaşdırılması üçün münbit şərait yaratdı*" [11, 24-25]. S.Məhərrəmova da eyni mövqedən çıxış edərək vurğulayır ki, məhz 1993-cü ilin ikinci yarısından Azərbaycan ilə AFR arasında ikitərəfli və çoxtərəfli siyasi, sosial-iqtisadi, mədəni-elmi və humanitar əlaqələr yüksələn templə inkişaf etməyə başladı, iki ölkə arasında qarşılıqlı faydalı birgə əməkdaşlığın əsası qoyuldu [23, 30]. Artıq 1993-cü ilin dekabrında Almaniya Bundestaqının Qafqaz üzrə komissiyasının sədri Villi Vimmerin Bakıya səfər edərək Prezident Heydər Əliyevlə ikitərəfli münasibətlərin aktual məsələlərinə dair geniş fikir mübadiləsi aparması, Ermənistanın Azərbaycana hərbi təcavüzü məsələsinin xüsusi müzakirə predmeti kimi nəzərdən keçirilməsi Vətən tarixşünaslığındakı tədqiqatçıların haqlı olduğunu göstərir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz ölkəsinin mövqeyini bəyan edən V.Vimmer bildirmişdi ki, AFR sərhədləri zorla dəyişmək istəyənləri heç bir şəkildə dəstəkləmir və münaqişənin ATƏM çərçivəsində həlli üçün öz səylərini əsirgəməyəcəkdir. AFR kimi inkişaf etmiş və nüfuzlu bir ölkənin belə bir mövqeyi Azərbaycan üçün böyük siyasi əhəmiyyət kəsb edirdi. Həmçinin 1993-cü ilin dekabrında AFR-in Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili T.Terstegenin Almaniya hökumətinin Yaşmada məcburi köçkünlərə qəsəbə salınması üçün 400 min ABŞ dolları həcmində vəsait ayırmağa hazır olduğunu bildirməsi AFR-in Ermənistan tərəfindən ölkəmizə qarşı davam edən təcavüzün ağır nəticələrindən xəbərdar olmasının göstəricisi idi [18, 13-14]. Bunu həm də aparılan uğurlu xarici siyasət sayəsində Azərbaycanın informasiya blokadasından çıxmasının nəticəsi hesab etmək olar.

1993-1994-cü illərdə AFR Azərbaycana 1,8 milyon dollarlıq humanitar yardım etmiş, iki ölkə arasında iqtisadi əlaqələr xeyli canlanmışdı: 1992-ci ildə AFR-dən Azərbaycana idxalın həcmi 9,6 milyon ABŞ dolları təşkil etdiyi halda, 1994-cü ildə bu rəqəm 31,9 milyon, 1995-ci ildə isə 43,8 milyon dollara çatmışdı [11, 27]. Almaniyadan Azərbaycana əsasən yeyinti məhsulları, geyim, nəqliyyat vasitələri, elektrik cihazlar, texnoloji avadanlıqlar və s. idxal edilmişdi. 1994-cü ildə Bonn şəhərində Ə.Fərivarın təşəbbüsü ilə Azərbaycana humanitar yardım cəmiyyətinin təsis edilməsi də iki ölkə arasındakı münasibətlərə müsbət təsir göstərmişdi [26, 124].

90-cı illərin ortalarında Azərbaycanın iqtisadi potensialını və regiondakı mühüm geostrateji mövqeyini yüksək qiymətləndirərək bu ölkə ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə diqqət yetirən AFR iki ölkə

arasında əməkdaşlığın inkişafı istiqamətində konkret addımlar atmağa başladı. Vətən tarixşünaslığındakı tədqiqat əsərlərinin təhlili zamanı məlum olur ki, 1995-ci ildən sonra Azərbaycan-AFR münasibətlərində yeni inkişaf xətti başlamışdır ki, bunu bilavasitə aşağıdakı faktlarla izah etmək olar:

1) 11 yanvar 1995-ci ildə Prezident Heydər Əliyev AFR-in Azərbaycana yeni təyin olunmuş müvəqqəti işlər vəkili Mixael Şmunku qəbul edərkən, alman diplomatın: "AFR Azərbaycana tərəfdaşlıq təklif edir" – deyə, öz ölkəsinin mövqeyini bəyan etməsi. M.Şmunk, həmçinin bildirmişdi ki, onun qarşısında iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələri genişləndirərək münasibətlərin yeni mərhələsinin başlanılması vəzifəsi qoyulub.
2) 24-27 yanvar 1995-ci ildə Almaniya Bundestaqının sədri R.Züsmutun dəvəti ilə Almaniyaya səfər edən Azərbaycan parlamentinin nümayəndə heyəti ilə AFR Prezidenti Roman Hersoq da daxil olmaqla alman rəsmilərinin görüşü və ikitərəfli münasibətlərin perspektivlərinin müzakirə edilməsi.
3) 28 yanvar 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Davos şəhərində AFR Prezidenti R.Hersoq ilə görüşü. S.Məhərrəmovanın təbirincə desək, bu, iki ölkə prezidentləri səviyyəsində ilk görüş idi [23, 32-33]. Bu görüşdə AFR Prezidentinin Almaniya və Azərbaycan arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsinin hər iki xalqın mənafeyinə uyğun olduğunu bildirməsi ölkəmiz üçün böyük siyasi əhəmiyyət kəsb edirdi. Bu baxımdan, Ə.Həsənov onu Azərbaycan-AFR münasibətlərinin ümumi durumunun və istiqamətlərinin müəyyənləşməsinə böyük təsir göstərmiş görüş kimi xarakterizə edir [14, 81].
4) 11 aprel 1995-ci ildə Azərbaycan və AFR hökumətləri arasında maliyyə əməkdaşlığı haqqında sazişin imzalanması. Saziş qaçqınlara təcili surətdə yardım edilməsini nəzərdə tuturdu [18, 20].
5) 7 may 1995-ci ildə Azərbaycanın dövlət başçısının Londonda AFR-in xarici işlər naziri Klaus Kinkel ilə görüşü. Bu görüşdə ikitərəfli münasibətlərin bir sıra məsələlərinə dair fikir mübadiləsi aparılmış, Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasının həm Azərbaycanın, həm də AFR-in maraqlarına uyğun olması fikri təsdiqlənmişdir.
6) 9 may 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvada AFR-in federal kansleri Helmut Kol ilə görüşü. Bu görüş zamanı tərəflər qarşılıqlı əlaqələrin daha da dərinləşməsinin zəruriliyini bəyan etmiş, ATƏT-in Minsk qrupunda AFR-in prinsipial mövqeyindən razı qaldığını bildirən Prezident Heydər Əliyev Azərbaycanın Almaniyaya böyük tərəfdaş kimi baxaraq daha ge-

niş siyasi-iqtisadi əməkdaşlığa maraq göstərdiyini qeyd etmişdir [12, 98].

7) 26-28 may 1995-ci ildə iqtisadi əməkdaşlıq və inkişaf üzrə federal nazir Karl-Diter Şprangerin rəhbərlik etdiyi Almaniya nümayəndə heyətinin Bakıya rəsmi səfəri və iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə edilməsi. S.Məhərrəmova bunu AFR-in Azərbaycana səfər edən yüksək səviyyəli ilk rəsmi səfəri kimi qiymətləndirir [23, 34]. Azərbaycanın ərazi bütövlüyünün Almaniya tərəfindən dəstəklədiyini bəyan edən nümayəndə heyəti bildirdi ki, AFR hökuməti ölkəmizdəki məcburi köçkünlərə yardım üçün 5 milyon, demokratik islahatlar üçün 1,8 milyon, digər layihələrin reallaşdırılması üçün 13 milyon marka vəsait ayırıb [18, 21]. Nəzərə alsaq ki, 1 may 1995-ci ildə 1 alman markası 1,4 ABŞ dolları təşkil edirdi, deməli AFR Azərbaycana 27,7 milyon dollarlıq vəsait ayırmışdı.

8) 1995-ci ilin iyununda nəinki Almaniyanın, bütövlükdə Avropanın ən böyük aviaşirkətlərindən biri sayılan "Lüfthanza" tərəfindən Bakı – Frankfurt hava xəttinin açılması. Bu, Ə.Həsənovun təbirincə desək Azərbaycan iqtisadiyyatının dirçəldilməsi və beynəlxalq inteqrasiyası baxımdan əhəmiyyət kəsb edirdi [12, 101].

9) 22 dekabr 1995-ci ildə AFR-in xarici işlər naziri K.Kinkelin Bakıya rəsmi səfəri. Bu hadisə Azərbaycan-Almaniya siyasi dialoqunun inkişafı və müxtəlif sahələrdə (iqtisadi, maliyyə, mədəni və s.) ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün hüquqi-normativ bazanın əsasının qoyulması baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, səfərin gedişində "Azərbaycan-Almaniya qarşılıqlı münasibətlərinin əsaslarına dair Birgə Bəyanat", "Azərbaycan Respublikası və AFR hökumətləri arasında mədəni əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikası və AFR hökumətləri arasında maliyyə əməkdaşlığı haqqında memorandum", "Alman hərbi qəbirləri barədə saziş" və s. kimi mühüm sənədlər imzalanmış və bir neçə ay sonra – 1996-cı ilin iyununda Prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq olunaraq qüvvəyə minmişdir. Elə buna görədir ki, İ.Musa sözügedən missiyanı AFR-in Azərbaycana münasibətində yeni xətt (mərhələ) kimi dəyərləndirir [29, 498]. S.Məhərrəmovanın fikrincə, K.Kinkelin ölkəmizə səfəri 1991-1995-ci illər arasında Azərbaycan-AFR münasibətlərinin təşəkkülü yolunda atılmış ən əhəmiyyətli addım hesab oluna bilər [23, 36].

Beləliklə, yuxarıdakı faktlar Vətən tarixşünaslığında məhz nə üçün 1995-ci ilin Azərbaycan-AFR münasibətlərinin intensiv inkişafı ili kimi səciyyələndirməsini aydın şəkildə izah edir.

1996-cı ilin 6 fevralında Prezident Heydər Əliyev AFR-in Azərbaycana təyin olunmuş ilk səfiri M.Şmunku qəbul edərkən, alman diplomat Azərbaycan dövlət başçısının federal kansler H.Kol tərəfindən Almaniyaya rəsmi səfərə dəvət edildiyini bildirdi. Bu fakt Qərbin nüfuzlu dövlətlərinin Azərbaycan ilə əlaqələrin genişlənməsinə olan marağının getdikcə artmasının göstəricisi idi. Beləliklə, tezliklə Azərbaycan-AFR münasibətlərində diqqəti cəlb edən bir hadisə baş verdi: 1996-cı ilin 1-4 iyulunda Prezident Heydər Əliyev Almaniyaya rəsmi səfər etdi. Bu, Azərbaycan Respublikası Prezidentinin Almaniya Federativ Respublikasına ilk rəsmi səfəri idi. Bu baxımdan, sözügedən səfər Vətən tarixşünaslığında olduqca mühüm tarixi hadisə kimi qiymətləndirilir. M.Qasımlı onu iki ölkə arasındakı münasibətlərin inkişafında keyfiyyətcə yeni bir mərhələ açan, böyük tarixi əhəmiyyətə malik hadisə kimi xarakterizə edir [18, 23]. Ə.Həsənov yazır ki, Azərbaycan Prezidentinin AFR-ə ilk rəsmi səfəri demokratiya və sivilizasiyalı inkişaf, müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının siyasi həyatında mühüm hadisələrdən biri idi [14, 88]. H.Mirzə sözügedən səfəri siyasi və diplomatik münasibətlər tariximizdə mühüm yer tutan hadisə kimi səciyyələndirir [28, 454]. E.Qasımov sözügedən rəsmi səfərlə qarşılıqlı münasibətlərin inkişafında yeni mərhələnin əsasının qoyulması qənaətinə gəlir [20, 18]. Vətən tarixşünaslığında bu cür mövqe heç də təsadüfi deyil. Belə ki, məhsuldar proqram çərçivəsində davam edən 4 günlük səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevin Bonn şəhərində AFR-in Prezidenti R.Hersoq, federal kansleri H.Kol, xarici işlər naziri K.Kinkel və d. rəsmilərlə yüksək səviyyəli görüşləri baş tutmuş, iqtisadi, siyasi və beynəlxalq münasibətlər sahəsində Azərbaycan-Almaniya əməkdaşlığının hazırkı durumu və perspektivləri hərtərəfli müzakirə edilmişdir. İ.Musa yazır ki, Bonn danışıqlarında Qafqaz regionunda Almaniya maraqları, II Dünya müharibəsindən sonrakı "alman möcüzəsi" təcrübəsi, Azərbaycan-AFR tərəfdaşlığının perspektivləri və dövlətlərarası dialoqda fasiləsizlik, beynəlxalq iqtisadi-humanitar layihələrdə əməkdaşlıq diqqəti cəlb edir [29, 498].

Rəsmi səfər iki ölkə arasında gələcək əməkdaşlığın əsas istiqamət və prinsiplərini müəyyənləşdirən bir sıra əhəmiyyətli müqavilələrin imzalanması ilə nəticələndi. Məsələn, 3 iyul 1996-cı ildə Azərbaycan Milli Bankı (2009-cu ildən Azərbaycan Mərkəzi Bankı adlanır. – B.M.) ilə Almaniyanın nəhəng maliyyə konqlomeratı olan Deutsche Bank arasında maliyyə əməkdaşlığı sahəsində qarşılıqlı anlaşma haqqında memorandum imzalandı ki, bu da iki ölkənin iqtisadi əməkdaşlığının real məzmun kəsb etməsinə əlverişli zəmin yaradırdı. Xüsusilə nəzərə alsaq ki, müasir dövrdə Deutsche Bank – əməkdaşlarının sayı (90 min nəfər) və ümumi aktivlərinin həcminə (2023-cü ilin məlumatına əsasən 1,312 trilyon avro) görə dünyanın ən bö-

yük transmilli banklarından biridir [53]. "Simens", "Tissen" (Tissen – Almaniyanın əsas polad istehsal edən şirkəti olmuş, 1999-cu ildə Krupp ilə birləşdikdən sonra Tissen Krupp – ölkənin ən böyük sənaye konsernlərindən biri meydana gəlmişdir. – B.M.), "Ferrostal" kimi iri alman şirkətlərinin rəhbərləri, AFR-in işgüzar dairələrinin nümayəndələri, maliyyə və bank sektorundakı iş adamları ilə görüşərkən Prezident Heydər Əliyev Azərbaycan iqtisadiyyatının potensial imkanlarını, beynəlxalq biznes üçün yaradılan şəraiti qeyd etməklə onları Azərbaycan ilə əməkdaşlığa dəvət etdi. Vətən tarixşünaslığında alman kapitalının cəlb edilməsi və ölkəyə qabaqcıl texnologiyanın gətirilməsi Azərbaycan iqtisadiyyatına olduqca müsbət təsir göstərən amil kimi qiymətləndirilir. Məsələn, Ə.Həsənov yazır ki, Prezident Heydər Əliyevin AFR-ə rəsmi səfəri nəticəsində iki ölkə arasında yeni münasibətlər formalaşmışdır ki, bu da Azərbaycanın nəhəng iqtisadi və siyasi potensiala malik Almaniya ilə sıx iqtisadi inteqrasiyaya girməsinə, onun qabaqcıl təcrübə və imkanlarından yararlanmasına, inkişaf etmiş texnologiya əsasında iqtisadiyyatı yenidən qurmasına imkan yaratmışdır [12, 110]. Qeyd etmək lazımdır ki, müəlliflər kollektivinin tərtib etdiyi və 1996-cı ildə nəşr edilmiş "Azərbaycan-Almaniya: Respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir" adlı kitab da sırf Prezident Heydər Əliyevin AFR-ə ilk rəsmi səfərinə həsr olunması və bəhs olunan problemin mənbəşünaslıq bazasını təşkil etməsi baxımından Vətən tarixşünaslığına mühüm töhfə hesab oluna bilər [8].

Vətən tarixşünaslığında birmənalı olaraq Azərbaycan Prezidentinin AFR-ə ilk rəsmi səfərinin nəticəsi bu hadisənin iki ölkə arasında münasibətlərin inkişafına yeni bir təkan verməklə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın genişlənməsinə əlverişli zəmin yaratması baxımından yüksək qiymətləndirilir. Ə.Həsənov vurğulayır ki, məhz rəsmi səfərdən sonra AFR-in siyasi və işgüzar dairələrinin Azərbaycana olan diqqəti xeyli artdı [14, 93]. M.Qasımlı yazır: "*Səfərin faydası özünü çox da gözlətmədi, ilk növbədə iqtisadi və texniki sahələrdə əməkdaşlıq genişləndirildi*" [18, 24]. S.Məhərrəmova qeyd edir ki, Azərbaycan Prezidentinin AFR-ə səfəri iki ölkə arasında münasibətlərin intensivləşməsinə səbəb oldu ki, səfərdən sonra Almaniyanın müxtəlif dairələrini təmsil edən nümayəndələrin Azərbaycana çoxsaylı səfərləri də bunu təsdiq edir [23, 39]. Rəsmi səfərdən sonra ikitərəfli münasibətlərdə izlənən inkişaf dinamikası Vətən tarixşünaslığındakı mövqelərin haqlı olduğunu təsdiq edir:

1) 1996-cı ilin 22 iyulunda Siemens AG şirkətinin baş icraçı direktoru Haynrix fon Pirerin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfər edərək Azərbaycan ilə əməkdaşlığın perspektivlərini müzakirə etməsi və elektrik stansiyalarının tikilməsinə dair sənədlərin imzalanması;

2) 1996-cı ilin 12 sentyabrında Daimler-Benz şirkətinin vitse-prezidentləri Klaus Oberlander və Ulrix Fişerin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfər edərək avtomobil nəqliyyatı və aviasiya sahəsində işgüzar əlaqələrin qurulmasını, əməkdaşlığın perspektivlərini müzakirə etmələri;
3) 1996-cı ilin oktyabrında iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi məqsədilə birgə müəssisənin – "Azərbaycan-Almaniya Ticarət evi"nin yaradılması və s.

XXI əsrin əvvəllərinə doğru münasibətləri Azərbaycan-AFR münasibətləri daha intensiv xarakter almış və bu, özünü müxtəlif sferalarda (xüsusilə iqtisadi) aydın şəkildə büruzə vermişdir. 1997-ci ildən etibarən, yəni Almaniya-Azərbaycan birgə Hökumətlərarası Komissiyasının yaradılmasından sonra hər il ikitərəfli əməkdaşlığın inkişafına yönəlmiş hökumətlərarası danışıqlar aparılır, maliyyə və texniki əməkdaşlıq sahələrində mövcud layihələr, onların icrası müddətinin uzadılması imkanları, eləcə də gələcək layihələrin perspektivləri müzakirə olunur [50, 116]. Əsas məqsədi Almaniya və Azərbaycanın iqtisadi maraqlarını birləşdirmək və bu maraqlara uyğun olaraq fəaliyyət göstərmək Alman-Azərbaycan Assosiasiyası da ikitərəfli əlaqələrin inkişafında böyük rol oynayır. Berlində ofisi açılan Azərbaycan Ticarət və Sənaye Palatası da hər iki ölkənin işgüzar dairələrinin ticarət-iqtisadi maraqlarının təmin olunmasına köməklik göstərir. 1999-cu ildə Almaniya İnkişaf Bankı və Azərbaycan Maliyyə Nazirliyi tərəfindən Almaniya-Azərbaycan Fondunun (DAWF) qurulması, Azərbaycan Respublikası və AFR hökumətləri arasında maliyyə əməkdaşlığı haqqında sazişin imzalanması Vətən tarixşünaslığında ikitərəfli iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərən, qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirilən hadisələr kimi qiymətləndirilir.

Vətən tarixşünaslığında bəzən qeyd olunmasa da, 1999-cu il noyabrın 19-da ATƏT-in İstanbul sammiti zamanı Çırağan sarayında Prezident Heydər Əliyev ilə AFR kansleri G.Şröder arasında görüş də Azərbaycan-Almaniya münasibətləri tarixinin maraqlı səhifələrindən biridir. Belə ki, görüş zamanı Heydər Əliyev Bremen qalereyasının 1947-ci ildə Azərbaycana gətirilmiş rəsm əsərlərinin Almaniyaya qaytarılması barədə sərəncam və məktubu G.Şrödera təqdim etmişdir [9, 154]. Heydər Əliyev həmin əsərlərin ölkəmizə gətirilməsi tarixçəsindən bəhs edərkən xatırlatdı ki, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra bir zabit həmin əsərləri Bakıda satmağa cəhd edərkən respublikamızın müvafiq orqanları tərəfindən yaxalanmış, əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyinə təhvil verilmiş və orada saxlanılmış, lakin 1992-ci ildə Bremen qalereyasının 10 əsəri də daxil olmaqla muzeydən 130 əsər oğurlanmışdır. Həmin əsərlər 1997-ci ildə ABŞ-ın Nyu-York şəhərində tutulmuş və orada oğruların məhkəməsi

keçirilmişdir. Beləliklə, Bremen qalereyasının Azərbaycanda olan iki rəsm əsəri, habelə Nyu-Yorkdakı məhkəmə orqanlarının sərəncamında olan əsərlərlə bağlı sənədlər Almaniya kanslerinə təqdim edildi. Prezident Heydər Əliyevə təşəkkürünü bildirən AFR kansleri bu addımı Azərbaycan və Almaniya arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin daha da inkişaf etməsinə layiqli töhfə olacağını söylədi.

XX əsrin 90-cı illərində Azərbaycan-AFR münasibətlərindəki mühüm inkişaf tendensiyasına baxmayaraq bir sıra analitiklər belə hesab edirlər ki, Almaniya XX əsrin sonlarında Cənubi Qafqaza, o cümlədən Azərbaycana nüfuz edən böyük güclər sırasında yubanmış dövlətdir. Bu, Almaniyanın Azərbaycan ilə iqtisadi əlaqələrinin digər aparıcı Qərb dövlətlərindən fərqlənməsi, daha dəqiq desək alman şirkətlərinin Xəzər dənizinin Azərbaycan sektoruna məxsus karbohidrogen ehtiyatlarının istismarı və nəqli prosesinə daha gec cəlb olunması ilə əlaqədardır. Belə ki, alman kapitalı Azərbaycan Respublikasının yalnız sayca beşinci beynəlxalq neft kontraktında – 1997-ci ildə "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilədə iştirak etmiş, Almaniyanın "Demineks" (indiki "Vinterşal") şirkəti 10% paya sahib olmuşdu [37, 103; 45, 103]. Ümumiyyətlə isə, "Demineks" şirkətinin iştirak etdiyi "Lənkəran-dəniz" və "Talış-dəniz" layihələri istisna olmaqla 1994-2000-ci illərdə Azərbaycanın neft layihələrində alman şirkətləri xüsusi fəallıq göstərmədilər [2, 163].

Qeyd etmək lazımdır ki, XXI əsrin ilk onilliklərində Azərbaycan-AFR münasibətləri yüksək xətlə inkişaf edir və hazırda ikitərəfli münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bunu 2024-cü ilin 25-26 aprelində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri də təsdiq edir. Səfər zamanı Azərbaycan və AFR dövlət başçıları arasında bir sıra mühüm məsələlər, o cümlədən Cənubi Qafqaz regionunda sülh və təhlükəsizlik, Azərbaycanın ərazi bütövlüyünün tam bərpasından sonra Ermənistanla münasibətlərin mövcud vəziyyəti, enerji təhlükəsizliyi kimi məsələlər müzakirə edilmişdir. Danışıqlar zamanı Almaniya kansleri Olaf Şoltsun: "*Yaşıl enerji və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri Azərbaycanda əməkdaşlıq etməyə maraqlıdırlar. ...Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində çox böyük rol oynayır və vacib tərəfdaşdır*" kimi bəyanatı Almaniyanın Azərbaycanla mövcud əməkdaşlığı davam etdirmək və dərinləşdirmək niyyətində olmasından, ölkəmizin əhəmiyyətini yüksək qiymətləndirməsindən xəbər verir [52]. Almaniya-Azərbaycan əlaqələrinin bu tendensiya ilə inkişafı isə Prezident İlham Əliyevin təbirincə desək, həm hər iki ölkə üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün olduqca böyük əhəmiyyət kəsb edir.

**Nəticə.** Beləliklə, dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə əlaqələri ilk vaxtlar əsasən zəif və passiv xarakter kəsb etsə də, XX əsrin 90-cı illərinin sonuna doğru ikitərəfli münasibətlər tədricən fəallaşmış və AFR ölkəmizin Avropadakı əsas tərəfdaşlarından birinə çevrilmişdir. Belə ki, 1991-1993-cü illərdə iki ölkə arasında diplomatik əlaqələrin qurulması, səfirliklərin açılması kimi bir sıra müsbət addımlara baxmayaraq, bir tərəfdən o dövrkü Azərbaycan hökumətinin yürütdüyü qeyri-sabit xarici siyasət kursu, digər tərəfdən yenicə birləşmiş Almaniyanın öz daxili problemlərinə başının qarışması ilk vaxtlar ikitərəfli münasibətlərin lazımi səviyyədə qurulmasına imkan verməmiş, yalnız 90-cı illərin ortalarından etibarən Azərbaycan Respublikasının sözügedən dövlət ilə münasibətləri yüksələn templə inkişaf etməyə başlamışdır. Azərbaycan-Almaniya münasibətləri problemi üzrə Vətən tarixşünaslığındakı çoxsaylı tədqiqat əsərlərinin elmi dövriyyəyə cəlb edilməsi yolu ilə müqayisəli təhlillər və ümumiləşdirilmələr aparılması keçən əsrin sonlarında iki ölkə arasında siyasi, iqtisadi, mədəni, humanitar və s. kimi sahələrdə əlaqələri daha dərin və hərtərəfli öyrənməyə imkan yaradır ki, bu da ölkəmizin xarici siyasət xəttində xüsusi yer tutan məsələ – Azərbaycan Respublikasının dünyanın aparıcı dövlətlərindən biri olan AFR ilə münasibətlərinin inkişaf dinamikasını və perspektivlərini müəyyənləşdirmək baxımından mühüm elmi-siyasi əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT**


1. Abbasbəyli A. Dünya siyasəti. – Bakı: Nurlar, - 2011, - 584 s.
2. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. – Bakı: Elm, - 2005, - 252 s.
3. Abdullayev Ç. Azərbaycan-Almaniya əlaqələri. – Bakı: Mütərcim, - 2014, - 192 s.
4. Adıgözəlov Z. Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006). – Bakı: CBS PP, - 2015, - 200 s.
5. Ağasiyev İ. Almanların Qafqazda məskunlaşması tarixindən. – Bakı: Biznes Universiteti, - 2012, - 330 s.
6. Ağasiyev İ. XVIII əsrin sonu-XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. - Bakı: Təhsil, - 2009, - 304 s.
7. Ağasiyev İ. Qafqazın alman koloniyaları (ictimai-siyasi həyatı) 1860-1921. – Bakı: Biznes Universiteti, - 2012, - 319 s.
8. Azərbaycan-Almaniya: Respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir. – Bakı: Şərq-Qərb, - 1996, - 96 s.
9. Böyük liderin 90 anı. – Bakı: Şərq-Qərb, - 2013, - 247 s.
10. Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı-XVII əsrin I yarısı). – Bakı: “Turxan” NPB, - 2014, - 292 s.
11. Hacıyeva X. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995). Tarix e.n. e. dər. al. üçün təq. ol. dis. – Bakı, - 2001, - 168 s.
12. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). – Bakı: Elm, - 2000, - 368 s.

13. Həsənov Ə. Azərbaycanın geosiyasəti. – Bakı: Zərdabi LTD, - 2015, - 1056 s.
14. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). – Bakı: Azərnəşr, - 1998, - 315 s.
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. – Bakı: Azərbaycan, - 2005, - 752 s.
16. Hüseynov İ. Azərbaycan-Almaniya siyasi əlaqələri // "Azərbaycan-Almaniya ədəbi-mədəni və tarixi əlaqələri"mövzusuna həsr olunan elmi konfransın məqalələr toplusu. – Bakı, - 2006, - s.17-18.
17. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. – Bakı: "Gənclik", 1996, 135 s.
18. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. – Bakı: Mütərcim, - 2015, - 640 s.
19. Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. – Bakı: Adiloğlu, - 2003, - 112 s.
20. Qasımov E. Azərbaycan Respublikasının Qərbi Avropa dövlətləri ilə əlaqələri (Elm, təhsil və mədəniyyət sahəsində, 1991-2005-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, - 2013, - 197 s.
21. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin II yarısı). – Bakı: ADU, - 1986, - 96 s.
22. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri (XV əsrin II yarısı). – Bakı: Təhsil, - 2007, - 45 s.
23. Məhərrəmova S. Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə münasibətləri (1991-2011-ci illər). – Bakı: "Turxan" NPB, - 2020, - 208 s.
24. Məhərrəmova S. Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə əlaqələri (1991-2011-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, - 2013, - 32 s.
25. Məhərrəmova S. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Almaniyaya rəsmi səfəri haqqında. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri (humanitar elmləri seriyası), - №5, - 2005, - s.214-218.
26. Məhərrəmova S. Sosial-humanitar sahədə Azərbaycan-Almaniya əlaqələri. Strateji təhlil, №2(9), - 2014, - s.119-129.
27. Məmmədli B. "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin qəbul edilməsinə Vətən tarixşünaslığında münasibət. // Bakı Universitetinin xəbərləri (humanitar elmlər seriyası), - № 3, - 2023, - s.51-67.
28. Mirzə H. Azərbaycan-Almaniya münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). – Bakı: Poliart, - 2017, - 904 s.
29. Musa İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Üç hissədə. Üçüncü hissə. – Bakı: Bakı Universiteti, - 2011, - 776 s.
30. Mustafazadə T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. – Bakı: Avropa, - 2021, - 544 s.
31. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. – Bakı: "Turxan" NPB, - 2020, - 520 s.
32. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. – Bakı: BDU, - 2005, - 545 s.
33. Dornfeldt M., Seewald E. Deutschland und Aserbaidschan. Die Geschichte der amlichen Beziehungen. – Berlin: Wissenschaft Verlag, - 2021, - 184 s.
34. Hesse J., Ellwein T. Das Regierungssystem der Bundesrepublik Deutschland. Band 1. – Berlin: De Gruyter, - 2004, - 575 s.
35. Lehmbruch G. Einigung und Zerfalt. Opladen, "Leske+Budrich Verlag", - 1995, - 376 s.
36. Schürer S. Türkeistämmige Personen in Deutschland: Erkenntnisse aus der

Repräsentativuntersuchung „Ausgewählte Migrantengruppen in Deutschland 2015“ (RAM). Nürnberg, “Bundesamt für Migration und Flüchtlinge”, - 2018, - 80 s.
37. Алиев И.Г. Каспийская нефть Азербайджана. – Москва: Известия, - 2003, - 712 с.
38. Алиев К.Г. Немцы на Южном Кавказе или моя жизнь в Анненфельде. – Баку: Росток, - 2002, - 120 с.
39. Атабаева Д.Т., Кенжебекова М.Б., Мусаева Э.А. Экономическое развитие объединенной Германии как модель социально-рыночной экономики. Экономика и управление в XXI веке: тенденции развития, - № 10, - 2013, - с.220-229.
40. Ахундова Т.Р. Немцы-колонисты Азербайджана XIX – нач. XX в. – Баку: Шуша, - 1999, - 126 с.
41. Вердиева Х.Ю. Немцы в Северном Азербайджане. – Баку: Элм, - 2009, - 208 с.
42. Германия. Факты. Франкфурт-на Майне, «Societäts-Verlag», - 1999, - 512 с.
43. Гусейн-заде Р.А. Немцы Азербайджана. İrs-Наследие, №1 (25), - 2007, - с.8-11
44. Джафарлы М.Ш. Немцы в Азербайджане. – Баку: Издательство Бакинского Университета, - 1997, - 71 с.
45. Зейналова С.М. Азербайджан – Германия: экономическое сотрудничество. Кавказ и глобализация, - Том 2, - Вып. 1, - 2008, - с.54-66.
46. Зейналова С.М. Азербайджано-германские отношения в контексте интеграции Азербайджана в Европейское сообщество. – Баку: «Мутарджим», 2008, 76 с.
47. Зейналова С.М. Немецкие колонии в Азербайджане (1819-1941 гг.). – Баку: Араз, - 2002, - 222 с.
48. Зейналова С.М. Немцы на Кавказе. – Баку: Мутарджим, - 2008, - 424 с.
49. Ибрагимов Н.А. Немецкие страницы истории Азербайджана. – Баку: Азербайджан, - 1995, - 200 с.
50. Магеррамова С.С. Экономические отношения между Азербайджанской Республикой и Федеративной Республикой Германия (1991-2000 годы). Современная научная мысль, №3, 2021, - с.112-117.
51. Современная Германия. Экономика и политика / Под общ. ред. В.Б.Белова. – Москва: Весь Мир, - 2015, - 720 с.
52. Azərbaycan Prezidenti İlham Əliyev və Almaniyanın Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər - https://president.az/az/articles/view/65644
53. Deutsche Bank. Annual Report 2023 - https://investor-relations.db.com/files/documents/annual-reports/2024/Annual-Report-2023.pdf

## ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ФЕДЕРАТИВНОЙ РЕСПУБЛИКОЙ ГЕРМАНИЯ В 90-Е ГОДЫ XX ВЕКА В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

**Баламирза А.МАМЕДЛИ**

### РЕЗЮМЕ

Исследование отношений Азербайджанской Республики с Федеративной Республикой Германия, одним из ведущих государств мира, в контексте отечественной историографии имеет большое научное и политическое значение. Это можно объяснить главным образом тремя факторами. Во-первых, Германия, известная как лидер Европейского Союза, играет важную роль и имеет влияние в современных международных отношениях как великая держава. ФРГ с площадью 357 тысяч км$^2$ и населением около 85 миллионов человек является третьим по величине экспортером и

импортером в мире, мировой державой в промышленном, научном и технологическом секторах. Она также является членом НАТО и G7. Германия, которую называют «локомотивом европейской экономики», является одной из самых экономически мощных стран мира. Так как, доля немецкой экономики в Европейском Союзе составляет 40%, что превышает совокупный потенциал Великобритании и Франции. Германия также является государством с очень сильным военно-промышленным комплексом. Во-вторых, Германия является первой западноевропейской страной, с которой Азербайджанская Республика установила широкие дипломатические отношения. В-третьих, как подчеркнул бывший канцлер Г.Шредер, Германия является основным партнером Азербайджана в Западной Европе. В статье сначала кратко рассматривается исторический путь развития азербайджано-германских отношений, затем изучаются отношения между двумя странами в политической, экономической, культурно-гуманитарной и других сферах в 90-е годы XX века на основе сравнительного анализа и обобщений многочисленных научных работ отечественной историографии.

**Ключевые слова:** Азербайджанская Республика, ФРГ, внешняя политика, международные отношения, отечественная историография

## RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE FEDERAL REPUBLIC OF GERMANY IN THE 90S OF THE XX CENTURY IN DOMESTIC HISTORIOGRAPHY

**Balamirza A.MAMMADLI**

### SUMMARY

The study of relations between the Republic of Azerbaijan and the Federal Republic of Germany, one of the leading states in the world, in the context of domestic historiography is of great scientific and political importance. This can be explained mainly by three factors. First, Germany, known as the leader of the European Union, plays an important role and influence in modern international relations as a great power. With an area of 357 thousand km$^2$ and a population of about 85 million people, Germany is the third largest exporter and importer in the world, and a global power in the industrial, scientific and technological sectors. It is also a member of NATO and G7. Germany, which is called the "locomotive of the European economy" – is one of the most economically powerful countries in the world. So, the share of the German economy in the European Union is 40%, which exceeds the combined potential of Great Britain and France. Germany is also a state with a very strong military-industrial complex. Secondly, Germany is the first Western European country with which the Republic of Azerbaijan has established broad diplomatic relations. Thirdly, as former Chancellor G.Schroder emphasized, Germany is Azerbaijan's main partner in Western Europe. The article first briefly examines the historical path of development of Azerbaijani-German relations, then studies the relations between the two countries in the political, economic, cultural, humanitarian and other spheres in the 90$^s$ of the 20$^{th}$ century on the basis of a comparative analysis and generalizations of numerous scientific works of domestic historiography.

**Keywords:** Republic of Azerbaijan, Federal Republic of Germany, foreign policy, international relations, domestic historiography

**UOT 94(479.24)**

# MÜSTƏQİL AZƏRBAYCANDA DƏNİZ NƏQLİYYATININ İNKİŞAF STRATEGİYASININ İŞLƏNİB HAZIRLANMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Pərviz S.MƏHƏRRƏMOV***

*Dünya təsərrüfat sistemində özünəməxsus yeri olan dəniz nəqliyyatı beynəlxalq iqtisadi əlaqələrin inkişafı və genişlənməsində, xalqlar və dövlətlər arasında qarşılıqlı iqtisadi əlaqələrin formalaşmasında mühüm rol oynayır. Müasir dövrdə beynəlxalq iqtisadi əlaqələri dəniz nəqliyyatının iştirakı olmadan təsəvvür etmək qeyri-mümkündür. Çünki dəniz nəqliyyatı dünya vahid nəqliyyat sistemində digər nəqliyyat növləri ilə müqayisədə (boru kəməri istisna olmaqla) ən ucuz nəqliyyat növü hesab olunur. Bu baxımdan Azərbaycanda dəniz nəqliyyatının inkişafı mühüm əhəmiyyət kəsb edir. Aparılan araşdırmalar göstərir ki, dəniz nəqliyyatı Xəzərin hövzəsində yerləşən ölkələrlə əlaqə yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Elmi məqalədə müstəqil Azərbaycan Respublikasında nəqliyyatın inkişaf strategiyası və qanunvericilik bazasının işlənib hazırlanmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolu sənədlər və faktlar əsasında araşdırılır.*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, dəniz nəqliyyatı, inkişaf, beynəlxalq iqtisadi əlaqələr

**Giriş.** Müasir dövrdə Azərbaycanda ölkə iqtisadiyyatının ən dinamik inkişaf edən infrastruktur sahələrindən biri olan nəqliyyat sferası rabitə, informasiya və kommunikasiya, təhsil, səhiyyə və enerji ilə yanaşı, cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət funksiyalarının icrasında mühüm rol oynayır. Qloballaşan və daim yeniliyə doğru can atan müasir dünyanı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları (İKT) - internet, elektron poçt və qlobal rabitə imkanları ilə yanaşı nəqliyyat sistemi olmadan təsəvvür etmək qeyri-mümkündür. Bu baxımdan, yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələlərdən biri də dövlətlər və xalqlararası zaman və məkan fərqlərini aradan qaldırmağın müxtəlif yollarını tapmaqdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi sübut etmişdir ki, elm,

* *Gəncə Dövlət Universitetinin doktorantı; parvizmaherr@gmail.com; ORCİD İD: 0000-0002-3584-339*

təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Uzun tarixi bir yol keçmiş Azərbaycan nəqliyyatı bu gün digər sahələrlə yanaşı, ölkənin sosial-iqtisadi və qeyri-neft sektorlarının inkişafında, beynəlxalq əlaqələrinin genişlənməsində, qloballaşan dünya sisteminə inteqrasiya olunmasında xüsusi əhəmiyyət daşıyır.

XX-XXI əsrin əvvəllərində Azərbaycanda digər sahələrlə yanaşı, dəniz nəqliyyatının da əsas inkişaf dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Sovet İttifaqının tərkibində olarkən Azərbaycanın inkişaf perspektivlərinin respublikanın sənaye potensialının gücləndirilməsi, xüsusən də elmtutumlu sahələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğunu görən ümummilli lider Heydər Əliyev artıq ötən əsrin 70-ci illərində nəqliyyat sahəsinə diqqət yetirib və onun bütün sahələri kimi dəniz nəqliyyatının da bugünkü inkişafının təməlini qoymuşdur. Müstəqilliyin ilk illərində ümummilli lider Heydər Əliyev dəniz nəqliyyatının inkişafı və bu sahəyə ən yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirmiş və bu sahədə inkişafa nail olmaq üçün daim səylər göstərmişdir. Məhz bu səbəbdən, qlobal informasiya cəmiyyətinə keçid etmiş dünya ölkələri kimi, hazırkı dövrdə ölkəmizdə də dövlətlər və xalqlararası zaman və məkan fərqlərinin aradan qaldırılması üçün bütün lazımi şərait mövcuddur. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkədə nəqliyyat sektoru bütün sahələr üzrə dinamik inkişaf edir, dəniz nəqliyyatının inkişafı ölkə iqtisadiyyatının digər sahələrinin sürətli artımına təkan verir və ölkənin hərtərəfli inkişafında onun xüsusi çəkisi ilbəil artır.

**Əsas hissə.** Aparılan araşdırmalar göstərir ki, dəniz nəqliyyatı Xəzər dənizi hövzəsində yerləşən ölkələrlə əlaqə yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Mərkəzi Asiyadan Türkiyə və Qərbi Avropa ölkələrinə gedən ən qısa yollar Xəzərdən keçir. Bakı Xəzər hövzəsində ən böyük limandır. Ona görə yüklərin və sərnişinlərin əsas hissəsi buradan daşınır. Bakı-Mahaçqala, Bakı-Həştərxan, Bakı-Ənzəli, Bakı-Aktau, Bakı-Manqıstan dəniz xətləri ilə neft, neft məhsulları, ərzaq, meşə materialları daşınır. Bakıdan gəmi ilə Qara dənizə çıxmaq üçün aşağıdakı su yollarından keçmək lazımdır: Bakı-Həştərxan, Volqa çayı, Volqa-Don kanalı, Don çayı, Azov dənizi, Kerç boğazı və Qara dəniz. Kür və Araz çaylarından daxili su nəqliyyatından istifadə etmək olar. Kür çayı 600 km məsafədə Yevlaxa qədər gəmiçiliyə yararlıdır [3, 15].

Dəniz nəqliyyatı Xəzər hövzəsi ölkələri ilə əlaqə saxlanmasında və onlarda çıxarılan neftin Azərbaycandan keçməklə dünya bazarına çıxarılmasında böyük əhəmiyyət kəsb edir. Bakı təkcə respublikada yox, həm də Xəzər dənizində ən böyük limandır. Buna görə də bütün yüklər və sərnişinlər əsasən buradan daşınır. Bakı-Türkmənbaşı, Bakı-Bekdaş və Bakı-Aktau

gəmi-bərələri yük və sərnişin daşıyır. Bakı-Türkmənbaşı gəmi-bərə xətti 1962-ci ildən işləyir [9, 24].

Aparılan araşdırmalar göstərir ki, qədim neft ölkəsi olan Azərbaycanda dünyada ilk dəfə olaraq neftin dənizdə çıxarılmasına başlanmış və Xəzərin Azərbaycan sektorunda, "Gürqan-dəniz", "Pirallahı", "Çilov" adası kimi yataqların mənimsənilməsinə başlanıldı. 1848-ci ildə Bakıda, Bibiheybət yataqlarında qazılmış quyudan neft fontan vurdu və bu hadisə neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə düşdü [2, 145].

XX əsrdən başlayaraq Azərbaycanın neft sənayesi sürətlə inkişaf etdi, olduqca güclü istehsal bazarları və elmi mərkəz yaradıldı. Azərbaycan İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75%-ni verməklə cəbhəni yanacaqla təmin edərək faşizm üzərində tarixi qələbənin əldə edilməsində böyük rol oynadı [12, 45].

1949-cu il 7 noyabrda açıq dənizdə sahildən 40 km və Bakıdan 90 km aralı Neft Daşları yatağının aşkar edilməsi Azərbaycanı və Xəzəri bütün dünyada məşhur etdi. 1970-ci illərin sonu, 1980-ci illərin əvvəllərində dənizin 80-350 metr dərinliklərində indi adları bütün dünyada məşhur olan "Azəri", "Çıraq", "Kəpəz" və hazırda ARDNŞ neftinin 60 faizdən çoxunu verən "Günəşli" kimi yataqlar aşkar edildi [14, 49]. İlkin məlumatlardan göründüyü kimi, Azərbaycanda dəniz nəqliyyatının tarixi qədim dövrlərə gedib çıxır, dəniz nəqliyyatının sürətli inkişafı isə Sovetlər dövründən başlamış, Azərbaycan neftinin daşınması dəniz nəqliyyatının inkişafına təkan vermişdir.

Azərbaycanda dəniz nəqliyyatının inkişafının mühüm bir dövrü ümummilli lider Heydər Əliyevin Azərbaycanda 1993-cü ildə hakimiyyətə yenidən gəlişi illərinə təsadüf edir. Bütün sahələrdə olduğu kimi, Heydər Əliyev Azərbaycanda dəniz, su nəqliyyatının inkişafında, xaricə iqtisadi əlaqələrin qurulmasında dövlət tədbirlərinin işlənib hazırlanması və icrası sahəsində öz xidmətlərini əsirgəmədi. Bu istiqamətdə təkcə dövlətin qəbul etdiyi qanun və qərarlar deyil, eyni zamanda beynəlxalq layihələrdə Azərbaycanın iştirakı da öz sözünü dedi.

Bu sahədə mühüm addımlar "Əsrin müqaviləsi" ilə yeni mərhələyə qədəm qoydu. 20 sentyabr 1994-cü ildə dünyanın 8 ölkəsindən 11-i iri neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Bu sazişdən sonra respublikamızın iqtisadiyyatı tənəzzül dövründən çıxaraq dinamik inkişaf yoluna qədəm qoydu. Bütün bu göstəricilərin formalaşmasında balansında 300-ə qədər müxtəlif təyinatlı, o cümlədən, sualtı borudüzən, sualtı qaynaq işləri, sualtı dalğıc işləri, sualtı elmi-tədqiqat işləri aparan, təchizat-yedək işlərini həyata keçirən, dəniz obyektlərinin mühafizəsini aparan "VİXR" tipli, həmçinin dənizçilərin daşınmasını

təmin edən “G.Əsədov” və “S.Orucov” tipli sərnişin və s. gəmiləri olan “Xəzər Dəniz Neft Donanması”nın çox böyük rolu oldu [10, 2].

Neft strategiyasının həyata keçirilməsində dəniz nəqliyyatının maddi-texniki bazasının möhkəmləndirilməsi və yeniləşdirilməsinə xüsusi diqqət yetirildi və bu sahədə xeyli işlər görüldü. Qeyd etmək lazımdır ki, 1994-cü ildə Xəzər Dəniz Gəmiçiliyinin 17 gəmisində İsveçin “Şip mocet” firmasının müasir sputnik naviqasiya sistemi quraşdırıldı, 10 gəmi kompüterlərlə təchiz edildi, gəmilərə fototeleqraf sistemi qoyuldu, həmçinin İsveçin “Nord kontrol” firmasından gəmi sürücülərinin peşə hazırlığının artması üçün müasir məşq avadanlığı alındı.“C.Cabbarlı”, “Qəhrəman Hacıyev”, “M.Müşfiq”, “Muğan” gəmiləri “Kastivin-Xyus” firmasının, “Q.Qarayev”, “Merkuri-1”, “Merkuri-2” gəmiləri isə ən müasir radiologiya sistemi ilə təchiz edildi [14, 51]. Lakin bununla bərabər, donanmanın yeni gəmilərlə təchizi çox aşağı səviyyədə olmuşdur. Müstəqillik illərində yalnız 2 gəmi alındı. Belə ki, nəqliyyat donanması 1994-cü ildə Rusiyadan alınmış yük tutumu 4 min ton olan 1 ədəd quru yük gəmisi ilə və 1998-ci ildə isə yük tutumu 2 min ton olan 2 ədəd yanacaqdoldurma gəmisi ilə yeniləşdirildi.

1993-cü ildən etibarən neft müqavilələri, “Qədim İpək Yolu”nun fəaliyyətə başlaması neft strategiyasının inkişaf etdirilməsinə böyük imkanlar açdı. Dəniz nəqliyyatının idarəçiliyində yeni iqtisadi münasibətlərə keçid şəraitində idarəçiliyin iqtisadi, texniki, təşkilati-hüquqi məzmunda baş verən dəyişikliklərdən belə bir nəticə əldə edilmişdir ki, müstəqillik illərində bu sahədə bir sıra dəyişikliklər olmuşdur: Dəniz nəqliyyatı respublikanın tabeçiliyinə keçmiş, iqtisadi müstəqilliyə nail olmuşdur. MDB ilə qırılmaz əlaqələr yeni əsaslar, ikitərəfli müqavilələr əsasında bərpa edilmiş, respublikanın strateji maraqlarına uyğun dünyanın bir çox ölkələri ilə bu sahədə əməkdaşlıq müqaviləsi bağlanmış və Azərbaycan dəniz nəqliyyatı beynəlxalq dəniz təşkilatının üzvü olmuşdu [11, 2].

Göründüyü kimi, müstəqilliyimizin ilk illəri respublikamız üçün mürəkkəb bir dövr idi, digər sahə kimi dəniz nəqliyyatında yükdaşıma tempi aşağı idi. Bununla belə, 1993-cü ildən görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ölkə daxilində siyasi sabitliyin yaradılması, uğurlu xarici siyasət, neft müqavilələrinin bağlanması, nəqliyyat dəhlizinin işə düşməsi, dünya ölkələri ilə əlaqələrin genişlənməsi, digər sahələr kimi dəniz nəqliyyatının fəaliyyətinə müsbət təsir göstərdi, yükdaşıma sahəsində olan geriliklər aradan qaldırıldı, sabitləşmə və iqtisadi yüksəliş dövrü başlandı.

Aparılan araşdırmalar göstərir ki, 1993-cü ildə yük daşınması 8 mln. 178 min tona çatdı, yaxud ötən ildəkilərdən təqribən 1,3 dəfə çox yük daşındı. Dəniz nəqliyyatının xalq təsərrüfatının inkişafındakı əsaslı yerini göstərən amillərdən biri də respublikanın ümumi yük dövriyyəsində onun

iştirak səviyyəsi idi. Yük dövriyyəsinin artması xalq təsərrüfatı sahələrinin xammal ehtiyatı ilə təchiz edilməsi, ritmik fəaliyyət deməkdir. Həmin dövrdə ümumi yük dövriyyəsində dəniz nəqliyyatının xüsusi çəkisi artdı.

Məlum olduğu kimi, Azərbaycan Avropa ilə Asiya qitəsi arasında böyük körpüdür. Bu baxımdan 1993-cü ildən etibarən dəniz vasitəsilə yükdaşımaların əhəmiyyətli artımı diqqəti cəlb edir. Belə ki, əgər 1996-cı ildə dəniz nəqliyyatı 766 min ton yük daşımışdısa, 1997-ci ildə bu göstərici 2,1 mln tona çatdı, yaxud 3 dəfədən çox oldu. 1998-ci ildə təkcə 11 ay ərzində isə dəhlizin dəniz hissəsi ilə gəmi bərələrlə 17,484 vaqon yük daşınmışdır ki, bu da 1997-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 min vaqon çoxdur [9, 129]. Göründüyü kimi, nəqliyyat dəhlizində yükdaşımanın artması respublikanın iqtisadi potensialının yüksəlməsində, xalq təsərrüfatı sahələrinin inkişafında böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası 1995-ci ilin mayın 15-də Birləşmiş Millətlər Təşkilatının nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatının üzvü oldu. 1996-cı il dekabrın 15-də Odessada Azərbaycan, Gürcüstan, Ukrayna arasında Avrasiya nəqliyyat dəhlizinin fəaliyyət göstərməsi barədə, 1996-cı ilin mayında isə Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan respublikaları arasında tranzit daşımaların tənzimlənməsi haqqında sazişlər imzalandı [9, 130].

Bundan bir qədər sonra, 1998-ci ilin 7-8 sentyabrında tarixi "İpək yolu"nun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Bu tədbirdən sonra çox vacib məsələlərdən biri Azərbaycanla Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə respublikaları arasında dəniz yolları ilə yük daşınması bazarının formalaşdırılmasına dair müqavilələrin bağlanması mühüm əhəmiyyət kəsb etdi. 1998-1999-cu illərdə Azərbaycan nəqliyyat gəmiləri ilə daşınan yüklərin həcmi 5 il əvvəlki həcmdən təxminən 1,5 dəfə çox oldu [9, 135].

1998-ci ildən etibarən Xəzər gəmiçiliyi dünyanın bir çox şirkətləri ilə yaxından əməkdaşlığı sürətləndirdi. Gəmiçilik beynəlxalq dənizçilik təşkilatında (İMO) respublikamızı layiqincə təmsil etməyə başladı. 1998-ci ildə xarici sularda üzən 24 gəmimiz dünyanın 135 limanına yük daşıyır. Ümumiyyətlə, 2001-ci ilin son aylarına qədər Azərbaycan dünyanın təxminən 114 ölkəsi ilə ticarət əlaqəsi saxlayırdı. Bu ölkələrə ixrac-idxal əməliyyatının ümumi həcmi 2206.3 milyon dolları təşkil etmişdir.

2000-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 13 faiz, o cümlədən ixrac 20,9 faiz, idxal isə 1,4 faiz artdı. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, xarici ticarət əlaqələrinin 80,6 faizi xarici ölkələr, 19,4 faizi MDB ölkələri ilə aparılmışdır ki, bunun da 5,5 faizi su nəqliyyatı vasitəsilə həyata keçirilmişdir [5, 129].

Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, siyasi sabitliyin qorunub saxlanması Xəzər gəmiçiliyinin inkişafına da öz müsbət

təsirini göstərdi. Azərbaycan Xəzər Gəmiçiliyinin beynəlxalq hüquq normalarına cavab verən "Ticarət gəmiçiliyi məsələsi haqqında" qanun qəbul etməsi gəmiçiliyin inkişafında əhəmiyyətli rol oynadı. Xəzər Gəmiçiləri dövlətimizin iqtisadi qüdrətinin artması üçün əllərindən gələni əsirgəmədi. 2001-ci ildə Xəzər dənizçiləri Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində tankerlər 6 min. 63 min ton, gəmi bərələrlə 1 min. 904 min ton yük daşıdı. Xəzər dənizçiləri yüklərin daşınması sahəsində xərclərin aşağı salınmasına nail oldu. Görülən tədbirlər nəticəsində bir ton yükdaşımanın maya dəyəri 2001-ci ildə əvvəlki illə müqayisədə 12,5% aşağı düşdü, əmək məhsuldarlığı 20% artdı.

Azərbaycan Xəzər Gəmiçiliyi idarəsinin beynəlxalq əlaqələri də genişləndi. 1999-cu ildə Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi ali beynəlxalq konvensiyaya imza atdı. Beynəlxalq Dəniz Təşkilatının, Baltik Beynəlxalq Dəniz Komitəsinin, Qara Dəniz Dövlətləri Gəmi sahibkarları Beynəlxalq Assosiasiyasının və Gəmilərin Beynəlxalq sığorta Klubunun üzvü oldu. Gəmiçiliyin inkişafı sahəsində əldə edilmiş nailiyyətlərə görə Azərbaycan 2001-ci ilin mayında yaxşı dənizçilik ölkəsi sayılmış və İMO-nun "Ağ siyahısına" daxil edilmişdi. Bir sıra ölkələrə dənizçilik üzrə işgüzar əməkdaşlığın genişlənməsi üçün müvafiq sazişlər imzalandı.

Ulu Öndər Heydər Əliyev 1998-ci il sentyabrın 5-7-də Qədim İpək Yolunun bərpasına həsr edilmiş beynəlxalq konfransdakı nitqində bu yolun siyasi və iqtisadi əhəmiyyətindən bəhs edərək deyirdi: "Tarixi Böyük İpək yolunun bərpası yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi yeni dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi bu dövlətdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək. Hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir" [7, 13]. 1999-cu ildə gəmilərlə 7 milyon 382 min ton yük daşınmışdı ki, bu da 2000-ci ilin müvafiq dövrünə nisbətən 1635 min ton çox idi.

Böyük İpək Yolunun bərpası bu yolun ən intensiv xətlərindən biri respublikamızın sərhədlərini şərqdən-qərbə (TRASEKA) və cənubdan-şimala doğru kəsərək keçir. Əhəmiyyətli ticarət yolları ilə əhatə olunan marşrutlar üzrə Çin-Avropa, Mərkəzi Asiya-Avropa, Mərkəzi Asiya-Qara Dəniz, İran-Rusiya, İran-Qara Dəniz, Rusiya-Hindistan ticarət əlaqələrinin inkişafı üçün əsas infrastruktur layihələrinin və Ələt limanının istifadəyə verilməsi ticarətin həcminin artmasına və Azərbaycanın vacib regional logistika mərkəzinə çevrilməsində müəyyən tədbirlərin görülməsini labüd edir.

Azərbaycan Respublikasının iqtisadi həyatında dəniz nəqliyyatı böyük rol oynayır. Volqa-Baltik, Volqa-Don su sistemi vasitəsilə Azərbaycan gəmilərinin dünya okeanı sularına çıxmaq imkanı vardır. Azərbaycanın də-

niz yolları Bakıdan başlayır. Xarici daşımalarda Bakı-Həştərxan, Bakı-Mahaçqala, Bakı-Ənzəli, Bakı-Bekdaş, Bakı-Türkmənbaşı, Bakı-Aktau xətləri fəaliyyət göstərir. Sonuncu 3 xətdə dəmiryol gəmi-bərə əlaqələri mövcuddur. Kiçik kobataj daşımalarda isə Bakı-Astara, Bakı-Salyan, Bakı-Lənkəran, Bakı-Çilov adası xətləri fəaliyyət göstərir. Ticarət-iqtisadi əlaqələrdə Azərbaycanın beynəlxalq dəhlizlərə inteqrasiyasının gücləndirilməsi üçün göstərilən 3 əsas infrastruktur layihənin həyata keçirilməsində Bakı limanının (Ələt) xüsusi əhəmiyyəti vardır. Lakin bu gün bizim Xəzərdə və dünya sularında rəqabət qabiliyyətli gəmilərimizin sayı çox azdır.

Araşdırmalar göstərir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin unikal gəmilərlə təchiz olunmuş Xəzər Dəniz Neft Donanması dənizdə neft-qaz hasilatında mühüm əməliyyatlar yerinə yetirirsə, Nəqliyyat donanması respublikamızın xarici-iqtisadi əlaqələrində yükdaşımalar üzrə xüsusi rola malikdir. Yük-sərnişin gəmiləri də daxil olmaqla 43 tanker və 37 quru yük gəmilərindən ibarət olan (köməkçi və texniki donanma istisna olmaqla) dəniz nəqliyyat donanmasının tərkibi 2001-ci ildən başlayaraq yeniləndi [4, 48].

2000-ci il ilə müqayisədə 2001-cü ildə nəqliyyat donanmasının gəmilərinin sayı 13 vahid artdı. Respublikamız müstəqillik əldə etdiyi dövrdə keçmiş SSRİ-dən ölkəmizin əmlakına 69 gəmi verilmişdir (Xəzər Dəniz Neft Donanması və Hərbi Dəniz donanmasının gəmiləri istisna olmaqla). Dedveyti 5885 ton olan "Mayestro Niyazi" quru yük gəmisi, 8000 tonluq "Professor Ə.Əliyev" tankeri, 2004-2006-cı illər üzrə 19619 layihəli "Prezident Heydər Əliyev" tipli 5 ədəd tankerlərin alınması və onların səmərəli istismarı donanmanın rentabellik səviyyəsinin artmasına səbəb olmuşdur.

2014-cü ilin dekabrın 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin dünya şöhrətli müğənni Müslüm Maqomayevin adını daşıyan Katamaran tipli sürətli sərnişin gəmisi istismara verildi. "Kaspian Marin Servicez" şirkəti ilə uzunmüddətli Alyans razılaşması çərçivəsində alınan "Müslüm Maqomayev" sürətli sərnişin gəmisinin uzunluğu 70 metr, eni 16 metr, bortunun hündürlüyü 6 metr,150 nəfər tutumu olan gəmi Beynəlxalq Dəniz Təşkilatının sürətli gəmilərin tikintisində tətbiq edilən HSC kodu tələblərinə uyğun olaraq inşa edildi. BP şirkətinin sifarişlərini yerinə yetirəcək "Müslüm Maqomayev" gəmisinin Xəzər hövzəsində analoqu olmayan, ikigövdəli unikal gəmidə hər biri 3917 at gücündə olan 4 mühərrik qoyuldu [4, 48].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 21 aprel 2001-ci il tarixli 697 saylı Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası "Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər" həyata keçirildi [14, 125]. Məlumatlardan

göründüyü kimi, Heydər Əliyevin hakimiyyətinin ilk illərində dəniz nəqliyyatının inkişafında əhəmiyyətli dövlət tədbirləri həyata keçirildi, normativ hüquqi bazasının möhkəmləndirilməsi üzrə müvafiq qanunlar qəbul edildi, bu sahədə müəyyən çatışmazlıqlar qismən aradan qaldırıldı.

Dəniz nəqliyyatının fəaliyyəti ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2001-ci il tarixli 146- IIQ №-li "Ticarət Gəmiçiliyi Məcəlləsi" haqqında Azərbaycan Respublikasının Qanunu imzalandı [13, 1]. Bu qanuna əsasən, Azərbaycan Respublikasında dəniz nəqliyyatı üzrə siyasəti Azərbaycan Dövlət Dəniz Adminstrasiyası həyata keçirərək, əmələ (ekipaj) üzvlərinə diplom və xüsusi ixtisas şəhadətnamələrinin, dənizçi pasportlarının, gəmilər üzrə üzməyə yararlılıq, Azərbaycan bayrağı altında üzmə və minimum ekipaj (əmələ) haqqında şəhadətnamələrin verilməsi məsələlərini həll edir [13, 1].

Azərbaycan dəniz nəqliyyatının inkişafı istiqamətində sərnişin daşımaları da mühüm əhəmiyyət kəsb edir. Bununla bağlı olaraq hələ XIX əsrin sonunda Bakı neft sənayesinin Xəzərdə balıqçılığın və Zaqafqaziyanın bir sıra emaledici sənaye sahələrinin inkişafı ilə əlaqədar Rusiyanın Avropa hissəsindən Qafqaza əhalinin miqrasiyası sürətlə artmışdı. İş dalınca Qafqaza gələnlərin böyük hissəsi təbii ki, sərnişin gəmilərinin xidmətindən istifadə edirdilər.

Xəzər dəniz nəqliyyatının fəaliyyəti neft sənayesinin inkişafı ilə sıx bağlı idi. Eyni zamanda, Xəzər donanmasının tərkibində buxar gəmilərinin sayı getdikcə artırdı. Buxar gəmiləri yelkənli gəmiləri tədricən sıxışdırırdı.

XIX əsrin sonunda yedək donanması da inkişaf edirdi. 1900-cü ildə bu donanmanın gəmilərinin sayı 1890-cı il ilə müqayisədə 56%, onların yüktutumu isə 85% artmışdı. Buna baxmayaraq Xəzər dəniz nəqliyyatının tərkibində yedək donanmasının xüsusi çəkisi o qədər də böyük deyildi [1, 145].

Bununla belə, dəniz nəqliyyatının inkişafı istiqamətində sərnişin daşımaları Azərbaycanın 1991-ci ildə müstəqillik əldə etməsindən sonra yeni mərhələyə qədəm qoydu. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu sahədə də mühüm dəyişikliklər edildi. Xəzər dəniz gəmiçiliyinin idarəsi çoxsahəli müəssisələri özündə birləşdirən iri gəmiçilik şirkəti yaradıldı. Onun tərkibində 1996-cı ildə üç gəmi təmiri zavodunu birləşdirən gəmi təmiri istehsalat birliyi, hövzə dəniz yolları idarəsi, Dəniz nəqliyyatı Dövlət Layihə və Elmi Tədqiqat İnstitutu, Mərkəzi Konstruktor Layihə bürosu, İnformasiya hesablama mərkəzi, Ticarət təchizat idarəsi və Dövlət Dəniz Akademiyası fəaliyyətə başladı.

2001-ci ildə Xəzər gəmiçiliyinin xarici sularda üzən 24 gəmisi dünyanın 135 limanına yük daşıdı. 2001-ci ilin son aylarına qədər Azərbaycan dünyanın təxminən 114 ölkəsi ilə ticarət əlaqəsi saxladı. Bu ölkələrə ixrac-idxal əməliyyatının ümumi həcmi 2206,3 milyon dolları təşkil etmişdir.

2000-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 13%, o cümlədən ixrac 20,9 %, idxal isə 1,4 % artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, xarici ticarət əlaqələrinin 80,6%-i xarici ölkələr, 19,4 %-i MDB ölkələri ilə aparılmışdır ki, bunun da 5,5 %-i su nəqliyyatı vasitəsi ilə həyata keçirilmişdir. Xəzər gəmiçilik idarəsinin kollektivi müstəqilliyimizin qorunması və möhkəmləndirilməsinə özlərinin əmək töhfələri ilə kömək etmişlər [6, 132].

2001-ci ildə Xəzər dənizçiləri Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində tankerlərlə 6 min. 63 min ton, gəmi bərələrə 1 min. 904 min ton yük daşıdı. Xəzər dənizçiləri yüklərin daşınması sahəsində xərclərin aşağı salınması işində də müvəffəqiyyətlərə nail oldular. Görülən tədbirlər nəticəsində bir ton yük daşımanın maya dəyəri 2001-ci ildə əvvəlki il ilə müqayisədə 12,5% yüksəldi, əmək məhsuldarlığı 2 % artdı [6, 133].

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycan Xəzər Gəmiçiliyi idarəsinin beynəlxalq əlaqələri də yeni müstəviyə qədəm qoydu. 1997-ci il noyabrın 26-da Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi ali beynəlxalq konvensiyaya imza atdı. 1998-ci ilin dekabrında Beynəlxalq Dəniz Təşkilatının, Baltik Beynəlxalq Dəniz Komitəsinin, Qara Dəniz Dövlətləri Gəmi sahibkarları Beynəlxalq Assosiasiyasının və Gəmilərin Beynəlxalq sığorta Klubunun üzvü oldu [6, 134].

Gəmiçiliyin inkişafı sahəsində əldə edilmiş nailiyyətlərə görə Azərbaycan 2001-ci ilin mayında yaxşı dənizçilik ölkəsi sayıldı və İMO-nun "Ağ siyahısı"na daxil edildi. Bir sıra ölkələrə dənizçilik üzrə işgüzar əməkdaşlığın genişlənməsi üçün müvafiq sazişlər imzalandı [6, 134].

Bundan bir qədər sonra Azərbaycan dəniz nəqliyyatının inkişafında daha bir uğura imza atıldı. Belə ki, 2002-ci ildə Bakı Gəmiqayırma Zavodu "Şahdəniz mərhələ 2" layihəsi çərçivəsində "İsrafil Hüseynov" borudüzən gəmisini, "Tofiq İsmayılov" dalğıc gəmisini, "Azərbaycan" kran gəmisini, "Caspian Endeavour" və "Seabed Supporter" təchizat gəmilərini, "Dədə Qorqud" yarımdalma qazma qurğusunu və "Gilavar" tədqiqat gəmisinin təmir və yenilənmə layihələrini həyata keçirdi.

2002-cü il aprelin 17-də "Bakı Gəmiqayırma Zavodu" MMC sualtı tikinti gəmisinin layihələndirilməsi və tikintisi barədə "Şahdəniz" qaz yatağının işlənilməsi və istismarı üzrə icraçı olan "BP Exploration" MMC ilə dəyəri 400 milyon dollara olan müqavilə imzalandı [6, 136].

2002-ci ilin dekabrın 26-da "Xankəndi" sualtı tikinti gəmisinin iki iri gövdə bölməsi müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə Bakıya gətirildi və bu iki hissə Bakı gəmiqayırma zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatdırıldı.

Aparılan araşdırmalar göstərir ki, "Xankəndi" gəmisi təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni dövrün başlanğıcı-

dır. Xəzər dənizindəki neft və qaz donanmasının yeni texnologiyalı ən müasir gəmisi olan "Xankəndi" suyun dərinliyi 550 metrədək olan hissələrdə qazma işlərinə başladı.

2003-cü il yanvarın 17-də Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev "Xankəndi" sualtı tikinti gəmisinin təqdimat mərasimində demişdir: "Bir daha deməк istəyirəm ki, bu çox əlamətdar, tarixi hadisədir. "Şahdəniz" qaz yatağının işlənilməsi bizim üçün strateji layihədir. Demək olar ki, artıq bu layihə reallaşıb. Bu gəmisiz "Şahdəniz"i böyük səmərə ilə işlətmək mümkün deyil"[8, 1].

2003-cü ilin mayın 28-də Azərbaycan dəniz nəqliyyatının inkişafında daha bir əlamətdar hadisə baş verdi. Xəzər dənizində aparılan uğurla yerinə yetirilən iqtisadi layihələrdən biri yarımdalma qazma qurğusu istifadəyə verildi [9, 36]. Bu qurğu Xəzər dənizində analoqu olmayan 6-cı nəsil qazma qurğusu hesab edilir. Dünyada öz texnoloji keyfiyyətləri və qazma xüsusiyyətlərinə görə unikallığı ilə fərqlənən bu qurğu qazma əməliyyatları üçün ən müasir avadanlıqla, o cümlədən böyük həcmdə avtomatik idarəetmə sistemi ilə təchiz edilərək, ümumi uzunluğu 106,5, eni 69,5, hündürlüyü isə 130 metr olmaqla, 26 min ton ümumi çəkiyə malikdir. Dənizdə suyun 1000 metr dərinliyə qədər hissələrində qazma əməliyyatları həyata keçirə bilən qurğu ilə 12,2 min metr dərinliyində quyu qazmaq mümkündür. Qurğunun müasir avadanlığı qazma işinin indikindən 4 dəfə daha sürətlə aparılmasını təmin edir.

**Nəticə.** Beləliklə, məlumatlardan göründüyü kimi, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bir çox sahələrdə, o cümlədən nəqliyyatın dəniz nəqliyyatı bölməsində də əhəmiyyətli dirçəliş nəzərə çarpmışdı. Bu sahədə təkcə dövlət əhəmiyyətli tədbirlər deyil, həm də beynəlxalq əhəmiyyətli layihələrdə Azərbaycanın təmsil olunması dəniz nəqliyyatının dirçəldilməsinə kömək etdi. Hələ ötən əsrin əvvəllərində olduğu kimi, dəniz nəqliyyatı Xəzər hövzəsi ölkələri ilə əlaqə saxlanmasında və onlarda çıxarılan neftin Azərbaycandan keçməklə dünya bazarına çıxarılmasında böyük əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan tarixi. Yeddi cilddə, IV cild (XIX əsr). - Bakı: Elm, - 2007. - 504 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə, VI cild (aprel 1920 – iyun 1941). - Bakı: Elm, 2008. - 568 s.
3. Cümşüdov S.Q., Əsədov A.M. Nəqliyyat infrastrukturunun inkişaf istiqamətləri. - Bakı: Təhsil NPM, - 2008. - 150 s.
4. Eminov A.N. Müstəqilliyin 25 illiyində Azərbaycan iqtisadiyyatı. - Bakı: Avropa press, - 2017. - 439 s.
5. Əliyev Ç.M., Yadigarov T.A. Azərbaycanın xarici iqtisadi əlaqələr sistemində dəniz nəqliyyatının rolu // Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, - Bakı,

2015, - №1. - s. 129-134
6. Əliyev Ə.S. Dəniz nəqliyyatı coğrafiyası. Ali dəniz məktəbləri üçün dərslik / R.C.Bəşirovun redaktəsi ilə. - Bakı: Avropa, - 2012. - 301 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir. XV kitab (mart 1998 – iyun 1998). - Bakı: Azərnəşr, - 2005. - 528 s.
8. Heydər Əliyevin "Xankəndi" sualtı tikinti gəmisinin təqdimat mərasimində çıxışı // Xalq qəzeti, 18 yanvar, 2003-cü il.
9. Məmmədov M. Nəqliyyatın dinamik inkişaf strategiyası. - Bakı: Çaşıoğlu, - 2015, - 227 s.
10. Məmmədov Z. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru. - Bakı: Azərnəşr, - 2002. - 386 s.
11. Musayev N. Müasir Azərbaycan dövlətinin banisi // Xalq qəzeti, 1 may, 2012-ci il.
12. Sultanov Ç. Bakı nefti dünya şahmat taxtasında. - Bakı: Teaspress, - 2005. – 563 s.
13. Ticarət Gəmiçiliyi Məcəlləsi. Azərbaycan Respublikasının qanunu. 22 iyun 2001-ci il. - // - https://e-qanun.az/framework/4355
14. Yadigarov T. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. - Bakı: Avropa, - 2018. - 336 s.
15. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı. XX əsrin II yarısında. - Bakı: Azərnəşr, - 2004. - 326 s.

## РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗРАБОТКЕ И ПОДГОТОВКЕ СТРАТЕГИИ РАЗВИТИЯ МОРСКОГО ТРАНСПОРТА В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ

**Парвиз С.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

Морской транспорт, занимающий особое место в мировой экономической системе, играет важную роль в развитии и расширении международных экономических связей, в формировании взаимоотношений между народами. В современное время невозможно представить международные экономические отношения без учёта морского транспорта, так как морской транспорт считается самым дешевым видом транспорта в глобальной единой транспортной системе по сравнению с другими видами транспорта (исключение составляет трубопроводный). С этой точки зрения развитие морского транспорта в Азербайджане имеет значимое положение. Проведенные исследования показывают, что морской транспорт играет большое значение в установлении связи со странами, расположенными в Каспийском бассейне. В научной статье на основе документов и фактов рассматривается исключительная роль *общенационального* лидера Гейдара Алиева в разработке стратегии развития транспорта и законодательной базы в независимой Азербайджанской Республике.

**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, морской транспорт, развитие, международные экономические отношения

# THE ROLE OF COMMON NATIONAL LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT AND PREPARATION OF A STRATEGY FOR THE ENLARGEMENT OF MARINE TRANSPORT IN INDEPENDENT AZERBAIJAN

**Parviz S.MAKHARRAMOV**

## SUMMARY

Marine transport, which occupies a special place in the global economic system, plays an important role in the development and expansion of international economic relations and in the formation of relationships between peoples. In modern times, it is impossible to imagine international economic relations without taking into account maritime traffic, because marine transport is considered the cheapest mode of transport in the global unified transport system compared to other modes of transport (with the exception of pipelines). From this point of view, the development of marine transport in Azerbaijan is significant. Conducted studies show that maritime traffic plays a great role in establishing communications with countries located in the Caspian basin. This scientific paper, based on documents and facts, examines the exceptional role of common national Leader Heydar Aliyev in developing a transport enlargement strategy and legislative framework in the independent Republic of Azerbaijan.

**Keywords*:*** Heydar Aliyev, Azerbaijan, marine transport, development, international economic relations

UOT 94 (479.24)

# XALQ HƏRƏKATININ TƏŞKİLİNDƏ "QIRMIZI TABOR"

**Sarışan N. ADIŞOVA***

*Məqalə Azərbaycan xalqının tarixində özünəməxsus yer tutan, xalq müqavimət hərəkatının ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərmiş "Qırmızı tabor" və onun yerli əhalinin müdafiəsində oynadığı rolun əhəmiyyətinə həsr olunmuşdur. Yerli özünümüdafiə dəstəsi kimi fəaliyyətə başlamış olan bu könüllü birləşmə xalq hərəkatının təşkilini qüsursuz şəkildə icra etmişdir. Məhz buna görə də elə ilk yarandığı vaxtdan etibarən qısa müddət ərzində xalqın etimadını qazanmışdır.*

*Bir tərəfdə yeni yaranan Sovet hökumətinin yerli əhaliyə qarşı münasibətindəki özbaşınalıqlar, digər tərəfdən hələ XX əsrin başlanğıcından bəri davam edən daşnak terroru bu könüllü dəstənin fəaliyyətinin mütəşəkkilliyini şərtləndirən vacib amillərə çevrilmiş oldu. Abbasqulu bəy Şadlinski tərəfindən yaradılmış olan bu birləşmənin tərkibində bir çox ərazilərdən olan el qaçaqları toplanaraq xalqın müdafiəsi işini öz üzərlərinə götürmüş oldular. Öz fəaliyyətini daha çox Vedibasar, Naxçıvan, Zəngəzur, Dərələyəz və ətraf ərazilərdə təşkil edən bu könüllü birləşmə eyni zamanda ətraf ərazilərin də daşnak özbaşınalıqlarından qorunmasında misilsiz rol oynamışdır. Elə buna görə də Sovet hökuməti tərəfindən yüksək qiymətləndirilən özünümüdafiə dəstəsi bir müddət sonra "Qırmızı tabor" adı altında fəaliyyət göstərmişdir.*

**Açar sözlər:** özünümüdafiə, xalq müqaviməti, "Qırmızı tabor", Abbasqulu bəy Şadlinski, Vedi

***Tarix öz hökmünü hər zaman ən sərt şəkildə verir. Onun ədalət kürsüsündə bəziləri uşaqtək cılızlaşır, bəziləri isə bu sınaqdan üzüağ çıxır. Gələcək nəsillərə isə ondan ibrət götürməkdən başqa heç nə qalmır.***

**Giriş.** Adı qədər qədim və şanlı tariximiz bütün dövrlər boyunca şiddətli sınaqlardan keçməli olub. Bu mərhələlərdən ən təsirli və yaddaqalanlarından biri, şübhəsiz ki, xalqımızın Cümhuriyyətin süqutundan sonrakı taleyi mərhələsidir. Sovet hökumətinin işğalı səbəbi ilə əlimizdən çıxan "azadlıq" kəliməsi bütün azərbaycanlıların qəlbinin ən dərinliklərində yaşamaqda davam etmişdir. Lakin düşüncələrə qoyulan qadağalar xalqa yeni yaranmış hökumət və onun nümayəndələrinə qarşı nifrət aşılamaqdan başqa heç bir işə yaramadığını qarşıdakı illərin hər birində misliylə sübuta yetirdi.

****Bakı Dövlət Universitetinin doktorantı;* sarishanadishova@gmail.com*; ORCİD İD: 0009-0003-2475-2338***

Cümhuriyyətin Sovet işğalı nəticəsində dağılmasından sonra ölkəmizin, demək olar ki, hər bir bölgəsində milli azadlıq hərəkatı ruhlu çıxışlar başlanmış oldu. Bu milli hərəkat elə başladığı qısa müddət ərzində də Sovet qüvvələrinin şiddətli hücumlarına dözməyərək öz fəaliyyətini qanlı şəkildə başa vurdu. Amma Sovet rəhbərliyi xalqı hərəkətə gətirəcək iki ən güclü qüvvədən biri olan qorxu faktorunu nəzərdən qaçırmışdı. Məhz həmin şiddətli təzyiqlər xalq hərəkatının yenidən ortaya çıxmasına səbəb oldu. Qısa müddət ərzində Vedi bölgəsində Abbasqulu bəy Şadlinskinin rəhbərliyi altında fəaliyyətə başlayan yerli özünümüdafiə qüvvələri daşnak hücumlarının əsas müqavimətçisinə çevrildi. Öz tərkibində bir çox ətraf ərazilərdən olan el qaçaqlarını birləşdirən bu dəstənin fəaliyyəti bir müddət sonra Sovet hökumətinin də maraqlarına cavab vermiş oldu. Sonrada "Qırmızı tabor" adlandırılan bu birləşmə daşnak hücumlarının qarşısında əsas maneəyə çevrildi. Bütün bunlara baxmayaraq taborçuların bir çoxunun Sovet hökumətinə qarşı münasibəti birmənalı olmadığından sonrakı dövrlərdə baş vermiş antisovet ruhlu çıxışların da əsas iştirakçıları məhz bu tabor üzvləri oldular.

**Mövzunun aktuallığı.** "Qırmızı tabor"un yaradılması, onun keçdiyi şərəfli döyüş yolu, eləcə də xalqımız qarşısındakı xidmətləri, fikrimizcə, o qədər də geniş şəkildə araşdırılmamışdır. Xüsusilə Naxçıvan, Zəngəzur, eləcə də Qərbi Azərbaycan torpaqlarının müdafiəsini öz üzərinə götürən bu taborun fəaliyyətinin öyrənilməsi və elmi-tədqiqata cəlb edilməsi böyük tarixi əhəmiyyətə malikdir. Qeyd etmək labüddür ki, taborla yanaşı sonradan Sovet hökumətinin təzyiqləri qarşısında tab gətirməyərək ölkəni tərk etmək məcburiyyətində qalmış tabor üzvlərinin də sonrakı taleyi məsələsi olduqca vacib nüanslardandır. Sovet rəhbərliyi bütün sahələrdə olduğu kimi taborçulara da sərt yanaşmışdır. Daşnaklara qarşı tabordan istifadə edilsə də, hökumət əleyhinə fəaliyyət göstərmiş tabor üzvü olan el qaçaqlarına divan tutmaqdan çəkinməmişdir. Belə ki, onların ailələrinə belə aman verməyərək bir çoxunun ya ölkə xaricinə, ya da ölkə daxilində deportasiyaya məruz qalmasına səbəb olmuşdur. Onların hər birinin xalqımızın daşnak hücumlarından və Sovet hökumətinin özbaşınalıqlarından qorunmasında göstərdiyi əvəzsiz şücaətləri və sonrakı talelərі dəqiq şəkildə araşdırılmalıdır.

Bütün bu səbəblər bəhs olunan mövzunun müasir dövr üçün böyük tarixi yükünü açıb göstərmiş olur. Xüsusilə Qərbi Azərbaycan torpaqlarının əsas müdafiəçisi olan bu taborun və taborçuların elmi-tədqiqata cəlb olunması müasir siyasi proseslər baxımından da taleyüklü məsələdir.

**"Qırmızı tabor"un yaradılmasının tarixi əhəmiyyəti.** XX əsrin 20-30-cu illərində Qərbi Azərbaycan, Zəngəzur, Qarabağ və bir çox ətraf ərazilərin daşnak özbaşınalıqlarından və eləcə də Sovet qüvvələrindən qorunmasında başlıca mütəşəkkil qüvvə "Qırmızı tabor" olmuşdur. Öz tərkibində müxtəlif ərazilərdən olan xalq qaçaqlarını birləşdirən özünümüdafiə qüv-

vələri xalqın yeni yaranan Sovet hakimiyyətinin öldürücü siyasi xəttindən və eyni zamanda uzun müddət davam edən daşnak terrorundan qorunmasında mərkəzi mövqedə olmuşdur desək yanılmış olmarıq. Beləliklə də, tərkibcə geniş olmasına baxmayaraq onları birləşdirən vahid amal- xalqın üzləşdiyi istənilən zülmün qarşısını almaq dəstənin fəaliyyətini düzgün şəkildə davam etdirməsində mayak rolunu oynadı.

Bu özünümüdafiə birləşməsinin yaradılması 1918-ci ilə təsadüf edir [4, 338]. Yarandıqdan sonrakı dövrdə əsasən Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur, Vedibasar, Göyçə və digər qonşu bölgələrdə yaşayan əhalinin daşnak və eyni zamanda müxtəlif Sovet hakimiyyəti orqanları nümayəndələrinin zorakılığından müdafiə edilməsini məhz bu könüllü birləşmə həyata keçirmişdir. Belə ki, bəzi ədəbiyyatlarda əslində dəstənin fəaliyyət istiqamətləri içərisində yerli bəy və ağalara qarşı mübarizə də əks etdirilməsinə baxmayaraq, fikrimizcə, həmin dövrdəki siyasi təzyiqlərin ucbatından qeyd olunan bu məlumat bir o qədər də həqiqətə uyğun deyildir. Çünki yerli bəy və ağalara qarşı münasibətdə istər xalq, istərsə də qaçaqlar içərisində həmin dövr ərzində nəzərəçarpacaq dərəcədə mənfi münasibət olduğunu düşünmək yersiz olardı. Çünki xalqın qarşısında daha böyük daşnak maneəsi dayanırdı. Sonrakı dövrlərdə isə kifayət qədər tədqiqatların aparılmaması nəticəsində həmin məlumat yeni ədəbiyyatlarda da eyni qaydada qeyd olunmuşdur.

**Abbasqulu bəy Şadlinski xalqın müdafəçisi kimi.** Taborun qurulması isə Abbasqulu bəy Şadlinskinin adı ilə bağlıdır. İrəvanın Böyük Vedi kəndində 1886-cı ildə Xanbaba bəyin ailəsində dünyaya göz açan Abbasqulu bəy deyilənlərə görə, hələ balaca olarkən belə istər fiziki, istərsə də mənəvi cəhətdən güclü bir şəxsiyyət kimi formalaşmış, öz yaşıdlarından fərqlənmişdir [3, 7]. O, balaca olarkən atasını itirdiyindən ailənin bütün yükünü öz çiyinlərində daşımaq məcburiyyətində qalmışdır [5, 219]. Anasının təkidləri əsasında 1894-cü ildə Vedidəki rus-tatar məktəbinə yazılmasına baxmayaraq 1902-ci ildə oradakı təhsilini də yarımçıq qoyaraq öz evlərinə geri qayıdır. Uşaqlıq və gənclik illəri inqilablar və siyasi çəkişmələr dövrünə təsadüf etdiyindən bu mühit onun xarakterinin formalaşmasında əsas faktora çevrilmiş oldu [3, 7]. Rusiyanın I Dünya müharibəsindəki məğlubiyyətindən sonra öz ölkələrinə geri qayıdan rus qoşunlarının silahlarını daşnaklara təhvil verməklə yaratdıqları təfriqə bu ərazidə hələ 1905-1911-ci illərdən davam edən lokal münaqişəni daha da alovlandırır. Daşnakların Böyük Vedi kəndində törətdikləri özbaşına əməllərə qarşı yerli müqavimətin vacibliyini anlayan Abbasqulu bəy bu missiyanı öz üzərinə götürür. Burada yerli xalq qaçaqlarının dəstəyi ilə yaradılan könüllü birləşməyə rəhbərlik etməyə başlayır. Qısa müddət ərzində İrəvanın ermənilərə verilməsindən sonra belə bu yerli özünümüdafiə dəstəsi Vedinin erməni daşnaklarından qorunmasında əfsanəvi şücaət göstərir. Vedibasarın müdafiəsini ustalıqla təşkil edən

Abbasqulu bəy həmin bölgəyə olan iki güclü daşnak hücumunun qarşısını böyük cəsarətlə alır. Bu hücumlardan birincisi 1918-ci ilin may ayının sonu, iyun ayının əvvəllərində baş tutmuşdur. Erməni-daşnak hücumu barəsində məlumat əldə olunan kimi Abbasqulu bəy təcili surətdə əks-tədbirlər həyata keçirməyə başlayaraq "Gavurqala" və "Daşlı" istehkamlarının düşmən hücumundan müdafiə üçün hazır vəziyyətə gətirilməsini təşkil edir. Şiddətli və inadlı müqavimətə baxmayaraq vəziyyətin ağırlığını görən Naxçıvan və Şərur-Dərələyəz mahallarının camaatı Kərim xan İrəvanlının vasitəçiliyi ilə Türkiyədən yardım istəyirlər. Həmin vaxt Türkiyənin Şərq qoşunlarına rəhbərlik edən Mehmet Vehib paşa iyun ayının 4-də gəlib həmin əraziyə çataraq daşnakların Naxçıvan və ətraf ərazilərə müdaxiləsinin qarşısını alır [2, 74-81]. 1918-ci ilin iyul ayında Aydoğmaz adlı yerdə 17 nəfər daşnak mauzerçisinin öldürülməsi böyük hay-küyə səbəb olur. Öldürülənlərin qan haqqı daşnaklar tərəfindən Vedibasar camaatından tələb olunarkən isə yerli əhalinin buna kəskin etirazından sonra daşnak-quldur dəstələrinin əraziyə növbəti mütəşəkkil hücumu baş tutur. Belə ki, hücumçuların içərisində, hətta Dro (Drastamat Kanayan), Aram paşa, Dəli Kazo və Bek-Pirimovun (Daniel bek Pirimyan) daşnak alayları iştirak edirdi. Bütün bunlara baxmayaraq daşnak alaylarının hər biri taborçular tərəfindən mərdliklə dəf edilir [2, 83-87].

Lakin 1920-ci ildən müqavimətin çətinliyini nəzərə alaraq bu birləşmə Naxçıvan vasitəsilə İran torpaqlarına pənah aparmış, sonradan isə Naxçıvanda Hərbi İnqilab Komitəsində sədr vəzifəsini icra edən Bahadur Vəlibəyovun təklifi ilə Naxçıvana geri dönərək oranı özünə qərargah olaraq seçmişdir [6, 90]. Həmin ilin sentyabrın 17-də Naxçıvana geri qayıtdıqdan sonra isə bölgədə fəaliyyət göstərən "Qırmızı qvardiya"nın ona birləşdirilməsi nəticəsində öz şəxsi heyəti 200 nəfər olan dəstə artıq "Qırmızı tabor" adı ilə fəaliyyət göstərərək tərkibcə daha da genişlənmişdir [1, 155]. Əvvəlcə Naxçıvanın daşnak hücumlarından qorunması öhdəliyini öz üzərinə götürən tabor, sonradan Zəngəzur başda olmaqla bir çox qonşu bölgələrdə daşnaklara qarşı mübarizənin əsas təşkilatçısına çevrilmişdir [1, 155].

Böyük bir ərazinin qorunmasının əsas təşkilatçısı olan bu tabor, hətta Ermənistanda qurulan Sovet hakimiyyətinin daşnaklara qarşı mübarizəsində ən güclü dayaqlarından birinə çevrilmişdir. Abbasqulu bəy və silahdaşları Ermənistanda 1921-ci ildə Sovet hökumətinə qarşı baş qaldıran daşnak üsyanının yatırılmasında bilavasitə əhəmiyyətli dərəcədə yaxından iştirak etmişdirlər [1, 155]. Təsadüfi deyildir ki, bu taborun A. Şadlinski də daxil olmaqla bəzi qaynaqlara görə 19 [4, 338], bəzi qaynaqlara istinadən isə 21 [6, 91] üzvü "Qırmızı bayraq" ordeni ilə təltif edilmişdir.

Lakin bütün bunlar o demək deyildir ki, bu taborun bütün üzvləri öz fəaliyyəti dövründə Sovet hökuməti ilə əməkdaşlıq etmişdir. Cəmi bir neçə ildən sonrakı hadisələr bunu açıq şəkildə sübut edir. "Qırmızı tabor"un bir

çox üzvləri Sovet hökumətinin həyata keçirdiyi kollektivləşmə siyasəti ilə yanaşı mənəvi sahədəki bir sıra öldürücü tədbirlərə qarşı kəskin etiraz edərək mübarizəyə başlamışdırlar. Qeyd etmək lazımdır ki, sonrakı dövrlərdə "Qırmızı tabor"un daxilindəki parçalanma prosesində mühüm səbəblərdən biri və birincisi də məhz bu olmuşdur. Çünki Abbasqulu bəyin Sovet hökumətinə qarşı bəslədiyi münasibət onun silahdaşlarının bir çoxundan fərqli olmuşdur. Yeni hökuməti dəstəkləməyən tabor üzvlərinin böyük əksəriyyəti dəstədən ayrılaraq öz narazılıqlarını bildirməklə yeni yaranan Sovet hakimiyyətinə qarşı mübarizəyə başlamışdırlar.

**Şadlinskinin silahdaşları.** Abbasqulu bəyin dəstəsində fəaliyyət göstərən silahdaşları bütün elin igidlərindən toplanmışdı. Onların birini digərindən fərqləndirmək və ya ayırmaq qeyri-mümkündür. Buna baxmayaraq təbii ki, ona yaxın olan, sözünü və məsləhətini dinləyərək hərəkət etdiyi silahdaşları içərisində Kərbəlayi İsmayıl Məhərrəm oğlu Hacıyev və Qəmbəralı İsmayıl oğlu Abbasov kimi şəxslərin adlarını çəkmək mümkündür. Bir nüansı da qeyd etmək vacibdir ki, Kərbəlayi İsmayıl Vedibasara hücum edən daşnak dəstələrinə qarşı müstəqil şəkildə mübarizə aparmışdır. Hələ ilk dövrlərdə Vedibasarda fəaliyyət göstərən "Mübariz dəstə"nin Çimənkənddəki hissələrinə Kərbəlayinin qohumu olmasına baxmayaraq qan düşmənçiliyi olan xalaoğlusu Mikayıl Usub oğlu rəhbərlik etdiyindən onun oğulları və digər qohumlarının heç biri həmin dəstəyə yox, İsmayılın müstəqil fəaliyyət göstərən dəstəsində birləşirlər [2, 215]. Ümumiyyətlə, Abbasqulu bəylə çox yaxın olan qohumluq və dostluq münasibətinə baxmayaraq o, "Qırmızı tabor"un tərkibində fəaliyyət göstərməmişdir. Lakin bölgənin müdafiəsində fəal surətdə iştirak edən Kərbəlayi İsmayıl bir çox bölgələrdə törədilən daşnak özbaşınalıqlarına qarşı dirənişin əsas üzvlərindən biri olmuş, Abbasqulu bəyin sağ əli kimi hər zaman onun köməyinə yetişmişdir.

Onun ən yaxın silahdaşlarından biri də Qəmbəralı Abbasov (Qəmlo) olmuşdur. 1917-1920-ci illərdə Vedibasarın daşnak hücumlarından müdafiəsində qəhrəmanlıqla iştirak edən Qəmlo Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonrakı dövrlərdə də Cığındərə kəndlilərindən təşkil etdiyi dəstəsi ilə qaçaq həyatını davam etdirmişdir. O, həm də Kərbəlayi İsmayılla qohum olmuşdur. Qəmlonun qardaşı Şahpələng Kərbəlayi İsmayılın qardaşı qızı Cahan xanımla evlənmişdir [2, 227-229].

Qeyd edək ki, Abbasqulu bəy Şadlinskinin Sovet hakimiyyətinə münasibəti yaxın köməkçiləri olan Kərbəlayi İsmayıl və Qəmlodan fərqli olduğundan o, dəfələrlə onların rəhbərliklə olan əlaqələrinin tənzimlənməsində vasitəçilik etsə də, müsbət nəticə əldə edə bilməmişdir. Sonrakı dövrlərdə isə Sovet hakimiyyət orqanları tərəfindən həyata keçirilən kolxozlaşma siyasətinin qolçomaqları bir sinif olaraq məhv etmək planı birbaşa yerlərdəki bəy və ağaları hədəf aldığından Qəmlo və Kərbəlayi İsmayıl hakimiyyət

əleyhinə təşkil edilən 1929-1930-cu illərdəki üsyanın ən aktiv iştirakçıları olmuşdurlar. Amma yenə də onların Abbasqulu bəylə olan siyasi dünyagörüşü müxtəlifliyi dostluq əlaqələrinin önünə keçə bilməmişdir. Beləliklə də, siyasi təzyiqlər ucbatından Abbasqulu bəy Şadlinskinin ölümünün onun ən yaxın silahdaşları ilə əlaqələndirilməsi tamamilə yanlışdır. Bu da Sovet hakimiyyət orqanlarının qolçomaqlara qarşı kəskin siyasi xətt tutduğu illərdə əhali içərisində yüksək nüfuza malik olan bəy və ağalara qarşı mənfi münasibət formalaşdırılması məqsədilə hazıladığı təbliğatdan başqa bir şey deyildir. Hətta yazıçı Fərman Kərimzadə tərəfindən bu dövrlə bağlı qələmə alınmış qiymətli əsərlərdən biri olan "Qarlı aşırım" romanında siyasi təzyiqlər ucbatından dəqiq tarixi faktların bilərəkdən saxtalaşdırılması halları da bizə məlumdur. Qəmbəralının övladlarının verdiyi məlumata görə, yazıçı Fərman Kərimzadə siyasi təzyiqlər ucbatından əsərində hadisələrin gedişatını bu cür qələmə alması səbəbindən ailə ilə görüşərək onlardan üzr istəmişdir. Bu hadisə yuxarıdakı faktı bir daha təsdiqləyir.

**Nəticə.** Yekun olaraq bütün bunlar onu deməyə əsas verir ki, vətən tariximizdə "Qırmızı tabor" adı altında fəaliyyət göstərmiş özünümüdafiə birləşməsi XX əsrin əvvəllərində xalqımıza qarşı törədilən bir sıra qanlı cinayətlərin qarşısının alınmasında əvəzsiz xidmətlər göstərmişdir. Qeyd olunan dövrdə qarşıda dayanan məsələlər daha mürəkkəb xarakterə malik olduğundan onun məntiqi nəticəsi olaraq belə bir dəstənin yaradılmasına ehtiyac duyulmuşdur. Belə ki, ən böyük problemlərdən biri olan daşnak dəstələrinə qarşı əhalinin müdafiəsində təkcə milli müqavimətin kifayət etməməsi xalq müqavimətinin də köməkçi mövqedən iştirakına gətirib çıxarmış oldu. Həmin vaxtdan başlayaraq ikinci dəfə zəruri müdafiə üsulu kimi yenidən aktuallaşan qaçaq hərəkatının da ideoloji mövqeyinin bu taborla kəsişməsi xalq müqavimətinin təşkili işində hər iki qüvvənin birləşməsinə gətirib çıxarmış oldu.

Bu mübarizədə digər bölgələrdən fərqli olaraq yalnız Vedibasar ərazisində dəstənin fəaliyyətə başlaması, fikrimizcə, ilk növbədə həmin ərazinin erməni-daşnak təcavüzünə daha sıx və müntəzəm olaraq məruz qalmasının nəticəsi hesab oluna bilər. İkincisi isə, bəhs olunan ərazilər hələ XIX əsrin ikinci yarısından başlayaraq qaçaq hərəkatının daha geniş və mütəşəkkil surətdə baş qaldırdığı ərazilər olmaqla dəstənin yaradılması prosesində yaxından iştirak etmişdirlər. Nəhayət, son olaraq, ümumiyyətlə, Azərbaycanın Qərbi, Naxçıvan, Qarabağ, Zəngəzur bölgələri Sovet hakimiyyətinin qurulması dövründən başlayaraq ərazi olaraq mübahisəli bölgələr hesab olunduqlarından həmin torpaqlarda müdafiə məsələsi daha aktual xarakter daşımış və hər bir halda onun zəruriliyini göz önünə gətirmişdir.

Qərbi Azərbaycan torpaqları mərkəz olmaq şərtilə Naxçıvan, Zəngəzur, Zəngibasar, Göyçə, Dərələyəz və eyni zamanda ətraf ərazilərin XX

əsrin əvvəllərində daşnak quldurlarından qorunması bilavasitə könüllü şəkildə fəaliyyət göstərən "Qırmızı tabor"un adı ilə bağlıdır. Rəsmi mövcudluq müddəti kiçik tarixi dövrü əhatə etməsinə baxmayaraq bu taborun qeyri-rəsmi fəaliyyəti 1930-cu illəri də əhatə etməkdədir. Eyni zamanda yeni yaradılan Sovet hökumətinə qarşı münasibətdəki fikir ayrılıqları məsələsi birləşmənin tərkibində müəyyən dilemmalara gətirib çıxarsa da, əsas qayə olan xalqın müdafiəsi hər bir halda vacib məqsəd olaraq ön planda dururdu.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. – Bakı: Lider nəşriyyat, - 2005, - 472 s.
2. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski.- Bakı: Sabah, - 1996, - 320 s.
3. Əliyev Ə. Qırmızı Tabor. - Bakı: Gənclik, - 1990, - 48 s.
4. Naxçıvan ensiklopediyası: 2 cilddə /I cild.- Təkmilləşmiş və yenidən işlənmiş II nəşri. – Naxçıvan: Naxçıvan Ensiklopediyası, - 2005.- 380 s.
5. Ocaqquliyev H. Yadda Qalan xatirələr.- Bakı: Elm və təhsil, - 2016, -503 s.
6. Şamil Ə. Dastanlaşmış ömürlər.- Bakı: Səda, - 2001, - 96 s.


## "КРАСНЫЙ ТАБОР" В ОРГАНИЗАЦИИ НАРОДНОГО ДВИЖЕНИЯ

**Саришан Н. АДИШОВА**

**РЕЗЮМЕ**


Статья посвящена значению "Красного табора", занявшего особое место в истории азербайджанского народа, выступившего неотъемлемой частью движения народного сопротивления, и той роли, которую он сыграл в защите местного населения. Это добровольное объединение, возникшее как местный отряд самообороны, безупречно осуществило организацию народного движения. Именно поэтому за короткий период времени с момента своего создания он завоевал доверие народа.

С одной стороны, произвол новой советской власти по отношению к местному населению, а с другой стороны, дашнакский террор, продолжавшийся с начала XX века, стали важными факторами, определяющими организационную деятельность этого добровольческого отряда. Этот отряд, созданный Аббасгулу беком Шадлинским, собрал гачагов из многих регионов и взял на себя задачу защиты народа. Этот добровольческий отряд, организующий свою деятельность преимущественно в Ведибасаре, Нахчыване, Зангезуре, Дарелайзе и прилегающих районах, также сыграл беспрецедентную роль в защите сопредельных территорий от дашнакского произвола. Именно поэтому отряд самообороны, получивший высокую оценку советского правительства, через некоторое время действовал под названием "Красный табор".


**Ключевые слова:** самооборона, народное сопротивление, "Красный Табор", Аббасгулу бек Шадлинский, Веди

## "RED TABOR" IN THE ORGANIZATION OF THE PEOPLE'S MOVEMENT

**Sarishan N. ADISHOVA**

### SUMMARY

The article is dedicated to the importance of the "Red tabor", which has a special place in the history of the Azerbaijani people, was active as an integral part of the people's resistance movement, and the role it played in the defense of the local population. This voluntary association, which started as a local self-defense unit, flawlessly executed the organization of the people's movement. That is why it has gained the trust of the people in a short period of time since its inception.

On the one hand, the arbitrariness of the new Soviet government's attitude towards the local population, and on the other hand, the Dashnak terror, which has been going on since the beginning of the 20th century, became important factors determining the organization of the activities of this volunteer group. This association, which was created by Abbasgulu Bey Shadlinski, gathered people fugitives from many areas and took upon themselves the task of protecting the people. This volunteer group, which organizes its activities mostly in Vedibasar, Nakhchivan, Zangezur, Darelayaz and surrounding areas, also played an unparalleled role in protecting the surrounding areas from Dashnak arbitrariness. That is why the self-defense group, which was highly appreciated by the Soviet government, operated under the name "Red tabor" after some time.

**Keywords:** self-defense, popular resistance, “Red tabor”, Abbasgulu bey Shadlinsky, Vedi

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Humanitar elmlər seriyası 2024***

## JURNALİSTİKA

**UOT 002.2; 050**

# HEYDƏR ƏLİYEVİN NAXÇIVANA TARİXİ QAYIDIŞI VƏ SİYASİ FƏALİYYƏTİNİN CƏMİYYƏTƏ ÇATDIRILMASINDA MƏTBUATIN ROLU
## (1990-cı illərin mətbuatına analitik baxış)

**Namiq Q.ƏHMƏDOV***

*1990-cı ilin 22 iyulunda Naxçıvana gələn Heydər Əliyev o vaxtkı ittifaq və respublika rəhbərliyinin siyasi təqiblərinə və əsassız böhtanlarına məruz qaldı. Amma xalqa arxalanan böyük siyasətçi və dövlət xadiminin Naxçıvandakı siyasi fəaliyyəti sonralar bütün Azərbaycanın taleyini həll etdi. Bu ağır və böhranlı dövrdə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın illərdən bəri planlaşdırılan işğalına imkan verilmədi, bu qədim diyarın müdafiə qüdrəti möhkəmləndirildi, inkişafı üçün ardıcıl tədbirlər həyata keçirildi.*

*O dövrün mətbuat orqanları, xüsusən də hakimiyyətə bağlı KİV-lər Heydər Əliyevin Naxçıvana qayıdışını böhtanlarla qarşıladı. Həmin dövrdə Heydər Əliyevin fikirlərini mətbuata çıxarmaq yasaq edilmişdi. Azərbaycanın sabiq rəhbərliyi bu böyük şəxsiyyəti tam blokadaya almağa cəhd göstərirdi. Amma "Varlıq","Azadlıq", "Ədalət", "Yurddaş", "Səs", "Mədəniyyət", "Respublika", "İki sahil", "Vətən səsi", "Naxçıvan", "Aydınlıq" kimi respublika mətbuatında, eləcə də Saatlıda nəşr olunan "Dönüş" kimi yerli mətbuat orqanlarının səhifələrində Naxçıvanla bağlı dərc edilən xəbər və materiallarda xalqın azadlıq səsi eşidilməkdə idi. Naxcıvanla bağlı xəbərlərin yayınına ciddi qadağalar qoyulsa da, Azərbaycan jurnalistikasının fədakar nümayəndələri Naxçıvan həqiqətlərinə və Heydər Əliyevin fəaliyyəti ilə bağlı olan xəbərlərə müntəzəm yer ayırmalarını özlərinin vətəndaşlıq və jurnalist borcu adlandırırdılar. Hətta bir sıra ümumittifaq mətbuatında, o cümlədən mərkəzi mətbuatda da hadisələrə real və ədalətli münasibətlərin ortaya qoyulması gündəmdə olmuşdur.*

*Məqalədə görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərin mətbuatda işıqlandırılması məsələləri və mətbuatın mövqeyi araşdırılır. Tarix önündə o qədər də böyük olmayan bu dövrün xüsusi əhəmiyyətə malik olması və Ulu Öndərin böhranlı bir zamanda mətbuatın mövqeyinə verdiyi qiymət faktlarla göstərilir.*

**Açar sözlər:** Heydər Əliyevin siyasi fəaliyyəti, Naxçıvan dövrü, siyasi təqib, mətbuat orqanları, mətbuatın mövqeyi

---

* ***Bakı Dövlət Universitetinin müəllimi; filologiya üzrə fəlsəfə doktoru; namiqahmadov@bsu.edu.az; ORCİD İD: 0000-0003-1970-182X***

**Giriş.** Bütün xalqların və millətlərin həyatından keçən bəzi taleyüklü məsələlər olub ki, bu yerdə dərin ağıl, zəka, iradə və uzaqgörənlik son dərəcədə əhəmiyyətli rol oynamışdır. Bu baxımdan Naxçıvan tarixinin, eləcə də Azərbaycanın ən çətin günlərində Heydər Əliyev faktorunun ortaya çıxması həm də tarixi bir reallıqdır. Heydər Əliyevin 1990-cı ilin 22 iyulunda Azərbaycana-Naxçıvana qayıdışı tarixi bir hadisə idi. Ölkə mətbuatının, xüsusən də hakimiyyətə bağlı olan mətbuat orqanlarında bu tarixi hadisə haqqında bircə sətir də dərc olunmamasının səbəbləri o dövrdəki hakimiyyətin qadağaları ilə əlaqədar olsa da tarixi həqiqətləri inkar etmək və gizlətmək mümkün olmamışdı. Bir ilk olaraq bütün qadağalara baxmayaraq Naxçıvanda nəşr edilən "Varlıq" qəzeti [26] iyulun 25-də Əli Şamilin, ondan bir gün sonra isə "Şərq qapısı" qəzeti [23] Möhsün Möhsünovun Heydər Əliyevlə müsahibələrini dərc etmişdi. Bunlar Heydər Əliyevin Azərbaycana-Naxçıvana tarixi qayıdışından sonra mətbuatın dərc etdiyi ilk müsahibələr idi. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və müstəqillik ideyalarının cəmiyyətə çatdırılmasında "Şərq qapısı" qəzetinin fəaliyyətini daha əvvəl yayımladığımız tədqiqatımızda [13] geniş təhlil etdiyimiz üçün bu mövzunu təkrar yazmağı məqbul hesab etmədik. Yeri gəlmişkən qeyd edək ki, o dövrdə Heydər Əliyevin fəal təbliğatçılarından olan və mətbuat tədqiqatçıları tərəfindən bu gün də yetərincə öyrənilməyən "Varlıq" qəzeti 20 yanvar hadisələrindən sonra Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki tarixi çıxışının tam mətnini ilk dəfə çap edən qəzet olmuşdur. "Varlıq"ın birinci sayında çap olunan bu çıxışın mətni sonralar – 1990-cı ilin aprel və iyun aylarında Naxçıvanda yenidən 20 min tirajla çap olunub bütün Azərbaycana yayılmışdır.

Naxçıvana qayıdış Heydər Əliyevin siyasi arenaya yenidən qayıdışı olduğu kimi, həm də bütün Azərbaycanın xilası oldu. Başqa sözlə desək, böyük siyasətçiyə siyasi iradə və güc verən Naxçıvan, onu siyasi arenaya qaytarmaqla özünü də yox olmaq təhlükəsindən xilas etdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyildiyi kimi "*Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi*" [8]. Eyni zamanda mətbuat sonralar da böyük inamla təsdiqlədi ki, "*Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bu günümüzə, sabahımıza bələdçilik edən ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətində 1990-1993-cü illər Naxçıvan dövrü mühüm yer tutur*" [25].

Heydər Əliyevin özü də bu illərin mahiyyətini ayrıca vurğulayaraq

muxtar respublika sakinləri ilə görüşlərinin birində demişdi: ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur"* [19].**

**Xalqın Heydər Əliyev sevgisi mətbuatın gündəmində.** Dövrün mətbuat orqanlarında - "Kommunist", "Sovet kəndi" və digər hakimiyyət qəzetlərində Heydər Əliyevin Naxçıvana qayıdışının motivləri ziddiyyətli məlumatlarla "dəyərləndirilsə" də, yeni dövrü nəşrlər bu məsələdə real və demokratik mövqedə dayana bildilər. Azərbaycan jurnalistikasının fədakar nümayəndələri olan Mirzə Əsgərov ("Azərinform"un müxbiri), Əmir Mustafayev ("Respublika" qəzetinin baş redaktor müavini, sonralar "Azərbaycan" qəzetinin baş redaktoru), Vüqar Rəhimzadə ("İki sahil" qəzetinin baş redaktoru), Əhməd İsayev ("Respublika" qəzetinin baş redaktoru), Əli Şamil ("Şərq qapısı" və "Varlıq" qəzetlərinin əməkdaşı), Şahmar Əkbərzadə ("Mədəniyyət" qəzetinin baş redaktoru), Teymur Əhmədov ("Vətən səsi" qəzetinin baş redaktoru, sonralar, "Respublika" qəzetinin baş redaktoru), Möhsün Möhsünov ("Şərq qapısı" qəzetinin əməkdaşı), Mais Səfərli ("Yurddaş" qəzetinin baş redaktoru), Xeyrəddin Qoca ("Dan ulduzu", sonralar "Yeni Azərbaycan" qəzetinin baş redaktoru) və başqaları Naxçıvan həqiqətlərinə və Heydər Əliyevin fəaliyyəti ilə bağlı olan xəbərlərə müntəzəm yer ayırmalarını özlərinin vətəndaşlıq və jurnalist borcu adlandırırdılar. Maraqlıdır ki, mərkəzi mətbuatda da hadisələrə real və ədalətli münasibətlərin ortaya qoyulması gündəmdə olmuşdur. "Pravda", "İzvestiya", "Trud" kimi mərkəzi mətbuat orqanlarının Naxçıvan reallıqlarına səhifələrində yer ayırması həm də Heydər Əliyevin siyasi qüdrətindən irəli gəlirdi. Yeri gəlmişkən qeyd edilməlidir ki, Heydər Əliyevin hələ Naxçıvana qayıdışından xeyli əvvəl "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova verdiyi tarixi müsahibə bu yolda ciddi bir örnək sayıla bilər [21, 20-41].

Heydər Əliyevin 1990-cı ilin 20 yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək ictimaiyyət nümayəndələri qarşısında cəsarətli və özünəməxsus çıxışı, 20 yanvar faciəsinə verdiyi tarixi qiymət, onun günahkarlarının cəzalandırılması tələbi mətbuatın xalqa təqdim etdiyi bir reallıq olmaqla, həm də onun şəxsi həyatına təhlükə yaratmaqda idi. Sov.İKP MK-nın baş təbliğat maşını olan "Pravda" qəzetində dərc olunmuş "Əliyevçilik, yaxud əyyamların xiffəti" məqaləsi [11] əslində Heydər Əliyevə qarşı siyasi təqiblərin başlanmasından xəbər verirdi. Bundan az sonra "Kommunist" qəzetində "Bu da tayfa oyunudur?" məqaləsinin [27] yer almasının məqsədi də Heydər Əliyevin Azərbaycana gələn yollarının bağlanması üçün idi.

Nə qədər fitnə-fəsad və təcavüz cəhdləri olsa belə, ulu öndərin haqq yolunu bağlamaq mümkün olmadı. Düzdü, onun Bakıda yaşamasına imkan verilməsə də, doğma Naxçıvan öz xilaskarını qəbul etməklə, Heydər Əliyevi yenidən siyasət meydanında yüksəltdi. Onda Naxçıvan son dərəcə çətin və olduqca ağır dövrünü yaşayırdı. İqtisadiyyat tamamilə dağıdılmış, əhalinin maddi durumu olduqca pis bir həddə düşmüş, ərzaq qıtlığı yaranmış, hərc-mərclik bütün hədləri aşmışdı. Ermənilərin hücumları bölgədəki ağır situasiyanı daha da gərginləşdirdiyi bir zamanda, Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibəti də muxtar respublikanı son dərəcə acınacaqlı bir durumla üzləşdirmişdi. Mərhum jurnalist Məmməd Məmmədov "Siyasətdə Naxçıvan dərsləri" kitabında yazdığı kimi "*Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmiş, hamı onun timsalında böyük xilaskarını tapmışdı*" [22, 56].

Beləliklə, Heydər Əliyevin Naxçıvana qayıdışı həm də Azərbaycanın tarixində yeni bir eranın başlanğıcı oldu. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə qeyd edildiyi kimi, **Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalətə yox, Vətənə qayıdış idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi**.

*Bu qayıdış sonralar da siyasi dairələrin və siyasətçilərin, eləcə də mətbuatın ən çox bəhs etdiyi mövzulardan oldu. Heydər Əliyevin Naxçıvanda qarşılanmasından yazan müəlliflər bildirirdi ki, "Heydər Əliyev meydana - xalqın görüşünə gəldi. Bu böyük şəxsiyyətlə görüşə gələnlərin, onu uzaqdan müşahidə edənlərin şadlığını təsvir etmək çətindir. Heydər Əliyevin sevinc dolu alqışlar altında etdiyi qısa çıxış xalqına sonsuz məhəbbətlə dolu böyük ürəyin səsi idi... Beləcə, bütün ömrünü Azərbaycan xalqına xidmətdə keçirən, öz rahatlığını, dincliyini gecə-gündüz xalqının xoşbəxtliyinə sərf edən Heydər Əliyevlə onu dünyalar qədər sevən xalqı vahid bir tam kimi birləşib-qovuşdu*" [17]. Tarixi qayıdışa şahidlik edən "Varlıq" qəzeti yazırdı ki, "*Azadlıq meydanına gələrkən Heydər Əliyev başı üzərində ucaldılan üçrəngli, ay-ulduzlu bayrağı görüb onu öpmüşdür. Görüşdə 50 min nəfərə yaxın kişi, qadın, məktəbli və hətta kiçik yaşlı uşaqlar iştirak etmişdir*" [26]. Bəzi mənbələrdə bu görüşdə 20 - 30 min, hətta 100 min insanın [17] iştirak etdiyi vurğulanır.

**Tarixi Qayıdışın təqdimatı və mətbuatın mübarizəsi.** Naxçıvanda baş verənlər mətbuatın gündəmini daha ciddi bir şəkildə tutmaqda idi. "Ulduz" jurnalının 6-cı sayında Heydər Əliyevlə müsahibənin [12] dərc edilməsi, ardınca "Respublika" qəzetində Azər Abdullanın "Mən adamlara inanmışam" adlı müsahibənin [1] və Tbilisidə çıxan "Sovet Gürcüstanı" qəzetinin müxbirlərinə müsahibəsi [16] xalqın Heydər Əliyev fenomeninə dəyərinin ifadəsi idi. "Xalq qəzeti"nin müxbiri Əlipənah Bayramovun gör-

kəmli alim Tələt Qayıbovla müsahibəsində bu fakt bir daha öz təsdiqini tapır: "*1920-ci il aprel çevrilişindən sonra mən Azərbaycanın tarixində iki böyük şəxsiyyət tanıyıram: Sovet İttifaqının möhkəmləndiyi dövrdə hakimiyyətə gələn Mircəfər Bağırov və bu dövlətin süqutu ərəfəsində hakimiyyətdə olan Heydər Əliyev. Yenə də siyasi mədəniyyətimiz çatmadığı üçün özümüz tarixi şəxsiyyətlərimizi məhv edirik*" [10].

Bu dövrdə Azərbaycanın siyasi hakimiyyətinin qadağalarına baxmayaraq bir sıra rayonlarda dərc edilən yerli qəzetlərin müxbirlərinin Heydər Əliyevlə görüş və müsahibələrə can atması da xalqın ona məhəbbətindən doğurdu. Həmin dövrdə Heydər Əliyev haqqında yazmağı, həm də fikirlərini mətbuata çıxarmaq yasaq edilmişdi. Azərbaycanın sabiq rəhbərliyi bu böyük şəxsiyyəti blokadaya almaqla təkcə yuxarıların-Moskvanın tapşırığını yerinə yetirmir, həm də özlərinin müstəqil olmayan siyasətləri ilə sonu yaxınlaşan hakimiyyətlərini qorumağa cəhd edirdilər. Bununla belə, vətənsevər, cəsarətli Azərbaycan jurnalistləri görkəmli siyasətçinin fikirlərini xalqa çatdırmaq üçün əllərindən gələni əsirgəməmiş, hər cür məhrumiyyətlərə dözmüşlər. Belələrindən biri də həmin vaxtlar Saatlı rayon partiya (kommunist) komitəsinin orqanı olan "Dönüş" qəzetinin şöbə müdiri Fəxrəddin Ağamirzəyev olmuşdur.

Saatlıda nəşr olunan "Dönüş" qəzetinin əməkdaşı Fəxrəddin Ağamirzəyevin Heydər Əliyevlə dəfələrlə görüşməsi və 1990-cı ilin avqust ayında "Dönüş"ün ardıcıl olaraq 3 sayında müsahibələrin dərc olunması [2] Ulu öndərə xalq məhəbbətinin ifadəsi olmaqla, həm də o dönəmdə partiya-sovet mətbuatının nümayəndəsi olan bir müxbirin göstərdiyi fədakarlıq nümunəsi idi. Bu tarixi müsahibədə Fəxrəddin Ağamirzəyevin "Respublikaya qayıdandan sonra jurnalistlərlə çoxmu görüşünüz olub? Daha çox hansı jurnalistləri maraqlandırmısınız?" sualına Ulu öndər belə cavab vermişdir: "*Naxçıvana qayıdandan daha çox, əsasən Naxçıvan Muxtar Respublikasının jurnalistləri ilə görüşüm olub. Təəssüf ki, Bakıdan olan jurnalistlərin heç birisi mənim yanıma gəlməyib. Bakıdan bir-iki azad qəzetlərin jurnalistləri gəlib mənimlə görüşüblər. Ancaq rəsmi mətbuat orqanlarının jurnalistləri mənim yanıma gəlmirlər. Mərkəzi televiziyanın "Vremya" ("Zaman") xəbərlər redaksiyasının Azərbaycan Respublikası üzrə müxbiri Mais Məmmədov mənə zəng etdi və çatdırdı ki, Moskvadan ona göstəriş var ki, mənimlə görüşsün, mərkəzi televiziyaya material hazırlasın. Mən də razılığımı verdim ki, gəlsin. O, dedi ki, onda sabahları mən gəlirəm Naxçıvana, sizinlə görüşməyə. Ancaq ondan sonra o gəlmədi. Mənə belə gəlir ki, burada nəsə bir səbəb var. Çünki, bu onun özünün təşəbbüsü deyildi. Bu mərkəzi televiziyanın təşəbbüsü idi. Gəlmədi gəlməsin, eybi yoxdur. Bundan başqa Litvadan, Estoniyadan mənim yanımda jurnalistlər olmuşlar. Sonra Moskvadan bir-iki jurnalist telefon vasitəsilə məndən müsahibə almışdır*" [3, 43].

Müəllif o zaman Heydər Əliyevlə görüşün çətinliklərindən söhbət acaraq yazırdı: "*Heydər Əliyevlə görüşüb müsahibə götürmək fikrinə düşəndə tam aydınlığı ilə dərk edirdim ki, bundan sonra məni nələr gözləyir. Ən azı, bunu həmin dövrdə mərhum Əjdər Xanbabayevin başına gətirilənlərdən bilirdim* [3,10]. Düzdü, Fəxrəddin Ağamirzəyev böyük naşir Əjdər Xanbabayevin faciəli taleyini yaşamasa da, "Dönüş" qəzetinin 1990-cı il 100, 101 və 102-ci saylarında "Heydər Əliyevlə müsahibə"ni [2] çap etdirəndən sonra dərhal "öz ərizəsilə" işdən azad edildi. Bundan sonra jurnalistin özünə və ailə üzvlərinə qarşı təqiblər başlandı, ondan iltizam aldılar ki, bir daha əlinə qələm almayacaqdır. Beləliklə, Fəxrəddin Ağamirzəyev 1990-cı ilin avqustundan işsiz qaldı.

Uzun illərdən sonra bu müsahibə "Dönüşdən Qurtuluşa" adlı kitab [3] kimi çap olundu. Nəşrin ön sözündə, kitabın redaktoru, əməkdar jurnalist Tahir Aydınoğlu müxbirin fəaliyyətini belə qiymətləndirir: "*Heydər Əliyev şəxsiyyətinə həmişə sonsuz sevgi bəsləyən Ağamirzəyevlər ailəsinin "Dönüş" qəzetində şöbə müdiri işləyən 30 yaşlı oğlu, jurnalist Fəxrəddin Ağamirzəyev Heydər Əliyevə qarşı yönəlmiş şiddətli böhtan kampanyasına dözməyərək, qarşıda onu nələr gözlədiyinin fərqinə varmayaraq, çox çətinliklə blokadada olan Naxçıvana getmiş, ikiqat blokadada yaşayan əfsanəvi soydaşımız Heydər Əliyevlə şəxsən görüşmüş, onunla müsahibə aparmışdı. Jurnalist aldığı geniş müsahibədə Heydər Əliyevlə bağlı həqiqətləri ortaya qoymuş, o günlərin ən vacib, bu gün də aktuallığını itirməmiş suallarına tarixi cavablar almışdı*" [4].

Naxçıvana gəlişindən az bir müddət sonra Heydər Əliyev siyasi fəaliyyətə başladı, o, özü siyasətdən tam uzaq olmaq arzusunu dəfələrlə bəyan etsə belə, xalqın milli iradəsi önündə "təslim" olduğunu da etiraf etdi: ***"Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm"*** [21, 99]. Əslində Heydər Əliyevin Naxçıvana dönüşü muxtar vilayətin siyasi həyatına ciddi bir canlanma gətirmiş və Naxçıvanın diqqət mərkəzində olması da Heydər Əliyevi gündəlik xəbərlərin baş mövzusuna çevirməkdə idi.

Naxçıvana qayıdışdan iki ay sonra - 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başladı. Bu sessiyada təkcə Naxçıvan üçün deyil, bütün Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olundu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan

MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarların qəbul olunması [21, 129-131, 134] cəmiyyət üçün çoxdan arzu olunan olsa da, yuxarılar (hakimiyyət) üçün gözlənilməz idi.

Heydər Əliyevin Ali Məclisinin sədri seçilməsi muxtar respublikada vəziyyətin yaxşı bir axara düşməsinə inam yaratdı. Akademik İsa Həbibbəylinin qənaətincə desək "*Azərbaycanın bu diyarının – Naxçıvanın mürəkkəb hərbi-siyasi şəraitdə işğaldan xilas olmasının ən başlıca səbəbi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirərək, region dövlətləri ilə əlaqələri möhkəmləndirərək, böyük güclərin təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi idi*" [18].

**Mətbuat Naxçıvanın blokadasını necə yardı?!.** Xarici qüvvələrin təcavüz və fitnəkarlıqları azalmadığı kimi, Azərbaycanın daxildə də hakimiyyət uğrunda gedən mübarizə davam edirdi. Bunlar on birinci çağırış Azərbaycan Ali Sovetinin birinci sessiyasında açıq şəkildə göründü. "Aydınlıq" və "Vətən səsi" qəzetləri deputat Heydər Əliyevin sessiyadakı çıxışının tam mətnini [5, 7] yaymaqla xalqın böyük siyasətçiyə olan inamını təsdiqlədi. Ali Sovetin 7 mart 1991-ci il sessiyasında çıxış edən Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması barədə referendumun əleyhinə səs verməklə o zamankı iqtidarın bütün planlarını alt-üst etdi. "Səs" qəzetinin 15 mart tarixi sayında dərc edilən bu çıxış Azərbaycanın siyasi həyatında müstəqilliyə doğru atılan addımın nümunəsi idi [6]. Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisinin Ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərarın qəbul edilməsi Azərbaycan hakimiyyəti ilə Naxçıvanın münasibətlərini daha da kəskinləşdirdi. Bu kəskin münasibətlər 1991-ci ilin bütün siyasi hadisələrində özünü göstərmiş, dövrün mətbuat orqanlarında cəbhələşmiş polemikalara yol açmışdır. Hətta Moskvada "avqust qiyamının" baş verməsi və onun Azərbaycan hakimiyyəti tərəfindən dəstəklənməsi Naxçıvanda ciddi rezonans yaratmışdı. Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası Dövlət Fövqəladə Vəziyyət Komitəsinə mənfi münasibət bildirməklə, onu dəstəkləyən yerli partiya və sovet orqanlarını ləğv etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında (29 avqust 1991-ci il) "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqibə məruz qalan Heydər Əliyev 1993-cü il iyun ayının 13-dək Ali Sovetin sessiyalarında, Milli Şuranın və Milli Məclisin iclaslarında iştirak etməmişdir.

Heydər Əliyevin bu dövrdəki fəaliyyəti Naxçıvanın gələcək taleyi və inkişafı ilə bağlı idi. Bu dövrdə Azərbaycanın ictimai-siyasi həyatındakı hakimiyyət qarşıdurması, ölkənin və xalqın çətin vəziyyəti, bu yöndə yolların

axtarılması onu düşündürən ümdə vəzifələrdən idi. Heydər Əliyev Türkiyənin "Milliyyət" və "Hürriyyət" qəzetlərinin, Amerikanın "Vaşinqton post" qəzetinin Naxçıvanda ezamiyyətdə olan müxbirləri ilə görüşündə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğunu təkidlə və dəfələrlə vurğulanmışdır. Türkiyənin "Samanyolu" telekanalına müsahibəsində dediyi kimi, "*Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, muxtar respublikadır. Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, vaxtilə Azərbaycana qarşı ədalətsizlik edilib və Zəngəzur diyarının Ermənistana verilməsi ilə əlaqədar Naxçıvan Azərbaycanın əsas torpağından ərazi nöqteyi-nəzərindən ayrı düşübdür*" [15].

Heydər Əliyevin 1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana qayıdışı, burada siyasi fəaliyyətini davam etdirməsi Azərbaycandan "ayrı salınmış" muxtar respublikanı siyasi oyunlardan, erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində həmin tarixi proseslərin mühüm nəticələrini ümumiləşmiş şəkildə bir daha yada salması Heydər Əliyev yolunun milli tariximizdəki rolunun əhəmiyyətinə diqqəti cəlb etmək üçün ibrətamiz faktdır: "*Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi*" [9].

Bir tərəfdən düşmən ermənilərlə müharibənin davam etdirilməsi vəziyyəti çətinləşdirirdi, digər tərəfdən Azərbaycanla əlaqələrin kəsilməsi - bütün yolların (havadan başqa) bağlanması Naxçıvanın tam blokadaya alınması ilə nəticələnmişdi. Türkiyə və İran dövlətləri ilə diplomatik münasibətlərin qurulmasında uğurlu addımlar atılsa da həllini gözləyən ciddi çətinliklər qalmaqda idi. İnformasiya blokadası daha ciddi fasadları ilə gündəmdə idi. 1992-ci ilin 7 iyununda mərhum jurnalist Mirzə Əsgərovun rəhbərliyi ilə "Real" informasiya agentliyinin fəaliyyətə başlaması informasiya blokadasının yarılması üçün atılan yeni bir addım oldu. "Azərbaycan" nəşriyyatında "Real" informasiya agentliyinin hazırladığı "Naxçıvan yaşayır, döyüşür" foto-albomunun [24] bir neçə dildə nəşr edilərək kütləvi yayımlanması Naxçıvan reallıqlarının daha bariz şəkildə ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı. Bundan dörd ay sonra Bakıda, yenə də mərhum jurnalist Mirzə Əsgərovun təşəbbüsü ilə "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin nəşrə başlaması ictimaiyyətin böyük marağına səbəb oldu. Gərgin mübarizə və blokada şəraitində yaşayan Naxçıvan həqiqətlərinin ictimaiyyətə çatdırılmasında mühüm rol oynayan qəzetə Heydər Əliyev təbrik məktubu göndərdi.

Bu dövrdə Azərbaycan ziyalılarının - sonralar 91-lərin müraciəti adlanan – müraciəti mətbuatda dərc olundu. Buna cavab olaraq, demək olar ki, bütün mətbuat orqanlarında Heydər Əliyevin Azərbaycan ziyalılarına "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubunun dərc olunması ciddi

sensasiya yaratmaqla, Heydər Əliyev ideyalarının möhtəşəmliyini ortaya qoydu. Bu zaman AXC Naxçıvan və Ordubad şöbələrinin Naxçıvanda dövlət çevrilişinə cəhd göstərməsi mətbuatın gündəmini zəbt etdi. Yerli və xarici jurnalistlər üçün 1992-ci ilin 27 oktyabrında mətbuat konfransı keçirən Heydər Əliyev bu dəfə də müdrik siyasəti ilə Naxçıvanda sakitliyə nail oldu. Bir gün sonra Naxçıvan Televiziyası ilə xalqa müraciət edən Heydər Əliyev əhalini şayələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırış etdi. Eyni zamanda həmin gün "Naxçıvan" qəzeti onun "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini [20] dərc etdi. Bu qayğılı və gərgin günlər həm də YAP təşkilat komitəsinin yığıncağının və təsis konfransının keçirildiyi, eləcə də Heydər Əliyevin açıq səsvermə yolu ilə partiyanın sədri seçildiyi günlərə təsadüf edir.

**Nəticə.** On illik bir keşməkeşli və böhranlı zaman kəsiyində qurulmaqda olan Azərbaycana rəhbərlik edən və ölkəni olum-ölüm dilemmasından uğurla çıxaran Ulu Öndər Heydər Əliyevin siyasi baxışlarına tarix indi daha dərin məna qazandırmaqdadır. Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən gözlənilməz dəyişikliklər onun Azərbaycan adlı vətənimizin bu gününə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu daha aydın göstərir.

Bu dövr Azərbaycan cəmiyyətinin bütün sahələrində olduğu kimi mətbuatın inkişafında yeni mərhələ olmuş, söz və mətbuat azadlığını həyatı reallığa çevirmişdir. Bu da Azərbaycan mətbuatının peşəkar və demokratik şəraitdə inkişafına şərait yaratmış, milli mətbuatı xaosdan və anarxiyadan qurtarmışdır. Ulu öndərin Azərbaycana rəhbərliyi dövründə formalaşan və inkişaf etdirilən bu kimi amillər mətbuatın azad fəaliyyətinə geniş imkan yaratmış, onun inkişafını əngəlləyən bütün amillərin aradan qaldırılmasını qanunvericilik bazasında həllinə nail olunmuşdur. Bundan sonra kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün silsilə tədbirlər həyata keçirilmişdir. Heydər Əliyevin rəhbərliyi və müəllifliyi ilə hazırlanan və qəbul edilən ilk Konstitusiya aktında söz və mətbuat azadlığı ayrıca maddə ilə (50-ci maddə) ilə əks olunmuşdur. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa əsasən kütləvi informasiya vasitələri azad elan olunmuşdur.

Sonralar Avroatlantik məkana üzv olan Azərbaycan söz və mətbuat azadlığı sahəsində beynəlxalq sazişlərə imza atmaqla demokratik dəyərlərə ciddi önəm verdiyini təsdiqlədi. Bununla da Ulu Öndər Heydər Əliyevin mətbuatın üzərindən senzuranı götürməsi mətbuatın inkişafında yeni bir mərhələ oldu. 1998-ci il 6 avqust tarixində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" verilən fərman mətbuatı senzuradan azad etməklə, onun inkişafını və rolunu artırdı.

Mətbuatın problemlərinin həlli və onların aradan qaldırılmasına Ulu Öndərin münasibəti azad sözə verilən qiymət olmaqla demokratik cəmiyyətin təməl prinsiplərində idi. Önəmlidir ki, bunlar mətbuat qarşısında dəqiq, operativ və qərəzsiz yanaşma kimi tələblər qoymuş və yeni dövrün çağırışlarının həyat normasına çevrilməsinin sübutu oldu. Amma diqqətdən yayınmayan bir fakt var ki, Heydər Əliyev mətbuatın gücünü yüksək qiymətləndirməklə, onun imkanlarından da səmərəli istifadə etməyi bacarmış və siyasi fəaliyyətinin bütün dövrlərində bunu özünün həyat prinsipi kimi qəbul etmişdir.

**ƏDƏBİYYAT**


1. Abdulla A.. Heydər Əliyev: Mən adamlara inanmışam. "Respublika" qəzeti, 25 avqust 1990-cı il.
2. Ağamirzəyev F.. Heydər Əliyevlə müsahibə. "Dönüş" qəzeti, 23,25,28 avqust1990-cı il.
3. Ağamirzəyev F. Dönüşdən qayıdışa. – Bakı: Adiloğlu, - 2012,168 s.
4. Aydınoğlu T.. Bir müsahibənin tarixçəsi. "Xalq qəzeti", 8 may 2011-ci il.
5. Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında xalq deputatı Heydər Əliyevin cıxışı. "Aydınlıq" qəzeti, 15-21 fevral 1991-ci il.
6. Azərbaycan Respublikası Ali Sovetin 7 mart 1991-ci il sesiyasında cıxış edən Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması barədə referendumun əleyhinə səs verməklə iqtidarın bütün planlarını alt-üst etdi. "Səs" qəzeti, 15 mart 1991-ci il.
7. Azərbaycan SSR Ali Sovetinin birinci sesiyasında xalq deputatı Heydər Əliyevin cıxışı. "Vətən səsi" qəzeti, 27 fevral 1991-ci il.
8. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Xalq qəzeti", 22 yanvar 2013.
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi. "Xalq qəzeti", 9 aprel 2014.
10. Bayramov Ə. Nicat yolunu özümüz tapmalıyıq. Görkəmli alim Tələt Qayıbovla müsahibə. "Xalq qəzeti", 6 mart 1993-cü il.
11. Əliyevçilik, yaxud xoş əyyamların xiffəti."Pravda"qəzeti,4 fevral 1990-cı il.
12. Əhmədov E.. Heydər Əliyevlə müsahibə, "Ulduz" jurnalı, N.6, 1990-cı il.
13. Əhmədov N. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və müstəqillik ideyaları "Şərq qapısı" qəzetində // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Filologiya və Sənətşünaslıq Məcmuəsi, – 2019. № 1, – s. 13-20.
14. Heydər Əliyev: "Rossiyskiy fermer" qəzetinin müxbirləri ilə söhbət. "Rossiyskiy fermer" qəzeti, 3 aprel 1993-cü il.
15. Heydər Əliyevin Türkiyənin "Samanyolu" telekanalına müsahibəsi.14 oktyabr 1991-ci il.
16. Heydər Əliyevin "Sovet Gürcüstanı" (Tbilisi) qəzetinin müxbirlərinə müsahibəsi. "Sovet Gürcüstanı" qəzeti, 26 avqust 1990-cı il.
17. Həsənov Ə. Heydər Əliyev Naxçıvana gəlmişdir. Naxçıvan, 22 iyul 1990-cı il. http://www.1990-1993.nakhchivan.az/22i.htm
18. Həbibbəyli İ. Heydər Əliyev yolu: Naxçıvan reallıqları. "Azərbaycan" qəzeti,16 aprel 2014.
19. Həşimli H.. Heydər Əliyev və Naxçıvan. "Şərq qapısı" qəzeti, 14 may 2014.
20. İnsan xalq üçün yaşayanda xoşbəxt olur. Heydər Əliyevin "Naxçıvan" qəzetinə müsahibəsi. "Naxçıvan" qəzeti, 29 dekabr 1992-ci il.
21. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci

nəşr. - Bakı: Azərbaycan, - 2008, - 840 s.
22. Məmmədov M.. Siyasətdə Naxçıvan dərsləri. - Bakı: Araz, - 2009, - 416 s.
23. Möhsünov M. Daha susa bilməzdim... "Şərq qapısı" qəzeti, 1990, 26 iyul.
24. Naxçıvan yaşayır, döyüşür. – Bakı: Fotoalbom. "Real" informasiya agentliyinin nəşri. "Azərbaycan" nəşriyyatı, 7 iyun 1992-ci il.
25. Sadıqoğlu A.. Heydər Əliyevin böyük siyasətə qayıdışı. "Xalq qəzeti",6 may 2013.
26. Şamil Ə. Xalq cəbhəsinə rəğbətim var. "Varlıq" qəzeti, 25 iyul 1990
27. Yaqubov Ş. Bu da tayfa oyunudur?. "Kommunist" qəzeti, 05 may 1990.

## РОЛЬ ПРЕССЫ В ДОНЕСЕНИИ ДО ОБЩЕСТВА ИНФОРМАЦИИ ОБ ИСТОРИЧЕСКОМ ВОЗВРАЩЕНИИ ГЕЙДАРА АЛИЕВА В НАХИЧЕВАНЬ И ЕГО ПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ
**(Аналитический обзор прессы 1990-х годов)**

**Намиг Г.АХМЕДОВ**

### РЕЗЮМЕ

Гейдар Алиев, прибывший в Нахчыван 22 июня 1990 года, подвергся политическим преследованиям и необоснованной клевете со стороны союзного и республиканского руководства того времени. Однако политическая деятельность опирающегося на народвидного политика и государственного деятеля в Нахчыване впоследствии решила судьбу всего Азербайджана. В этот тяжелый и кризисный период не состоялась планируемая годами оккупация Нахчывана, являющегося неотъемлемой составной частью Азербайджана, укрепилась оборонная мощь этого древнего края, были приняты последовательные меры для его развития.

Органы печати того времени, и в частности проправительственные СМИ, публиковали клеветнические статьи о возвращении Гейдара Алиева в Нахчыван. В то время публикация в печати высказываний Гейдара Алиева запрещалась. Бывшее руководство Азербайджана пыталось полностью заблокировать эту великую личность. Однако в такой республиканской периодике как "Varlık", «Азадлыг», «Адалят», «Юрддаш», «Сес», «Медениият», «Республика», «Ики сахиль», «Ветен сеси», «Нахчыван», «Айдынлыг», а также на страницах десятков местных органов печати, как издаваемый в Саатлы «Денюш», в новостях и материалах, опубликованных касательно Нахчывана звучал голос за свободу народа. Запреты, наложенные на информации, связанные с Нахчываном, хотя и были направлены на привитие чувства страха и сопротивления, регулярная публикация новостей, связанных с правдой о Нахчыване и деятельностью Гейдара Алиева, самоотверженные представители азербайджанской журналистики называли своим гражданским и журналистским долгом. Даже в ряде всесоюзных СМИ, в том числе и центральной печати реальное и справедливое отношение к событиям стояло на повестке дня.

В статье исследуются вопросы освещения в печати 1990-1993 годов жизни и деятельности выдающегося государственного деятеля Гейдара Алиева в Нахчыване и позиция печати. То, что этот период, исторически не столь большой, имеет особое значение, и оценка, данная великим лидером, позиции печати в период кризиса, подтверждается фактами.

**Ключевые слова:** политическая деятельность Гейдара Алиева, нахчыванский период, политическое преследование, органы печати, позиция печати.

# THE ROLE OF THE PRESS IN INFORMING THE SOCIETY ABOUT THE HISTORICAL RETURN OF HEYDAR ALIYEV TO NAKHCHIVAN AND HIS POLITICAL ACTIVITY
## (Analytical review of the press of the 1990s)

**Namig G.AHMADOV**

**SUMMARY**

On June 22, 1990, having arrived in Nakhchivan Heydar Aliyev faced the political persecution and groundless slanders by the then Union and republic leadership. Nevertheless, political activity of the great politician and statesman who relied on the people in Nakhchivan later solved the destiny of Azerbaijan.

The media outlets of that time, in particular, those related to power met Heydar Aliyev's return with slanders. It was prohibited to recover Heydar Aliyev's suggestions in the press. The former leadership of Azerbaijan tried to keep this great personality in complete blockade. However, the republican newspapers, including "Varlık", "Azadlig", "Adalet", "Yurddash", "Ses", "Medeniyyet", "Respublika", "Iki Sahil", "Veten Sesi", "Nakhchivan", "Aydinlig" and many others, the Saatli-based regional "Donush" tabloid were publishing broad materials and news related to the developments in Nakhchivan. The voice of nation called for freedom and it was heard everywhere. Though restrictions and prohibitions on the news related to Nakhchivan aroused sense of fear and oppression, selfless representatives of Azerbaijani journalism were covering the realities of Nakhchivan and Heydar Aliyev's activity and they considered it their civil and journalistic debt. Even, in a number of Union press bodies, including in the central press, there were attempts to cover the happenings actually and honestly.

The article deals with the questions of media coverage of the events of 1990-1993s, the period when the outstanding statesman Heydar Aliyev lived and worked in Nakhchivan, the position of the then media outlets. The author speaks about the importance of the mentioned period of history basing on the real facts and the assessment the Great Leader gave to the position of media during that critical years.

**Keywords:** Heydar Aliyev's political activity, the Nakhchivan period, political persecution, media outlets, position of press

## NEKROLOQ

## PROFESSOR QÜDRƏT İSMAYILZADƏNİN ƏZİZ XATİRƏSİNƏ

2024-cü il aprelin 1-də 89 yaşında görkəmli arxeoloq, Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının məsləhətçi professoru, tarix elmləri doktoru, Əməkdar müəllim Qüdrət Seyfulla oğlu İzmayılzadə dünyası dəyişmişdir. Onun həyat və yaradıcılığının yarım əsrdən artıq dövrü Bakı Dövlət Universiteti ilə bağlı olmuş, Qədim dünya və orta əsrlər tarixi, Arxeologiya və etnoqrafiya kafedralarında çalışmış, 2006-2019-cu illərdə isə Arxeologiya və etnoqrafiya kafedrasına rəhbərlik etmişdir.

Qüdrət İsmayılzadə 1934-cü ildə Bakı şəhərində tanınmış neftçi, buruq ustası Seyfulla Xudadat oğlunun ailəsində anadan olmuşdur. Bakının Suraxanı qəsəbəsindəki 208 saylı orta məktəbdə təhsil aldığı illərdə tarix və coğrafiya fənlərinə xüsusi maraq göstərmiş, Bakı Pionerlər Sarayının Tarixsevərlər dərnəyinin və Bakı Gənc Səyahətçilər Klubunun üzvü olmuş, Respublika və Ümumittifaq müsabiqə və olimpiadalarında uğurla iştirak edərək diplomlara, fəxri fərmanlara və yüksək mükafatlara layiq görülmüşdür.



1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti) Tarix fakültəsinə daxil olmuş, 1957-ci ildə həmin ali məktəbi müvəffəqiyyətlə bitirmiş, təyinatla 1957-1958-ci illərdə Yardımlı rayonunun Arus və Mirimli kənd məktəblərində müəllim vəzifəsində çalışmışdır. 1958-ci ildə Q.S.İsmayılzadə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutuna dəvət olunmuş və Arxeologiya şöbəsində fəaliyyətə başlamışdır.

1960-cı ildə Azərbaycan Elmlər Akademiyasının aspiranturasına daxil olan Qüdrət İsmayılzadə Qazax bölgəsi ərazisində yerləşən "Baba-Dərviş qədim yaşayış yerinin arxeoloji tədqiqi" mövzusunda dissertasiya işi üzrə araşdırmalar aparır və bununla da başlıca tədqiqat istiqamətini – Azərbaycanda tunc dövrü problemlərinin araşdırılması seçimini etmiş olur, bu sahədə böyük uğurlar qazanır. Baba-Dərviş yaşayış yerində arxeoloji qazıntılarda fəal iştirak edən gənc arxeoloq tədqiqat mövzusu üzrə zəngin faktiki materiallar toplayaraq Qafqazın görkəmli arxeoloqu, professor Otar Çaparidzenin rəhbərliyi ilə dissertasiya işini başa çatdırmış, arxeoloji mənbələr əsasında Azərbaycanın erkən əkinçilik mərkəzlərindən biri olmasını, bu ərazidə yerli zəmin əsasında tunc dövrü mədəniyyətinin təşəkkül tapmasını elmi əsasda sübuta yetirmişdir. O, 1964-cü ilin fevralında Tbilisi Dövlət Universiteti nəzdindəki İxtisaslaşdırılmış Şurada dissertasiyanı uğurla müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. Sonradan monoqrafiya şəklində nəşr olunan həmin əsər Qüdrət İsmayılzadənin Kür-Araz mədəniyyəti problemi üzrə ciddi tədqiqatçılar sırasında nüfuz qazanmasına səbəb olmuşdur.

1964-cü ildə Qüdrət İsmayılzadənin peşə karyerasında daha bir əlamətdar hadisə baş verir. O, Qarabağda, Quruçay və Göndələnçay vadilərində arxeoloji abidələrin axtarış və qeydə alınması məqsədi ilə yaradılan ekspedisiyaya rəhbər təyin edilir. Bir neçə il ərzində onlarla arxeoloji abidə aşkarlanaraq qeydə alınır. Həmin abidələr arasında Azərbaycan arxeologiya elmi üçün xüsusi əhəmiyyət kəsb edən etalon abidələr də var idi. Belə abidələrdən birində - çoxtəbəqəli Qaraköpəktəpə yaşayış yerində 1967-ci ildə stasionar arxeoloji qazıntılar başlanılır və tədqiqatlar 1988-ci ilədək davam edir. Qüdrət İsmayılzadə "Arxeoloqun çöl gündəliyindən" kitabında arxeoloji axtarışlarında, elmi fəaliyyətində həmin abidənin əhəmiyyətini belə qiymətləndirmişdi: "*Axtarış yollarında arxeoloq yüzlərcə abidə ilə rastlaşır. Bunların hamısını o, fərq qoymadan dəqiq şəkildə qeydə alır, tədqiq edir və öyrənir. Lakin bu abidələrdən yalnız biri ona ən yaxın sirdaş ola bilir, məhəbbətini qazanır və nəhayət, bütün varlığı ilə onun həyatına daxil olur. Əslində, arxeoloqun özü könüllü şəkildə həyatını bu abidəyə həsr edir, onunla qaynayıb-qarışır. Elə buna görə də arxeoloqun adı sonralar bu abidə ilə qoşa çəkilir. Mənimsə həyatıma silinməz iz salan belə bir abidə Füzuli rayonundakı Qaraköpəktəpədir*" (Qüdrət İsmayılzadə, 2009, s. 29).

Mədəni təbəqənin zənginliyinə görə Qaraköpəktəpə yaşayış yeri nəinki Azərbaycanın, eləcə də Qafqazın və Yaxın Şərqin nadir abidələrindən hesab olunur.

Qüdrət İsmayılzadənin Qarabağın tunc dövrü abidələrində, xüsusilə Qaraköpəktəpədə apardığı arxeoloji qazıntılardan əldə olunan zəngin faktik materiallar, mötəbər mənbələr Kür-Araz mədəniyyəti üzrə sanballı tədqiqat əsərinin yazılmasını təmin etdi. O, 1983-cü ildə Tbilisi şəhərində - Gürcüstan Elmlər Akademiyasının Dissertasiya Şurasında elmlər doktoru elmi dərəcəsi almaq üçün yazdığı "Azərbaycanın erkən tunc dövrü mədəniyyəti" mövzusunda dissertasiyanı uğurla müdafiə etdi. İstedadlı alimin elmi təfəkkürünün işığında "Kür-Araz mədəniyyəti" probleminin bir çox ümdə məsələlərinə: Kür-Araz mədəniyyətinin tarixi kökləri, təşəkkül tapması, xronoloji çərçivəsi və ardıcıl inkişaf mərhələləri, etnik mənsubiyyəti, yerli tayfaların mədəni-tarixi inkişafında rolu, Qafqaz və Azərbaycan tarixində yeri və s. aydınlıq gətirildi. 2008-ci ildə həmin tədqiqat monoqrafiya şəklində nəşr olundu.

Qüdrət İsmayılzadənin Şərqi Zəngəzurun arxeoloji abidələrinin öyrənilməsində də töhfələri böyükdür. O, keçən əsrin 60-cı illərinin sonu - 70-ci illərində Kəlbəcərdə e.ə. IV-I minilliklərə aid edilən mindən artıq qayaüstü rəsm qeydə alaraq tədqiq etmiş, 1976-cı ildə ilk dəfə olaraq Azərbaycanın yüksək dağlıq bölgəsində e.ə. III minilliyə aid istehkamlı yaşayış yerinin qalıqlarını aşkarlayaraq tədqiq etmişdir. Ümumiyyətlə, Azərbaycan ərazisində qədim qayaüstü təsvirlərin öyrənilməsi professor Qüdrət İsmayılzadənin elmi araşdırmalarının mühüm bir istiqamətini təşkil edirdi. Onun Azərbaycanın qayaüstü rəsmlərinin səciyyəsi və Avrasiya məkanının ən qədim incəsənətində onların yeri ilə bağlı araşdırmaları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

Arxeoloq Q.S.İsmayılzadənin Azərbaycanın tunc dövrü mədəniyyətlərinin ümumi və nəzəri məsələlərinin araşdırılmasında, Azərbaycan arxeologiyasının nəzəri səviyyəsinin yüksəldilməsində xidmətləri, töhfələri böyükdür.

Qüdrət İsmayılzadənin elmi yaradıcılığının digər bir istiqaməti Azərbaycanın arxeoloji fikir tarixini araşdırması, həmkarlarının tədqiqatlarını obyektiv təhlil etməsi, nailiyyət və töhfələrini qiymətləndirməsidir. Onun Davud Şərifov, Ələsgər Ələkbərov, İsaq Cəfərzadə, Saleh Qazıyev, Güllü Əbilova, Osman Həbibullayev və digər Azərbaycan arxeoloqlarının həyat və yaradıcılığına həsr olunan məqalələri bu qəbildəndir.

Arxeoloq Qüdrət İsmayılzadə tarixi-arxeoloji biliklərin, Azərbaycanın qədim mədəni irsinin, qədim və zəngin tarixinin təbliğində, geniş oxucu kütləsinə çatdırılmasında da fəal iştirak etmişdir. "Abidələr, xatirələr, düşüncələr", "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri",

“Arxeoloqun çöl gündəliyindən” kitabları, “Elm və həyat”, “Azərbaycan arxeologiyası” jurnallarında dərc olunan məqalələrində xalqımızın maddi mədəniyyət yadigarlarının canlı təqdimatı ciddi elmi məntiqlə üzvü surətdə birləşdirilir və vətən abidələrinə, xalqımızın qədim mədəni irsinə sonsuz məhəbbəti aşılayır.

Professor Qüdrət İsmayılzadə beynəlxalq əməkdaşlığa önəm verirdi, Rusiya, Gürcüstan, Almaniya, İngiltərə, Fransa, ABŞ, Macarıstan, Polşa, Türkiyə, Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, İtaliya, İran, Yaponiya və başqa ölkələrin arxeoloqları və tarixçiləri ilə elmi əlaqə saxlayırdı. O, Altıntəpə, Troya və Boğazköy kimi məşhur arxeoloji abidələrin qazıntılarında iştirak etmiş azərbaycanlı arxeoloqdur. Görkəmli alim Azərbaycan arxeologiya elmini beynəlxalq elmi məclislərdə layiqincə təmsil edirdi. Onun Moskva, Sankt-Peterburq, Ştutqart, Tubengen, Saar-Bruken, Berlin, Ankara, İzmir, Aşqabad, Bişkek, Buxara, Səmərqənd, Theran, Tbilisi şəhərlərində keçirilən elmi konfrans və simpoziumlarda Azərbaycan arxeologiyasının ayrı-ayrı aktual problemləri üzrə məzmunlu məruzələri maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Professor Qüdrət İsmayılzadə elmi tədqiqatla pedaqoji fəaliyyəti uzlaşdırmağı bacarırdı. Keçən əsrin 70-ci illərində Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daimi işə dəvət olunan alim burada elmi tədqiqatlarını davam etdirməklə yanaşı fəal şəkildə tədrisə, gənc nəslin təlim-tərbiyəsinə qoşulmuşdur. Onun pedaqoji fəaliyyəti yüksək peşəkarlığı ilə fərqlənirdi. Geniş erudisiyaya malik alim, gözəl natiq, təmənnasız öz bilik və təcrübəsini gənc nəslə çatdırmağa səy göstərən qayğıkeş pedaqoq “Qədim dünya tarixi”, “Arxeologiya” fənləri üzrə tələbələrinə yüksək məzmunlu mühazirələr oxumuşdur. Dərin biliyi, mürəkkəb məsələləri sadə, asan başa düşülən tərzdə təqdim etmək bacarığı, incə yumorları ilə tələbə auditoriyasının hörmət və sevgisini qazanmışdı. Onun mühazirələri, seminar məşğələləri Tarix fakültəsinin məzunlarının yaddaşlarında ən maraqlı dərslər kimi qalmışdır. O, tarixçi tələbələr üçün qayğıkeş müəllim, əvəzolunmaz məsləhətçi idi.

Qüdrət müəllimin yüksəkixtisaslı kadrların hazırlanmasında da xidmətləri böyükdür. O, 12 fəlsəfə doktoru və 1 elmlər doktoru dissertasiyasına rəhbərlik etmiş, istər ölkə daxilində, istərsə də qonşu respublikalarda müdafiə olunan onlarla dissertasiya işinə yüksək peşəkarlıq nöqteyi-nəzərdən opponentlik etmiş, onların müəlliflərinin müvafiq elmi dərəcə almasına xeyir-dua vermişdir.

Professor Qüdrət İsmayılzadə gərgin elmi yaradıcılıq və pedaqoji fəaliyyəti ilə yanaşı, həm də elmi-təşkilati fəaliyyətlə məşğul olmuşdur. O, Bakı Dövlət Universitetinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, Tarix fakültəsinin Elmi Şurasının, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının, AMEA Naxçıvan bölməsinin nəzdində fəa-

liyyət D. 01.211 Dissertasiya Şurasının üzvü, Azərbaycanşünaslar Müstəqil Birliyinin Şura üzvü olmuşdur. Görkəmli alim Azərbaycanı bir sıra beynəlxalq elmi təşkilatlarda təmsil edirdi: Beynəlxalq Arxeoloqlar Assosasiyasının üzvü, Türkmənistanda Qədim Şərqin mədəni irsini öyrənən Beynəlxalq Elmi Şuranın üzvü, Qırğızıstan Prezidenti yanında Humanitar Elmlər Assosasiyasının üzvü idi.

Professor Qüdrət İsmayılzadə 1999-ci ildən Xəzər Universitetində çap olunan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru idi və jurnalda Azərbaycan arxeologiyasındakı yeniliklərin, aktual problemlərin həllinə yönəlmiş məqalələrin dərc olunmasına səy göstərirdi. O, həmçinin bir sıra sanballı monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin elmi redaktoru olmuşdur.

Professor Qüdrət İsmayılzadənin elmi-pedaqoji fəaliyyəti, onun Azərbaycan elm və təhsilinə töhfələri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

İnsani cazibə, incə yumor və duzlu-məzəli zarafatları, maraqlı xatirələri Qüdrət müəllimlə çalışan əməkdaşlara, onun ətrafındakılara müsbət həyati enerji verirdi. O, insanlarda inam yaratmağı, gənc nəsildə vətənpərlik, xalqımızın adət-ənənələrinə hörmət, zəngin tarixinə sevgi formalaşdırmağı bacarırdı.

Qüdrət Seyfulla oğlu İzmayılzadənin vəfatı Azərbaycan elmi, Bakı Dövlət Universiteti üçün böyük itkidir. Görkəmli alim, pedaqoq, gözəl insan Qüdrət müəllimin əziz xatirəsi doğmalarının, yaxınlarının, həmkarlarının, çoxsaylı tələbələrinin qəlbində və düşüncələrində daim yaşayacaq.

**Tarix Dostiyev**
**BDU Arxeologiya və etnoqrafiya kafedrasının müdiri**

## MÜNDƏRİCAT

### TARİX

**Almas S.CAVADOVA**
Azərbaycan Səfəvi dövləti və beynəlxalq münasibətlər (XVI əsrin əvvəlləri) ................5
**Samir F.BAXŞƏLİYEV**
Səfəvilərin etnik mənsubiyyəti haqqında........................................................................17
**Şamil N.NƏCƏFOV**
Xocali-Gədəbəy mədəniyyətinə aid gil möhür və pintaderlərin təsnifatı
və funksiyası (etnoarxeoloji tədqiqat)..............................................................................27
**Sevinc Ə.ZEYNALOVA**
Müasir Rusiya tarixşünaslığında Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin
Avropa ölkələri ilə diplomatik əlaqələrinin araşdırılmasina dair.....................................48
**Balamirzə A.MƏMMƏDLİ**
XX əsrin 90-cı illərində Azərbaycan Respublikasının
Almaniya Federativ Respublikası ilə münasibətləri vətən tarixşünaslığında ..................58
**Pərviz S.MƏHƏRRƏMOV**
Müstəqil Azərbaycanda dəniz nəqliyyatının inkişaf strategiyasının işlənib
hazırlanmasında ümummilli lider Heydər Əliyevin rolu .................................................76
**Sarışan N. ADIŞOVA**
Xalq hərəkatının təşkilində “Qırmızı tabor” ....................................................................88

### JURNALİSTİKA

**Namiq Q.ƏHMƏDOV**
Heydər Əliyevin Naxçıvana tarixi qayıdışı və siyasi fəaliyyətinin cəmiyyətə
çatdırılmasında mətbuatın rolu (1990-cı illərin mətbuatına analitik baxış) ....................96

### NEKROLOQ

Professor Qüdrət İsmayılzadənin əziz xatirəsinə ...........................................................108

# СОДЕРЖАНИЕ

## ИСТОРИЯ

**Алмас С.ДЖАВАДОВА**
Азербайджанское государство Сефевидов и международные отношения
(начало XVI века) ........................................................................................5
**Самир Ф.БАХШАЛИЕВ**
Об этнической принадлежности Сефевидов .............................................17
**Шамиль Н. НАДЖАФОВ**
Функции и назначение глиняных печатей и пинтадеров Ходжалы-Кедабекской культуры (этноархеологическое исследование) .......................................27
**Севиндж А.ЗЕЙНАЛОВА**
К вопросу исследования в современной Российской историографии дипломатических отношений Азербайджанских государств Аккоюнлу и Сефевидов с европейскими странами ..................................................48
**Баламирза А.МАМЕДЛИ**
Отношения между Азербайджанской Республикой и Федеративной Республикой Германия в 90-е годы XX века в отечественной историографии .......58
**Парвиз С.МАГЕРРАМОВ**
Роль общенационального лидера Гейдара Алиева в разработке и подготовке стратегии развития морского транспорта в независимом Азербайджане ................76
**Саришан Н. АДИШОВА**
“Красный табор” в организации народного движения..............................................88

## ЖУРНАЛИСТИКА

**Намиг Г.АХМЕДОВ**
Роль прессы в донесении до общества информации об историческом возвращении Гейдара Алиева в Нахичевань и его политической деятельности (аналитический обзор прессы 1990-х годов) ......................................96

## НЕКРОЛОГ

Светлой памяти профессора Гудрата Исмаилзаде....................................................108

## CONTENTS

### HİSTORY

**Almas S.JAVADOVA**
Azerbaijani state Safevids and international relations (early XVI century)....................5
**Samir F.BAKSHALIYEV**
About the ethnicity of the Safavids....................................................................17
**Shamil N.NAJAFOV**
Classification and function of clay seals and pintadeurs belonging
to the Khocali-Gedabey culture (ethno-archaeological research)....................................27
**Sevindj A.ZEYNALOVA**
On the investigation of the diplomatic relations of The Ak-Koyunlu
and Safavid States of Azerbaijan with European countries ............................................48
**Balamirza A.MAMMADLI**
Relations between the Republic of Azerbaijan and the Federal Republic
of Germany in the 90[s] of the XX century in domestic historiography.............................58
**Parviz S.MAKHARRAMOV**
The role of common national leader Heydar Aliyev In the development and
preparation of a strategy for the enlargement of marine transport
in independent Azerbaijan .........................................................................................76
**Sarishan N. ADISHOVA**
"Red tabor" in the organization of the people's movement..............................................88

### JOURNALISM

**Namig G.AHMADOV**
The role of the press in informing the society about the historical return
of Heydar Aliyev to Nakhchivan and his political activity
(analytical review of the press of the 1990s) ..................................................................96

### OBITUARY

To the dear memory of Professor Gudrat Ismayilzadeh ..................................................108

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

***PS: Rəhbərliyin bizə verdiyi göstərişə əsasən növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcək.***

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 22.07.2024
Formatı: 70x100 1/16. Həcmi 7,5 ç.v. Sayı 100.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bdumetbee@gmail.com
www.bsu.edu.az